RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 35 (9202) 16 FEVRAL 2023-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Strateji tərəfdaşlığımız birgə səylərimizlə yüksələn xətlə inkişaf edəcəkdir

### Serbiya Respublikasının Prezidenti zati-aliləri cənab Aleksandar Vuçiçə

Hörmətli cənab Prezident!

Serbiya Respublikasının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Azərbaycan ilə Serbiya arasında münasibətlər möhkəm dostluq, qarşılıqlı etimad və anlaşma üzərində qurulmuşdur. Sıx dövlətlərarası əlaqələrimiz və gündən-günə yeni məzmunla zənginləşən əməkdaşlığımız böyük məmnunluq doğurur.

Bu gün siyasi əlaqələrimizin yüksək səviyyəsi, çoxsaylı qarşılıqlı səfərlər, imzalanan sənədlər, həyata keçirilən birgə layihələr münasibətlərimizin genişlənməsində və qarşılıqlı fəaliyyətimizin dərinləşməsində mühüm rol oynayır. İkitərəfli müstəvidə olduğu kimi, ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq edirlər.

Əminəm ki, Azərbaycan-Serbiya strateji tərəfdaşlığı, siyasi, iqtisadi-ticari, energetika, nəqliyyat-logistika, müdafiə və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığımız birgə səylərimizlə bundan sonra da yüksələn xətlə inkişaf edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Serbiya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 fevral 2023-cü il*




## Azərbaycanda sosial siyasətin əsas hədəfidir

**Ölkəmizdə icra edilən sosialyönümlü islahatlar Azərbaycan vətəndaşının yaşam standartlarının yüksəldilməsini hədəfləyir. O cümlədən bu istiqamətdə görülən tədbirlərdən həssas kateqoriyadan olan bütün vətəndaşların faydalanmasına xüsusi diqqət verilir. Son dövrlər bu sahədə şəffaflığın artırılması, sənədləşmələrin elektron qaydada aparılması da əvvəllər rast gəlinməyən reallıqdır.**

Bütün bunlardan sonra, yeni sosial islahatların davamlılığı və dövrün tələblərinə uyğun olan tədbirlərin görülməsinin əhali tərəfindən razılıqla qarşılanması təbiidir. Niyə də olmasın - pensiyalar, təqaüdlər, müavinətlər və digər sosial ödənişlərin davamlı artırılması danılmaz faktlardır. Üstəlik, sosial islahatlar icra olunarkən cəmiyyətdəki həssas kateqoriyadan olan bütün vətəndaşların mənafeyi nəzərə alınır. Biz son beş ildə qəbul edilən dörd sosial islahat paketində bunun şahidiyik. Təkcə 750 milyon manat vəsait hesabına cari ilin əvvəlindən reallaşdırılan dördüncü sosial islahat paketindən arasında həmin kateqoriyadan olan 1,9 milyon insanın faydalanmasını xatırlatsaq kifayətdir.

Sıradan faktlar deyil: son beş ildə icra edilən sosial islahat paketlərinin qəbulu sayəsində minimum əməkhaqqında 2,7 dəfə, orta aylıq əməkhaqqında 52 faiz, median əməkhaqqında 2 dəfəyə yaxın artım müşahidə olunub. Bununla yanaşı, minimum pensiyada 2,5 dəfə, orta aylıq pensiyada 80 faiz artım qeydə alınıb. Sosial müavinət və təqaüdlər üzrə ödənişlərin illik vəsaiti isə son beş ildə 5 dəfə artaraq 1,5 milyard manat olub.

Cari ilin əvvəlindən reallaşdırılan yeni sosial islahat paketinin tərkib hissəsi kimi minimum aylıq əmək pensiyasının məbləği də 280 manata çatdırılıb. Bununla 2018-ci ilə nisbətən minimum pensiyada 2,5 dəfə artıma nail olunub və hazırda minimum pensiya pensiyaçılar üçün yaşayış minimumunu (199 manat) 40,7 faiz üstələyir. Onu da qeyd edək ki, bu ilin əvvəlindən indeksasiya əsasında pensiya artımı bütün pensiyaçılara şamil olunur. Hazırkı yeni indeksasiya artımından həm ümumi əsaslarla pensiya təyin edilmiş, həm də qulluq stajına görə əlavə alan pensiyaçılar (pensiyaçı hərbi qulluqçular, hüquq-mühafizə orqanları əməkdaşları və b.) daxil olmaqla 1,1 milyon pensiyaçı faydalanır.

→ 8

## Birinci vitse-prezident Mehriban Əliyeva akademik Arif Paşayevin doğum günü ilə əlaqədar paylaşım edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Azərbaycan elmi elitasının sayılıb-seçilən nümayəndələrindən biri olan akademik Arif Paşayevin doğum günü ilə əlaqədar rəsmi instaqram səhifəsində paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir. "Böyük ürək sahibi, nurlu, mehriban İnsan! Ad günün mübarək! Sənə möhkəm cansağlığı, gümrahlıq və gözəl əhvali-ruhiyyə arzulayıram! Sən gözəl ata və qayğıkeş babasan! Sənə sevgimiz sonsuzdur! Ömrün uzun olsun! Uca Allah bütün valideynləri qorusun!".

## Volodimir Zelenski İlham Əliyevə zəng edib

**Fevralın 15-də Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon danışığı əsnasında Ukrayna Prezidenti ölkəsinin ərazi bütövlüyü və suverenliyinə verdiyi dəstəyə və göstərilən humanitar yardımlara görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

Söhbət zamanı dövlət başçıları beynəlxalq platformalarda əməkdaşlıq məsələsini də müzakirə ediblər.

***Prezidentin Mətbuat Xidməti***

## Mehriban Əliyevanın göstərişi ilə daha bir humanitar yardım təyyarəsi Türkiyəyə yola düşüb



Türkiyədə zəlzələdən zərərçəkənlərə dəstək məqsədilə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın göstərişinə əsasən, Heydər Əliyev Fondu tərəfindən qardaş ölkəyə daha bir humanitar yardım göndərilib.

→ 2

## Azərbaycan könüllüləri birinci xanım Mehriban Əliyevaya müraciət qəbul ediblər

Azərbaycan könüllüləri birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya müraciət qəbul ediblər.

AZƏRTAC müraciəti təqdim edir.

"Hörmətli Mehriban xanım!

Türkiyədə baş vermiş dəhşətli zəlzələnin ilk anlarından biz Azərbaycan könüllüləri xalqımızın birlik, həmrəylik və qarşılıqlı yardım kimi ən yaxşı xüsusiyyətlərini nümayiş etdirərək qardaş türk xalqının yanında olmasının şahidi olduq. Yaşanan ağır faciəyə möhtərəm cənab Prezidentin və Sizin həssas münasibətiniz, yardımla bağlı verdiyiniz göstərişlər biz gənclərə hədsiz qürurlandırmaqla yanaşı, öz insansevərliyimizi nümayiş etdirməyə şərait yaratdı.

Zəlzələdən zərərçəkmiş insanlara dəstək məqsədilə başladılan yardım kampaniyasına qoşulan hər kəsə, o cümlədən bu işdə əlindən gələni əsirgəməyən çoxsaylı könüllülərə təşəkkür etməyiniz bizi olduqca təsirləndirdi. Bütün Azərbaycan xalqının səfərbər olduğu humanitar yardım aksiyasına qoşularaq Türkiyə xalqının yanında olmağı öz mənəvi borcumuz hesab edirik. Təbii fəlakətin fəsadlarının aradan qaldırılmasına Azərbaycan dövləti və xalqı tərəfindən verilən dəstəyə öz töhfəmizi vermək üçün gecə-gündüz dəmədən var gücümüzlə çalışırıq. Biz könüllülər bu xeyirxah əməllərin iştirakçısı olmaqdan qürur və şərəf duyuruq.

Hər zaman olduğu kimi, fəaliyyətimizə göstərdiyiniz diqqətə, verdiyiniz yüksək dəyərə görə Sizə səmimi-qəlbdən minnətdarıq. Xalqımızın əsrlər boyu yaşatdığı xeyirxahlıq, fədakarlıq və tamənnasız kömək ənənələrini davam etdirən Azərbaycan könüllüləri olaraq bundan sonrakı fəaliyyətimizdə də vətənpərvərlik və milli-mənəvi dəyərlərə daim sadiq qalacağımıza və daha böyük əzmlə çalışacağımıza söz veririk".



## Azərbaycan XİN-in hesabatı BMT-nin sənədi kimi yayılıb

Ermənistan tərəfindən uşaqların silahlı qüvvələrə və silahlı qruplara cəlb edilməsi ilə bağlı Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin hesabatı BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının sənədi kimi yayılıb. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın beynəlxalq hüquqazidd əməllərinin növbəti dəfə ifşa olunması məqsədilə hazırlanmış hesabatda bu ölkə tərəfindən uşaqların silahlı qüvvələrə və silahlı qruplara cəlb edilməsi, onlardan Azərbaycana qarşı etnik və milli nifrətin yayılması vasitəsi kimi istifadə edildiyinə dair ətraflı məlumat əks olunub.

→ 3

## Dünya daha da güclənmiş Türkiyə görəcək

Böyük fəlakətlər dövlətlər üçün həm də böyük sınaqdır, imtahandır. Həm də yalnız həmin fəlakətlərin, faciələrin baş verdiyi ölkə üçün yox, dünyanın, insanlığın imtahanıdır. Fevralın 6-sı günü Türkiyəni sarsıdan zəlzələlərdən sonra bir sıra ölkələr yalnız başsağlığı vermədilər, eyni zamanda öz yardımlarını təklif etdilər. Qardaş ölkəyə ilk uzanan əl isə, təbii ki, Azərbaycanın oldu. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, fevralın 6-da baş verən təbii fəlakətin nəticələrinin aradan qaldırılması məqsədilə qardaş Türkiyənin zəlzələ bölgəsinə dərhal yardım göstərilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər həyata keçirildi. Humanitar yardım dolu təyyarələr, yük avtomobilləri qardaş ölkəyə yola salındı. Fövqəladə Hallar Nazirliyinin xüsusi riskli xilasetmə qrupu ilk günlərdən zəlzələ nəticəsində dağıntılar altında qalmış insanların harayılarına yetmək üçün getdi.

Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq, Bakı və digər şəhərlərdə, eləcə də Naxçıvan Muxtar Respublikasında yerləşən tibb müəssisələri Türkiyədə baş vermiş zəlzələdə zərərçəkmiş şəxslərin müalicəsi üçün hazır vəziyyətə gətirildi.

Azərbaycandan Türkiyəyə humanitar yardım təyyarəsi fevralın 20-dək hər gün göndəriləcək.

→ 6

## N.K.Əliyevin Azərbaycan Rəssamlıq Akademiyasının rektoru təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Natiq Kamal oğlu Əliyev Azərbaycan Rəssamlıq Akademiyasının rektoru təyin edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 fevral 2023-cü il*

## Ö.H.Eldarovun Azərbaycan Rəssamlıq Akademiyasının rektoru vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Ömər Həsən oğlu Eldarov Azərbaycan Rəssamlıq Akademiyasının rektoru vəzifəsindən azad edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 fevral 2023-cü il*

# Baş nazir Əli Əsədov Birləşmiş Ərəb Əmirliklərinin Vitse-prezidenti və Baş naziri ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov fevralın 15-də Dubay şəhərinə işgüzar səfəri çərçivəsində Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Vitse-prezidenti və Baş naziri, Dubayın Əmiri Şeyx Məhəmməd bin-Rəşid Əl-Maktumla görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını Birləşmiş Ərəb Əmirliklərinin Vitse-prezidenti və Baş naziri, Dubayın Əmiri Şeyx Məhəmməd bin-Rəşid Əl-Maktuma çatdırıb.

Şeyx Məhəmməd bin-Rəşid Əl-Maktum salamlara görə minnətdarlığını bildirərək, onun da salamlarını Azərbaycan Prezidentinə çatdırmağı xahiş edib.

Görüşdə Prezident İlham Əliyevin cari il yanvarın 15-16-da BƏƏ-yə işgüzar səfərinin iki ölkə arasındakı münasibətlərin inkişafı baxımından rolu vurğulanıb. Dubay şəhərində keçirilən Dünya Hökumət Sammitinin əhəmiyyəti qeyd edilib, Azərbaycanın tədbirdə yüksək səviyyədə təmsil olunmasından məmnunluq ifadə olunub.

Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri arasında münasibətlərin həm ikitərəfli formatda, həm də beynəlxalq təsisatlar çərçivəsində inkişaf etdiyi diqqətə çatdırılıb.

Birgə həyata keçirilən və hər iki ölkənin maraqlarına cavab verən layihələrin önəmi qeyd olunub.

Həmçinin Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri arasında müxtəlif sahələrdə əməkdaşlığın perspektivləri müzakirə edilib.

# Baş nazir Əli Əsədov Dubayda "Henley and Partners" şirkətinin sədri ilə görüşüb



Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən Dünya Hökumət Sammitində iştirak edən Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov fevralın 15-də "Henley and Partners" şirkətinin sədri Kris Kelinlə görüşüb.

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetindən məlumat verilib.

# Azərbaycanla Serbiya arasında əməkdaşlığa dair fikir mübadiləsi aparılıb

Serbiyada səfərdə olan əmək və əhalinin sosial müdafiəsi naziri, Azərbaycanla Serbiya arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan tərəfindən həmsədri Sahil Babayevlə həmin komissiyanın Serbiya tərəfindən həmsədri, Serbiyanın əmək, məşğulluq, veteran və sosial məsələlər naziri Nikola Selakoviçin görüşü olub.



Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycan ilə Serbiya arasında əlaqələrin dostluq münasibətləri əsasında daim inkişaf etdiyi bildirilib. İki ölkənin dövlət başçılarının siyasi iradəsi və səyləri nəticəsində bu əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi və müxtəlif sahələrdə getdikcə genişləndiyi vurğulanıb.

Komissiyanın həmsədrləri iki ölkənin əməkdaşlıq gündəliyini nəzərdən keçiriblər. Enerji, kənd təsərrüfatı, ticarət, təhsil, sosial və s. sahələrdə gələcək əməkdaşlığa, Serbiyanın Qara dəniz sualtı elektrik və rəqəmsal qoşulma layihəsində iştirakına, qarşılıqlı investisiyaların təşviqinə dair fikir mübadiləsi aparılıb. İkitərəfli və tranzit yük axınlarının artırılması imkanlarından bəhs olunub, əmək, məşğulluq və sosial müdafiə sahəsində əlaqələrin genişləndirilməsi yolları müzakirə edilib.

Ölkəmizdə son illər sosial sahədə innovativ həllərin tətbiqi, dövlət sosial xidmətlərinin elektronlaşdırılması sahəsində əldə olunan uğurlar, DOST konsepsiyası qeyd edilib. Sosial sahədə iki ölkə arasında təcrübə mübadilələrinin aparılmasının önəmi vurğulanıb.

# Mehriban Əliyevanın göstərişi ilə daha bir humanitar yardım təyyarəsi Türkiyəyə yola düşüb





*Əvvəli 1-ci səh.*



AZƏRTAC xəbər verir ki, bu gün zəlzələ bölgəsinə uçan təyyarədə çadırlar və qızdırıcılar daxil olmaqla ümumilikdə 40 ton yardım yola salınıb.

Xatırladaq ki, Heydər Əliyev Fondu faciənin ilk günündən qardaş ölkəyə öz dəstəyini göstərib. Birinci xanım Mehriban Əliyevanın göstərişi ilə bundan əvvəl fevralın 9-da və 11-də faciədən zərərçəkmiş şəxslər üçün müxtəlif dərman preparatları, tibbi ləvazimat və avadanlıqlar, isti geyimlər, qızdırıcısı olan çadırlar, generatorlar, istilik radiatorları, çöl üçün qızdırıcılar, dizel yanacaqlı kaloriferlər, həmçinin axtarış-xilasetmə işlərinə dəstək məqsədi ilə ləvazimat və avadanlıqlar göndərilib.

Eyni zamanda xatırladaq ki, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin dəstəyi ilə vətəndaşlardan toplanan isti geyim və avadanlıqlar da artıq Türkiyəyə yola salınıb.

# Baş nazir Əli Əsədov Dubayda Dünya Hökumət Sammitinin plenar iclasında iştirak edib




Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov fevralın 15-də Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən Dünya Hökumət Sammitinin plenar iclasında iştirak edib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda çıxış edən Baş nazir Azərbaycan Respublikasının bu gün müstəqil və fəal xarici siyasət yürütdüyünü, dünya miqyasında etibarlı tərəfdaş kimi tanındığını bildirib.

Diqqətə çatdırılıb ki, 44 günlük Vətən müharibəsində Azərbaycan 30 il işğal altında qalan öz əzəli torpaqlarını azad etdi. Beynəlxalq hüquqa, onun norma və prinsiplərinə hər zaman böyük hörmətlə, məsuliyyətlə yanaşan Azərbaycan dövləti bu gün regionda sülhün, sabitliyin, əməkdaşlığın və dayanıqlı inkişafın bərqərar edilməsi istiqamətində səylə çalışır.

Azərbaycanın hər zaman ehtiyac içərisində olan ölkələrlə həmrəy olduğu, onlara yardım göstərdiyi xüsusi vurğulanıb. "Xüsusilə ötən dövr ərzində COVID-lə bağlı 80-dən çox ölkəyə göstərdiyimiz dəstək bizim beynəlxalq arenada həmrəyliyin möhkəmləndirilməsinə töhfəmizdir", - deyə Baş nazir bildirib.

Ə.Əsədov Türkiyənin cənub-şərqində baş vermiş dəhşətli zəlzələ ilə bağlı bir daha Azərbaycanın həmrəyliyini ifadə edib.

Azərbaycanın Qoşulmama Hərəkatındakı uğurlu sədrliyi barədə məlumat verən Ə.Əsədov üzv dövlətlərin yekdil razılığı ilə bu sədrliyin bir il uzadılmasının ölkənin beynəlxalq arenada oynadığı rola verilən qiymət kimi dəyərləndirib.

İclas iştirakçılarına Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, milli iqtisadiyyatın rəqabət qabiliyyətliyinin artırılması, əhalinin sosial müdafiəsinin təmin edilməsi, insanların yaşayış şəraitinin yaxşılaşdırılması, yoxsulluq səviyyəsinin əhəmiyyətli dərəcədə azaldılması istiqamətində görülən işlər barədə məlumat verilib.

Keçən il Ümumi Daxili Məhsulun əvvəlki illə müqayisədə 4,6 faiz artığı, xarici ticarətin ildən-ilə yüksəldiyi, eyni zamanda xarici borcun əhəmiyyətli dərəcədə azaldığı diqqətə çatdırılıb.

Bildirilib ki, iqtisadiyyatın şaxələndirilməsi və ixrac potensialının yüksəldilməsi istiqamətində tədbirlər nəticəsində qeyri-neft məhsullarının ixracı 12,3 faiz yüksəlib və dövlət büdcəsinin gəlirlərinin 50 faizi qeyri-neft-qaz gəlirləri hesabına formalaşıb.

Bütün ölkələr üçün ərzaq təhlükəsizliyi məsələsinin kəskin şəkildə aktuallaşması fonunda Azərbaycanda əsas ərzaq məhsulları ilə daxili bazarın təchizatının yaxşılaşdırılması və özünütəminat səviyyəsinin qorunması istiqamətində təxirəsalınmaz tədbirlərin görüldüyü qeyd olunub.

Vurğulanıb ki, Azərbaycanın dövlət siyasətinin mühüm tərkib hissələrindən biri də əhalinin sosial məsələlərinin həlli, onların dövlət orqanlarının xidmətlərinə əlçatanlığının təmin edilməsi və vətəndaş məmnunluğunun daha da artırılmasıdır.

Bu baxımdan Azərbaycan Prezidentinin təşəbbüsü ilə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin və Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin yaradılması dövlət və sosial xidmətlər sahəsində keyfiyyətcə yeni mərhələ açan və şəffaflıq, operativlik, vətəndaş məmnunluğunu təmin edən addım kimi qiymətləndirilib.

Ötən illər ərzində nəqliyyat infrastrukturuna böyük sərmayə yatıran Azərbaycanın bir sıra regional və beynəlxalq nəqliyyat layihələrinin təşəbbüskarı və əsas iştirakçısı olduğu diqqətə çatdırılıb. Nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ölkənin tranzit imkanlarının genişləndirilməsində həlledici və mühüm rola malik olduğu vurğulanıb.

Azərbaycanın kosmik sənaye və müasir texnologiyalar sahələrində əldə etdiyi uğurlardan bəhs edən Baş nazir 2023-cü ilin oktyabr ayında Bakı şəhərində 74-cü Beynəlxalq Astronavtika Konqresinin keçiriləcəyini bildirib, bu sahədə fəaliyyət göstərən bütün təşkilat və qurumları tədbirə dəvət edib.

Azərbaycanın eyni zamanda bir sıra vacib enerji layihələrinin təşəbbüskarı və iştirakçısı qismində çıxış etdiyi bildirilib, "Cənub qaz dəhlizi" layihəsinin Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi üçün mühüm əhəmiyyətə malik olduğu diqqətə çatdırılıb.

Baş nazir vurğulayıb ki, bununla bərabər, Azərbaycan elektrik enerjisi ixracatçısı kimi də öz mövqeyini möhkəmləndirməkdədir və ölkə çox böyük "yaşıl enerji" potensialına malikdir.

"Bu gün biz xarici investorlarla birlikdə günəş və külək enerjisinin istehsalı ilə bağlı layihələrə başlamışıq. Bunlardan biri - 230 MVt gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyası layihəsi Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə birgə həyata keçirilir. "Masdar" şirkəti bu sahədə bizim üçün əsas və güvənilən tərəfdaşlardan biridir", - deyə Baş nazir bildirib.

Ötən ilin dekabr ayında Buxarestdə Azərbaycan, Gürcüstan, Rumınıya və Macarıstan arasında imzalanan "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında sazişin əhəmiyyəti vurğulanıb.

Postpandemiya, postmünaqişə və polikrizis dövrünün çağırışlarına toxunan Ə.Əsədov növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafının təmin edilməsi məqsədilə Azərbaycan Prezidenti tərəfindən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edildiyini diqqətə çatdırıb.

Bildirilib ki, 30 il ərzində işğal altında qalan Azərbaycan ərazilərinin azad edilməsi, bu ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin, xüsusilə də region üçün böyük əhəmiyyətə malik Zəngəzur dəhlizinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcək.

# Xarici işlər naziri Ceyhun Bayramov ilə ABŞ Dövlət katibinin köməkçisi arasında növbəti telefon danışığı olub





**Fevralın 15-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Amerika Birləşmiş Ştatlarının Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfrid arasında növbəti telefon danışığı olub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, tərəflər regionda cari vəziyyət və Azərbaycanla Ermənistan arasında sülh sazişi üzrə danışıqların perspektivləri barədə müzakirə aparıblar. Nazir Ceyhun Bayramov üçtərəfli Bəyanata uyğun olaraq Azərbaycanın Laçın yolunda yalnız vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin təhlükəsizliyinə zəmanət verdiyini, lakin Ermənistan tərəfindən Laçın yolunun qeyri-qanuni iqtisadi fəaliyyətlər, erməni hərbçilərinin rotasiyaları, minaların daşınması üçün sui-istifadə edildiyini bildirib. Laçın yolunda etiraz aksiyaçılarının legitim tələblərinin hələ də yerinə yetirilmədiyini qeyd edib. Bölgədə guya "gərgin humanitar" vəziyyət yarandığı barədə iddiaların heç bir əsasının olmadığını vurğulayıb.

Nazir həmçinin Ermənistanın sülh sazişi üzrə danışıqlar prosesi ilə əlaqədar manipulyasiyalara yol verdiyini diqqətə çatdırıb.

Tərəflər telefon danışığı zamanı həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Aİ-nin "Şərq tərəfdaşlığı" Proqramı üzrə səfiri Cənubi Qafqazdakı vəziyyət barədə məlumatlandırılıb



Fevralın 15-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Proqramı üzrə səfiri Kristina Yohannesson ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı Şərq Tərəfdaşlığının cari vəziyyəti, xüsusilə enerji təhlükəsizliyi və alternativ enerji resurslarının inkişaf etdirilməsi daxil olmaqla, bir sıra istiqamətlərdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq məsələləri, bölgədə cari vəziyyət müzakirə olunub. Bununla yanaşı, İsveçin Avropa İttifaqı Şurasına sədrliyi dövründə prioritetləri və bu çərçivədə həm İsveçlə, həm də Avropa İttifaqı ilə ölkəmiz arasında əməkdaşlıq məsələlərinə görüş zamanı diqqət yetirilib. Nazir Ceyhun Bayramov Avropa İttifaqı ilə bərabərhüquqlu tərəfdaşlıq və qarşılıqlı hörmət əsasında ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduğunu diqqətə çatdırıb.

Eyni zamanda nazir Azərbaycanın sülh gündəliyi, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması prosesi, Laçın yolu ətrafındakı hazırkı vəziyyət və bu çərçivədə ölkəmizin legitim tələbləri və təhlükəsizlik maraqları barədə qarşı tərəfi məlumatlandırıb. Ermənistanın sülh prosesinə və sülh sazişi üzrə danışıqlara yaratdığı maneələr diqqətə çatdırılıb. Görüşdə həmçinin digər ikitərəfli və regional aktual mövzular ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan XİN-in hesabatı BMT-nin sənədi kimi yayılıb

*Əvvəli 1-ci səh.*

Hesabatda açıq informasiya mənbələrindən əldə olunmuş məlumat, foto və videomateriallar, eləcə də məsələ ilə bağlı üçüncü tərəflərin hesabatlarında öz əksini tapmış faktlar əsasında Ermənistanın bir sıra beynəlxalq konvensiyaların müddəalarını kobud şəkildə pozduğu diqqətə çatdırılır, etnik və milli zəmində nifrəti aşılamaqla sülhə və təhlükəsizliyə təhdid törədən əməlləri ifşa edilir.

Sənəddə Ermənistanın postmünaqişə dövründə də uşaqların hərbi təlimlərə cəlb olunması, onlarda nifrət və düşmənçiliyin aşılanması, Azərbaycanla yeni müharibəyə hazırlanması fəaliyyətini davam etdirdiyi diqqətə çatdırılır.

Bunun uşaq hüquqları və beynəlxalq humanitar hüquqla bərabər, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyanın (CERD) kobud pozuntusu olduğu, xüsusilə Beynəlxalq Ədalət Məhkəməsinin 2021-ci il 7 dekabr tarixli Ermənistanın öz ərazisində fəaliyyət göstərən və azərbaycanlıları hədəf alan fərdlər və təşkilatlar vasitəsilə irqi nifrəti təşviq etməsini qadağan edən müvəqqəti tədbirlərə dair qərarından irəli gələn öhdəliyinə əməl etmədiyinin bariz nümunəsi olduğu vurğulanıb. Sənəddə beynəlxalq cinayət əməllərinə görə Ermənistanın beynəlxalq hüquqi məsuliyyətə cəlb olunması və bu ölkə tərəfindən uşaqların qanunsuz olaraq silahlı qüvvələrə və silahlı qruplara cəlb edilməsi, onlardan istifadə olunması fəaliyyətinə son qoyulmasının təmin edilməsi üçün BMT və onun ixtisaslaşmış təsisatlarına, müvafiq mandat daşıyıcılarına müraciət olunub.

# Sergey MARKOV: "Vardanyan Qarabağdakı mədənləri vəhşicəsinə qarət edir"

Əminəm ki, Vardanyan özünün fransız kampaniyaları vasitəsilə və çox güman ona məxsus olan Fransa pasportundan istifadə edərək Qarabağdakı mədənləri vəhşicəsinə qarət edir.

AZƏRTAC xəbər verir ki, bu sözləri "Rusiya və Fransanın Cənubi Qafqazda və Afrikada mübarizəsi" mövzusunda keçirilən "dəyirmi masa"da Siyasi Tədqiqatlar İnstitutunun direktoru Sergey Markov söyləyib.

S.Markov qeyd edib ki, Afrikada mövqelərini itirən Fransa Prezidenti Emmanuel Makron Qafqazda möhkəmlənmək qərarına gəlib. Ekspert əlavə edib: "Makron Ermənistanda sıçrayış edib. İndi Fransa parlamentində Azərbaycan və Rusiya əleyhinə silsilə qətnamələr qəbul edilir. Paris çalışır ki, Ermənistan Rusiyanın yox, Fransanın müttəfiqi olsun".

Politoloqun fikrincə, eyni zamanda Ermənistan KTMT-dən çıxmayacaq. "Ermənistan bu təşkilatda qalaraq KTMT-nin fəaliyyətini pozacaq və iflic edəcək. Ermənistan rəhbərliyi KTMT-nin fəaliyyətini daxildən dağıtmaq üçün əlindən gələn hər şeyi edir", - deyə o əlavə edib.



S.Markovun sözlərinə görə, Fransa Cənubi Qafqazda bir neçə prinsipi rəhbər tutur. Bu, rusofobiya və türkofobiyadır. Parisin anti-Azərbaycan mövqeyi anti-türk və islamofobiya amillərinə söykənir.

# Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi müzakirə edilib



Fevralın 15-də Milli Məclisin Regional məsələlər komitəsinin növbəti iclası keçirilib. İclasda bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi müzakirə olunub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Siyavuş Novruzov bildirib ki, Ədliyyə Nazirliyinin bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı 2022-ci il üzrə illik məruzəsi dolğun və əhatəli hazırlanıb. Məruzədə həm bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət, həm də onlara metodoloji yardım üzrə il ərzində həyata keçirilən məqsədyönlü işlər, digər əhəmiyyətli tədbirlər barədə ətraflı məlumat verilib.

O ilk növbədə vurğulayıb ki, dövlət başçısının sərəncamı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illiyi münasibətilə 2023-cü il "Heydər Əliyev İli" elan olunub. Bununla əlaqədar olaraq bütün dövlət orqanlarında, o cümlədən Milli Məclisdə parlamentin sədri Sahibə Qafarovanın rəhbərliyi ilə tədbirlər planı qəbul olunub. Bildirilib ki, Azərbaycan Konstitusiyasında bələdiyyələrlə bağlı müddəaların öz əksini tapması, onların formalaşması və inkişafı, özünüidarəetmə orqanlarının fəaliyyətinə dair qanunvericilik bazasının yaradılması Ümummilli Liderin adı ilə bağlıdır.

Siyavuş Novruzov qeyd edib ki, ölkəmizdə bələdiyyələrin fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə, qəbul etdiyi qərarların qanunvericiliyə uyğun olmasına nəzarət həyata keçirilir. Hər hansı qanun pozuntusu zamanı aidiyyəti strukturlar tərəfindən bunların aradan qaldırılması istiqamətində lazımi işlər görülür və bununla bağlı göstəricilər məruzədə geniş şəkildə öz əksini tapıb. Sənəddə bildirilir ki, hesabat dövründə qanunsuz bələdiyyə aktlarının ləğvi, bir sıra aktların dəyişdirilməsi məqsədilə təkliflər verilib. Bəzi təklifləri bələdiyyələr təmin etmədiyinə görə Ədliyyə Nazirliyi tərəfindən məhkəmələrdə iddialar qaldırılıb. Bununla yanaşı, bələdiyyələrin gəlirləri, yerli vergi və ödənişlər, hüquqi maarifləndirmə, bələdiyyə torpaqlarının icarəyə verilməsi, onların effektiv istifadəsi ilə bağlı məqamlar məruzəyə daxil edilib.

Hesabatda bələdiyyələrin beynəlxalq əlaqələrinin qurulması, dünyanın aparıcı ölkələrinin təcrübəsinin öyrənilməsi, bələdiyyə işçilərinin etik-davranış qaydalarına əməl etməsi, yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin təşkilində informasiya və kommunikasiya texnologiyalarından geniş istifadə olunması, ictimaiyyətlə əlaqələrin qurulması ilə bağlı məlumatlar da verilib.

Ölkə həyatının bütün sahələrində olduğu kimi, regional inkişafla bağlı islahatların da aparıldığını deyən komitə sədri bu sahədə yeni formaların tətbiq olunduğunu və bu baxımdan bələdiyyələrin yeni strukturlara uyğunlaşdırılması məsələsinin vacibliyini qeyd edib. O, həmçinin bələdiyyə seçkiləri ilə bağlı məsələyə də toxunub, bununla əlaqədar lazımi hüququ bazanın olduğunu söyləyib, bu sahədə mövcud qaydalar barədə fikirlərini açıqlayıb.

Sonra ədliyyə nazirinin müavini Vilayət Zahirov bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsini təqdim edib.

Diqqətə çatdırılıb ki, Ədliyyə Nazirliyi tərəfindən bələdiyyələrlə iş iki əsas istiqamət - bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət və bələdiyyələrlə metodoloji iş və maarifləndirmə üzrə aparılıb. O qeyd edib ki, ilk dəfə olaraq 2022-ci ildə inzibati nəzarət orqanına təqdim olunan bələdiyyə aktlarının sayı 95 mindən çox olub. Ümumilikdə həm aktlar, həm də müraciətlər üzrə inzibati nəzarət icraatı zamanı 3800-ə yaxın aktın dəyişdirilməsi və ya ləğvi məqsədi ilə bələdiyyələrə təkliflər verilib. İnzibati nəzarət icraatı zamanı 27 halda ciddi qanun pozuntusu aşkar edilərək, toplanmış sənədlər ümumi qiymətləndirmə üçün aidiyyəti üzrə göndərilib. Ötən il ərzində inzibati nəzarət orqanının təklifi və ya məhkəmə iddiaları əsasında ümumilikdə 13 min hektardan çox torpaq sahəsinin qanunsuz verilməsi barədə bələdiyyə qərarları ləğv edilib.

Bildirilib ki, hesabat ilində bələdiyyələrin fəaliyyəti ilə bağlı müraciətlərə baxılmasına diqqət daha da artırılıb. Qanunvericiliklə müəyyən edilmiş qaydada baxılmış 4594 müraciətdən 4008-i təmin edilib və bu əvvəlki illə müqayisədə 39 faiz çoxdur. Qeyd edilib ki, xüsusi nəzarətə götürülən şəhid ailələrinin, müharibə əlilləri və iştirakçılarının müraciətlərindən 132-si təmin edilib. Bu da əvvəlki illə müqayisədə 30 faiz çoxdur.

Nazir müavini deyib ki, 2022-ci ildə bələdiyyələrin fəaliyyətinin qanunauyğun təşkilinə yardım tədbirlərinin səmərəliliyinin artırılması da diqqət mərkəzində saxlanılıb. Bələdiyyələrin maliyyə vəziyyətinin yaxşılaşdırılması istiqamətində görülən işlərlə bağlı müsbət nəticələr əldə edilib, yerli büdcə gəlirlərində artım müşahidə olunub. Ötən il ərzində fiziki şəxslərin torpaq və əmlak vergisi üzrə yerli büdcələrə 2021-ci illə müqayisədə 2 milyon manat çox vəsait daxil olub. Son iki ildə bununla bağlı yerli büdcələrə 6.5 milyon manata yaxın, yəni 2020-ci illə müqayisədə 50 faiz çox əlavə vəsait daxil olub.

Qeyd edilib ki, bələdiyyə torpaqlarından qanunauyğun, səmərəli istifadə olunması da yerli büdcə gəlirlərinin artımına müsbət təsir göstərir. Bu sahədə işlərin davamlılığı il ərzində diqqətdə saxlanılıb. Belə ki, inzibati nəzarət tədbirləri çərçivəsində ümumilikdə 14 min ha torpaq sahəsinin qanunsuz ayrılması ilə bağlı bələdiyyə aktlarının ləğv edilməsi məqsədilə nazirlik tərəfindən bələdiyyələrə təklif və ya məhkəmələrə iddialar verilib.

Bildirilib ki, bələdiyyələrə yerli büdcə məsələləri ilə bağlı metodoloji yardım göstərilməsinə, müxtəlif metodik vəsait və tövsiyələrin hazırlanmasına baxmayaraq, bu sahədə bir sıra pozuntulara hələ də yol verilir. Bununla bağlı hər bir bələdiyyə üzrə mövcud nöqsan və çatışmazlıqlar göstərilməklə qanunvericiliyin tələblərini izah edən tövsiyələr göndərilib, maliyyə məsələlərinin düzgün tənzimlənməsi məqsədilə maarifləndirmə işləri aparılıb.

Diqqətə çatdırılıb ki, ölkəmizdə qəbul olunan dövlət proqramlarında yerli özünüidarəetmə ilə bağlı tapşırıqlarda bələdiyyələrin fəaliyyətində ictimai iştirakçılığın təmini, şəffaflıq və hesabatlılığın gücləndirilməsi əsas prioritetlərdən biri kimi müəyyən olunur. 2022-ci ildə insanların rifahının yaxşılaşdırılması naminə sosial, iqtisadi və digər sahələrdə tədbirlərin həyata keçirilməsində, yerli əhəmiyyətli məsələlərin həllində iştirak edən bələdiyyələrin rolunun ölkə ictimaiyyətinə çatdırılması məqsədilə "Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 2021-2023-cü illər üzrə Kommunikasiya Strategiyası"nda bir sıra hədəflər müəyyənləşdirilərək, onların icrası üzrə bələdiyyələrlə metodoloji iş aparılıb. "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"na uyğun olaraq "Bələdiyyələrlə iş portalı"nın daha təkmil, yeni versiyası hazırlanıb. Yerli özünüidarəetmə sahəsində Ədliyyə Nazirliyinin gördüyü işlər, o cümlədən illik məruzələr, bələdiyyələrə metodoloji kömək məqsədilə hazırlanmış metodik vəsait və tövsiyələr, həmçinin bu sahəni tənzimləyən qanunvericilik aktları barədə məlumatlar portalda öz əksini tapıb.

Qeyd olunub ki, il ərzində yerli özünüidarəetmə sahəsində Ədliyyə Nazirliyi tərəfindən görülən işlər barədə vətəndaşların məlumatlandırılması, eləcə də aktual məsələlərlə bağlı bələdiyyələrin maarifləndirilməsi məqsədilə nazirliyin rəsmi saytından və kütləvi informasiya vasitələrinin imkanlarından geniş istifadə edilib.

Nazir müavini deyib ki, ümumilikdə 2022-ci il ərzində həyata keçirilən tədbirlər ölkəmizdə bələdiyyələrin fəaliyyətində qanunçuluğun təmin olunmasına, yerli büdcə gəlirlərinin artırılmasına, bələdiyyələrin yerli özünüidarəetmə orqanı kimi ictimai nüfuzunun yüksəldilməsinə və digər aktual məsələlərə həsr olunub.

Sonra təqdim olunan məruzə ətrafında müzakirələr aparılıb. Müzakirələrdə çıxış edən komitənin sədr müavini Elşən Musayev, üzvləri Nizami Cəfərov, Aqil Məmmədov, Kamran Bayramov, Tahir Rzayev, Emin Hacıyev, Səbinə Xasayeva, Səttar Möhbalıyev məruzənin əsaslandırılmış şəkildə və əhatəli hazırlandığını söyləyiblər. Deputatlar bələdiyyələrin fəaliyyətinin səmərəliliyinin artırılması, onların maliyyə mənbələri, büdcəsinin yaxşılaşdırılması ilə bağlı fikirlərini açıqlayıblar, yerli özünüidarəetmə orqanlarında işin qurulması ilə bağlı metodik vasitələrin hazırlanması, maarifləndirmə prosesinin aparılması, bələdiyyələrin fəaliyyətinin təbliğinin əhəmiyyətindən bəhs ediblər, bir sıra qeyd və təkliflərini bildiriblər.

Ədliyyə nazirinin müavini Vilayət Zahirov deputatların səsləndirdikləri sualları cavablandırıb, qaldırılan bəzi məsələlərə aydınlıq gətirib.

Müzakirələrin sonunda bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi müsbət qiymətləndirilib və Milli Məclisin plenar iclasında baxılmaq üçün tövsiyə olunub.

***"Azərbaycan"***

# Meksika Senatının sədri: "Dövlətimiz və hökumətimiz erməni soyqırımını tanımır"

Fevralın 14-də Meksika Senatının Sədri Alexandro Armenta Mier Senatın növbəti sessiyası zamanı çıxış edərək bir neçə gün öncə qondarma "erməni soyqırımı"nı tanıyan bəndin qəbulu ilə bağlı açıqlama verib.



Azərbaycanın Meksikadakı Səfirliyindən AZƏRTAC-a verilən məlumata görə, sədr Meksika hökumətinin və dövlətinin erməni soyqırımını tanımadığını bildirib, Meksika Senatının münaqişələrin danışıqlar və sülh yolu ilə həll olunmasının daim tərəfdarı olduğunu vurğulayıb.



# Heydər Əliyev İli 2023



# Heydər Əliyevin irsi bütün dövrlər üçün önəmlidir

***XX** əsr bəşər tarixində fövqəladə hadisələrlə fərqlənməklə yanaşı, həm də böyük şəxsiyyətlər yetirmişdir. Onların içərisində dövrünün aparıcı liderlərinə nümunə olan dahi Heydər Əlirza oğlu Əliyevin adı, zəngin irsi xüsusi vurğulanmalıdır. Ümummilli Liderin həyat və yaradıcılığını ətraflı tədqiq edən alimlər onun fenomenal şəxsiyyət olduğunu bildirirlər.*

Azərbaycan KP MK-nin lektoru kimi fəaliyyət göstərdiyim dövrlərdə partiya və dövlətin qərarlarından, inkişaf planlarından və s. irəli gələn vəzifələri və qarşıya çıxan problemləri yüksək səviyyədə öyrənməyə çalışırdım. Heydər Əliyevin irsi bir çoxları kimi, mənim də dünyagörüşümün formalaşmasına ciddi təsir göstərmişdir. Biz başqalarından fərqli olaraq Ümummilli Liderin irsini, nitqini, dəst-xətini nisbətən yaxşı duyurduq və lektorluq fəaliyyəti bizə imkan vermişdi ki, Ulu Öndəri yenidənqurma dövründə də dərindən dərk edək və duya bilək. Onun irsinin zənginliyi, cəlbediciliyi, doğmalığı ondan ibarət idi ki, böyük rəhbərdə müəllimlik məharəti, alim zəkası, adamları dinləmək, insanda müsbət emosiya yaratmaq mədəniyyəti və digər dəyərli cəhətlər var idi.

Heydər Əliyev dağılmaqda olan Azərbaycanı qoruyaraq onu parçalanmaq təhlükəsindən xilas etmiş, ölkəmizi beynəlxalq birliyin nüfuzlu üzvlərindən birinə çevirmişdir. Haqlı olaraq Heydər Əliyevi ABŞ-ni dünyaya ilk dövlət kimi tanıdan prezident Corc Vaşinqtonla, İkinci Dünya müharibəsindən sonra yanıb külə dönmüş Almaniyanı dirçəldən, yeni qüdrətli ölkələr sırasına çıxaran kansler Adenaura bənzədirlər. Türkiyənin keçmiş baş naziri Süleyman Dəmirəl demişdir: "Heydər Əliyev təkcə Azərbaycanın deyil, bütün türk dünyasının yetişdirmiş olduğu ən məşhur dövlət xadimlərindən biridir".

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlişi (1969), ilk dövrlərdən özünü səriştəli dövlət xadimi kimi göstərməklə yanaşı, respublikanın beynəlxalq nüfuzunu yüksəltmişdir. Azərbaycan Respublikasının rəhbərinin ensiklopedik biliyə, iradəyə, təcrübəyə və s. malik olması onun diplomatiyasının məntiqini, gücünü artırırdı. Heydər Əliyev Azərbaycanı yeni istiqamətdə idarə etmək məqsədilə güclü kadr hazırlığına və elmin inkişafına önəm verməyə başlamışdır.

Azərbaycanda xarici ölkələr üçün mütəxəssislər hazırlanması, xaricə təhsil almaq üçün tələbələr göndərilməsi, ölkənin ədəbi, mədəni, siyasi həyatına dair ümumittifaq əhəmiyyətli konfransların Bakıda keçirilməsi respublikamızın yüksəlişini əyani olaraq sübut etmişdir. Bu tədbirlərin iştirakçısı olmaqdan məmnunluq duyurduq. Göstərilən tələblər dövründə BDU-da əməkdaşı olduğum İqtisadi coğrafiya kafedrasının üzvləri ilə birlikdə "Azərbaycanda məhsuldar qüvvələrin inkişaf etdirilməsi məqsədilə təbii şəraitin kompleks qiymətləndirilməsi" mövzusunda Dövlət Plan Komissiyasının İqtisadiyyat, Arxitektura və Şəhərsalma Komitəsinin layihə institutları və başqa təşkilatların alim və mütəxəssislərilə geniş əməkdaşlıq edirdik. Ümumiyyətlə, bütün elm-təhsil-innovativ sahələrdə vahid birlik var idi. Azərbaycanda təbii şəraitin, təbii ehtiyatların qiymətləndirilməsi və mühafizəsi sahəsindəki fəaliyyəti akademik Həsən Əliyevin ətraf mühiti mühafizə sahəsindəki fəaliyyəti ilə ümumi hərəkata çevrilmişdir.

Ümummilli Lider yaxşı bilirdi ki, XX əsrin ortalarından sonra əhali artımı, əhalinin tələbatı, elmi-texniki problemlər təbii şəraitə və təbii resurslara olan tələbatı artırmaqdadır. Ölkələr inkişaf etdikcə, antropogen təsirlər ətraf mühitdə böyük problemlər yaratmışdı. Fəaliyyətinin ilk onilliyində ətraf mühiti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadə sahəsində 8 qanun qəbul edilmiş, Mərkəzi Komitənin, Nazirlər Sovetinin 30-dan çox qərarı verilmişdir. Azərbaycan keçmiş SSRİ-də ilk respublikalardan idi ki, ətraf mühiti mühafizə ilə bağlı təbii ehtiyatlardan səmərəli istifadə məsələləri qanunvericilikdə və icraedici orqanların fəaliyyətində öz əksini tapmışdır. Ulu Öndər yaxşı bilirdi ki, əhalinin demoqrafik artımına və tələbatına malik ölkənin iş yerlərinin yaradılmasına, məhsuldar ərazilərin genişlənməsinə və s. böyük ehtiyac vardır.

Deyilənlərə təminat yaratmaq üçün kompleks tədbirlərin həyata keçirilməsi planlaşdırılmışdır: torpaqlardan səmərəli istifadə və bərpa edilməsi; su hövzələrinin yaradılması, sulardan qənaətlə istifadə edilməsi; meşə qoruyucu sahələrin yaradılması; bioloji müxtəlifliyin qorunması məqsədilə Şirvan (1969), Bəsitçay (1974), Ağgöl (1978), İsmayıllı (1981) qoruqlarının və yasaqlıqların yaradılması; iri şəhərlər ətrafında yaşıllıq massivlərinin salınması; Kürsu kəmərinin çəkilməsi və su təmizlənmə qurğularının yaradılması, Xəzər dənizinin çirklənməsinin qarşısının alınması; istehsal infrastrukturunun yenidən qurulması; şəhər-kənd məskunlaşma sistemlərində urbanizasiya səviyyəsinin nizamlanması məqsədilə rayonların layihələşdirilməsi və şəhərsalmada kompleks konstruktiv yanaşmanın həyata keçirilməsi və s.

Bu işlərin həyata keçirilməsi maddi-texniki bazanın, maliyyə-kredit sisteminin yenidən qurulmasına da ehtiyac yaratmışdır. Keçmiş SSRİ-də mərkəzi dövlətçilik sisteminin böyük məhdudiyyətlər qoymasına baxmayaraq, respublikada potensial imkanlar müəyyən edilmiş, elm və təhsildə yeni istiqamətlərin yaradılmasına da zərurət yaratmışdır. Bu yaradıcı münasibət kadrların hazırlığına da çox müsbət təsir göstərmişdir. Məhz 1970-1980-ci illərdə ali təhsil sistemində onlarla açılan yeni ixtisas kafedralarının böyük əksəriyyəti ekoloji təmayüllü kafedralar, yaxud da həmin sahənin inkişafına təsir göstərən kafedralar olmaqla təbii məhsuldar qüvvələrin idarə edilməsində mühüm yer tuturdu.

Ümummilli Lider 1993-cü ildə yenidən hakimiyyətə gəldiyi dövrdə Azərbaycanda siyasi-iqtisadi, sosial-mənəvi vəziyyət olduqca gərgin idi. Bu ağır vəziyyətlə yanaşı, qonşumuz Ermənistanla müharibə vəziyyətində idik. Daxildə siyasi qüvvələr arasında münasibətlər də kəskinləşmişdi. Göstərilənləri düzəltmək üçün Ulu Öndərdən çox vaxt analitik təhlillər və s. kimi ciddi əmək tələb edirdi. Gərginliklər tədricən aradan qaldırıldıqca Azərbaycanın bütün sahələrində olduğu kimi, ekoloji və ətraf mühitin mühafizəsinin idarə edilməsi və kadr hazırlığı istiqamətində yeni irəliləyişlər yaranmağa başlandı. Nəticədə 1997-ci ilin yekunlarına görə iqtisadi və sosial sahədə tənəzzülün tam dayandırılması mümkün olmuşdur.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə ölkədə siyasi-hərbi, iqtisadi sabitliyin yaranması ilə xarici nümayəndəliklərin əməkdaşlıqlarına ölkəmizdə fəaliyyətlərinin davam etdirilməsi üçün şərait yaranmışdır. Önəmlidir ki, xarici mütəxəssislər Azərbaycanda təbiəti mühafizə sahəsində fəaliyyətə başlayanda mövcud olan qanunvericiliyi qəbul edirdilər. Həmin dövrdəki Dövlət Ekologiya Komitəsi rəhbərliyi ölkə Prezidentinin bu sahədəki ideyalarını əsas tutaraq, respublikada ekoloji tarazlığın saxlanılmasına ciddi riayət etmişlər. Eyni zamanda komitə tərəfindən Prezidentin ekoloji problemlərin idarə edilməsi sahəsindəki fərmanlarına uyğun olaraq Milli Fəaliyyət Planı hazırlanaraq təsdiqlənmişdir. Ekologiya sahəsində beynəlxalq siyasi prinsiplərin də nəzərə alınması ilə ölkədə elmi və texniki mütəxəssislərin qüvvə və bacarıqları beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmışdır. Məhz qısa vaxt ərzində BMT, YUNEP, UNESCO, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının nümayəndələri, ABŞ, Böyük Britaniya, Almaniya, MDB və başqa dövlətlərin təbiəti mühafizə təşkilatları ölkəmizin müvafiq qurumları ilə danışıqlar aparmağa başlamışlar. Onların əksəriyyəti ilə ekologiya və ətraf mühitin qorunması sahəsində əməkdaşlıq müqavilələri, protokollar imzalanmışdır (1998). Respublika ətraf mühiti mühafizə üzrə Milli Fəaliyyət Planında təbiətimizin bioloji və landşaft müxtəlifliyini saxlamaq məqsədilə respublika ərazisində daha yeni Milli Parkların, dövlət qoruqlarının yaradılması zərurəti yaradılmışdı.

Ulu Öndərin cəmiyyətin elmi əsaslarla idarə edilməsi sahəsindəki fəaliyyəti nəticəsində təhsil-elm-istehsalat birliklərinin əməkdaşlığı yüksək nəticələr vermiş və həmin sahədə alimlərin, mütəxəssislərin əlaqələri təkmilləşdirilmişdir. Göstərilən idarəçilik forması nəinki, təhsilin ekologiyalaşmasına, eyni zamanda gələcək mütəxəssislərin aşağı kurslardan istehsalla tanış olmalarına, məzun dövrünü başa vuranda istehsalatda sınaq müddəti keçmədən ilk günlərdən fəaliyyətə bacarıqlı mütəxəssislər kimi başlaya bilmələrinə şərait yaratmışdır.

Azərbaycanın idarəedilməsinin strukturları ekologiyalaşmış, həmin sahədə bir təkamüllük yaranmışdı. Bu proses sonrakı mərhələdə də dövlət strukturlarının təkmilləşdirilməsinə və inteqrasiyasına müsbət təsir göstərmişdir. Məhz belə bir fəaliyyətin nəticəsi idi ki, Prezidentin 23 may 2001-ci il fərmanına uyğun olaraq Ekologiya və təbii ehtiyatlardan istifadəyə Nəzarət Komitəsi bir neçə komitələr, birliklər əsasında Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılmışdır. Fərəhlənirik ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin bütün strukturlarında Azərbaycanın təhsil sisteminin, xüsusilə Bakı Dövlət Universitetinin məzunları da peşakarlıqla çalışırlar.

Ümummilli Lider ikinci dəfə respublika rəhbərliyinə qayıdandan sonra ardıcıl olaraq islahatların həyata keçirilməsi ölkəmizin müstəqilliyinin möhkəmlənməsinə böyük təminat yaratdı. Eləcə də 1999-cu il 15 iyun fərmanı ilə "Azərbaycan Respublikasında təhsil islahatı" proqramı müvəffəqiyyətlə reallaşmağa başladı. Ümumtəhsil islahatı dövründə ekoloji təhsil daha məqsədyönlü və intensiv həyata keçirildi. Heydər Əliyevin 22 yanvar 2003-cü ildə Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında fərmanı dövrün tələblərinə uyğun idi. Həmin fərman ekoloji təhsil sistemində, yeni ixtisasların yaranması ilə yanaşı, ekologiyanın elmlərarası əlaqələri daha da genişləndirilmişdir.

Heydər Əliyevin fəaliyyəti dövründə olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyevin ölkəyə rəhbərliyi zamanı da ekologiya və ətraf mühitin mühafizəsi məsələsi ölkənin inkişaf strategiyasının tərkib hissəsidir. Bütün idarəetmənin ekologiyalaşdırılması təbiət-cəmiyyət münasibətlərində yeni fəlsəfi məzmun yaratmışdır.

2003-cü ildən etibarən Prezident İlham Əliyevin islahatların ikinci mərhələsinə başlaması idarəetmənin bütün sahələrində və eləcə də ekoloji islahatların müvəffəqiyyətlə həyata keçirilməsinə təsir göstərmişdir.

Müasir dövrdə dövlətimizin başçısının reallaşdırdığı geniş ekoloji siyasət mərhələsində yeni nəsil ekoloji təfəkkürə, ekoloji mədəniyyətə, ekoloji dilə və s. keyfiyyətlərə malik mütəxəssislər kimi fəaliyyət göstərməyə başlamışlar. Eyni zamanda əlverişli inteqrasiya şəraitində Ali Təhsil Sistemləri və AMEA-nın müvafiq institutları, xüsusilə təbiət və ekologiya ixtisasları ilə Yer elmləri arasında birgə kadr hazırlığı yaxşı nümunələr göstərmişdir. Xüsusilə Prezident İlham Əliyev tərəfindən Təhsil Nazirliyinin Azərbaycanın "Elm və Təhsil Nazirliyi" adlandırılması haqqında fərman verməsi (22 iyun 2022-ci il) bütün imkanlardan daha səmərəli istifadə ediləcəyinə şərait yaradacaqdır. Azərbaycanın elm və təhsil əlaqələrinin tarixinə dair nümunələr göstərir ki, verilmiş fərman dövrün tələblərinə uyğundur. Şübhə etmirik ki, yaradıcı mütəxəssislərimiz Azərbaycan dövlətçiliyinin idarə edilməsinin yeni modelinə uyğun olaraq ekoloji sahələrdə də yüksək nailiyyətlər qazanacaqlar.

***Şövqi GÖYÇAYLI,***
***professor***

# Azərbaycanın enerji ixracı imkanları artır

## Yeni İES-in istifadəyə verilməsindən sonra ildə 1 milyard kubmetrə yaxın mavi qaza qənaət ediləcək

**Azərbaycanın enerji sahəsində imkanları getdikcə güclənir. Elə bunun nəticəsidir ki, xüsusən Avropa ölkələri Azərbaycanı bu sahədə özlərinə etibarlı tərəfdaş görürlər. Eyni zamanda "yaşıl enerji" sahəsinə xüsusi diqqət ayıran dövlətimiz bu sahədə xarici investorlarla yeni sazişlər imzalayır.**





Digər layihələr kimi, Mingəçevirdə tikiləcək istilik-elektrik stansiyası da Azərbaycanın elektroenergetika sahəsində gücünü artıracaq. Beləliklə, enerji istehsalının artırılması istiqamətində davamlı işlər görən ölkəmiz regionda enerji ixrac edən əsas ölkə kimi mövqelərini daha da möhkəmləndirir.

### İldə 2 milyon ton karbon qazının atmosferə atılmasının qarşısı alınacaq

Milli Məclisin deputatı, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili qəzetimizə açıqlamasında qeyd edib ki, enerji müstəqilliyi milli təhlükəsizliyin mühüm tərkib hissəsidir. Deputat Ulu Öndər Heydər Əliyevin səyi və rəhbərliyi ilə Mingəçevirdə 1981-ci ildə istismara verilən "Azərbaycan" İstilik-Elektrik Stansiyasının o zaman və bu gün üçün də regionun ən böyük elektrik stansiyası olduğunu vurğulayıb. O qeyd edib ki, stansiya bu günə qədər ölkəmizin elektrik enerjisi təchizatında mühüm yerə və rola malikdir. Təsadüfi deyil ki, Vətən müharibəsi dövründə Ermənistanın hədəf aldığı əsas infrastruktur obyektlərimizdən biri də məhz bu stansiya idi.




Tahir Mirkişili bildirib ki, Mingəçevirdə güclü elektroenergetika infrastrukturu yaradılıb: "2018-ci ildə stansiyada baş verən qəzadan sonra Prezident İlham Əliyevin tapşırığı ilə orada əsaslı yenidənqurma işləri aparılıb. Ötən il ölkəmizdə istehsal olunan 29 milyard kVt/saat elektrik enerjisinin 93 faizi istilik-elektrik stansiyalarında istehsal edilib, 3 milyard kVt/saat enerji isə ixrac edilib".

Deputat bildirib ki, məhz "Heydər Əliyev İli"ndə Mingəçevirdə gücü 1280 meqavat olan yeni istilik-elektrik stansiyasının təməlinin qoyulması vaxtilə Ulu Öndər Heydər Əliyev tərəfindən başladılan elektrik enerjisi siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin göstəricisidir. Eyni zamanda bu stansiyada tətbiq olunacaq texnologiya az qaz həcmi ilə yüksək iş məhsuldarlığı əldə etməyə imkan yaradacaq. Müstəqillik dövrünün ən böyük elektrik stansiyası layihəsi olaraq yeni İES ildə 2 milyon ton karbon qazının atmosferə atılmasının qarşısını alacaq.

"İnvestisiya planına görə, bir neçə il ərzində yatırılan vəsaitin geri qayıtması layihənin kifayət qədər uğurlu olacağından xəbər verir. Son zamanlar ölkəmizin elektrik enerjisi ixracını artırması ilə bağlı həyata keçirilən layihələr Azərbaycanın bu sahədə gələcək perspektivlərə sürətlə hazırlaşmasından xəbər verir. Enerji ötürücü infrastruktura investisiyalar yatırılması, partnyor ölkələrin sayının durmadan çoxalması, Azərbaycanın praqmatik siyasətinə etibarın artması, dövlət başçısının geniş və uğurlu iqtisadi siyasəti ölkəmizə elektrik enerjisi istehsalı və ixracından böyük gəlirlər əldə etməyə imkan verəcək", - deyə T.Mirkişili qeyd edib.

### Azərbaycanın gücünü göstərən faktor

Milli Məclisin deputatı, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov qəzetimizə açıqlamasında deyib ki, 1280 meqavat gücündə yeni istilik-elektrik stansiyasının təməlqoyma mərasiminin keçirilməsi Azərbaycanın gücünü göstərən əsas faktorlardandır. Deputatın sözlərinə görə, ölkəmiz enerji sahəsində artıq kifayət qədər ciddi sərmayə qoyuluşu həyata keçirib. Bu da ondan xəbər verir ki, bütövlükdə bu istiqamətdə sərmayənin genişləndirilməsi həm də Azərbaycanda elektrik enerjisinin istehsalının artmasına və təminatının gücləndirilməsinə imkan verəcək.

Vüqar Bayramov qeyd edib ki, bu, Azərbaycanda həm enerji təminatı sisteminin daha da yaxşılaşdırılması, həm də bu sektorun inkişafı baxımından vacibdir: "Bu sərmayə, həm də yeni iş yerlərinin yaradılması anlamına gəlir. Digər tərəfdən, yeni İES-in istifadəyə verilməsi mavi qaza olan tələbatın azaldılması, qaza qənaət edilməsi baxımından da vacibdir. Layihə nəticədə təbii qaza xeyli qənaət edilməsinə imkan verəcək. Eyni zamanda bununla Azərbaycanın ixrac imkanları artacaq".

Yeni İES-in istifadəyə verilməsi ilə ölkəmizdə təxminən 1 milyard kubmetrə yaxın mavi qaza qənaət ediləcəyini vurğulayan deputat bildirib ki, Azərbaycanda illik istehlak 13 milyard kubmetrdir. Elektrik stansiyalarının sayının artması ilə mavi qaza olan tələbin azalması və qənaət həm də Azərbaycan üçün qaz ixracının imkanlarının genişləndirilməsi və ölkəyə daha çox valyutanın daxil olmasına gətirib çıxaracaq. Eyni zamanda ölkəmizin Avropanın enerji təhlükəsizliyinin formalaşmasındakı rolunun artmasına imkan yaradacaq. Ümumilikdə bu, Azərbaycanın geosiyasi mövqeyinin gücləndirilməsi, ixrac imkanlarının artması, Avropanın enerji təhlükəsizliyindəki rolu, həmçinin yeni iş yerlərinin açılması, daxildə elektrik təminatının gücləndirilməsi baxımından əhəmiyyətli layihə kimi qiymətləndirilir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azexport.az və Rəqəmsal Ticarət Qovşağı EU4Digitalın təşəbbüsü ilə keçirilən görüşdə iştirak ediblər

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin operatoru olduğu Azexport.az və Rəqəmsal Ticarət Qovşağının nümayəndələri EU4Digitalın təşəbbüsü və Şərq Tərəfdaşlığı ölkələrindən olan maraqlı tərəflərin iştirakı ilə keçirilən onlayn görüşdə iştirak ediblər.



Mərkəzdən AZƏRTAC-a bildirilib ki, E-Ticarət sahəsinin inkişafını sürətləndirmək məqsədilə keçirilən sessiya zamanı Avropa İttifaqında elektron ticarət sahəsində cari tendensiyalar və təcrübələrin nədən ibarət olduğu və Şərq Tərəfdaşlığı ölkələrinin iştirakının əhəmiyyəti haqqında məlumat verilib.

Eyni zamanda fəaliyyət zamanı hansı mərhələlərin əldə ediləcəyi və maraqlı tərəflərin fəaliyyətdə iştirakdan necə faydalana və ona töhfə verə biləcəyi müzakirə olunub.

# Gün gələcək Qərbi Azərbaycandan olan soydaşlarımız əzəli torpaqlarına qayıdacaqlar

## Biz geriyə dönəcəyik

Xalqımızın tarixi qələbəsi ilə başa çatmış Vətən müharibəsinin bizə öyrətdiyi dərslər çox oldu. Bu dərslərin ən mühümü haqq yolumuzda sona qədər irəliləmək, milli məqsədlərimizdən geri çəkilməmək, tarixi ədalətin öz yerini tutması üçün bundan sonra da ardıcıl olaraq çalışmağın zəruriliyidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqımızın Ümummilli Lideri Heydər Əliyevin milli dövlətçilik kursuna sadiqliklə apardığı məqsədyönlü siyasət bizi ən böyük hədəflərimizdən birinə yetirdi. Müzəffər Ali Baş Komandan İlham Əliyev 30 illik hərbi münaqişəni şanlı ordumuzun gücü ilə cəmi 44 günün içində həll etdi. BMT-nin illərdən bəri işğalçılar və onların havadarları tərəfindən məhəl qoyulmayan qətnamələrini Azərbaycan özü icra etdi. Torpaqlarımız yad əllərdən təmizləndi. Ermənilərin təxminən 30 il müddətində daşı-daş üstə qoymadıqları doğma yurdlarımızda ölkəmizin iqtisadi gücü ilə genişmiqyaslı quruculuq-bərpa işləri, bu yerlərə Böyük qayıdış başlandı. Beləliklə, xalqımız haqq savaşında böyük bir nəticəyə nail oldu. Azərbaycan təxminən iki əsrin problemini aradan qaldırdı. Zaman-zaman Azərbaycanın bağrından qoparılan torpaqların bir qismini geri almağı bacardı. Bütün bunların hamısı illər ərzində aparılmış hazırlıqların, ən müxtəlif sahələrdə düşmən üzərində əldə edilən üstünlüklərin, irəliyə doğru atılan məqsədyönlü addımların nəticəsidir.

İndi isə qələbənin verdiyi yüksək ruhla, qazandırdığı təcrübə ilə, zəfərimizin regionda yaratdığı fürsətlərlə yeni hədəflərimizə doğru irəliləmək zamanıdır və Azərbaycan dövləti də bunu edir. Yeni strateji dövrdə xalq olaraq ən mühüm hədəflərimizdən biri tarixin ayrı-ayrı dövrlərində Qərbi Azərbaycandakı tarixi torpaqlarımızdan qovulmuş, deportasiya edilmiş soydaşlarımızın doğma yurdlara qayıdışını təmin etməkdən ibarətdir.

### Gün gələcək…

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2022-ci ilin 24 dekabrında Qərbi Azərbaycan İcmasının təmsilçiləri ilə icmanın yeni binasında görüşü zamanı dedi: "Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar".

Dövlət rəhbərimiz vurğuladı ki, biz haqlı olaraq bununla bağlı öz hüququmuzu tələb etməliyik. Çünki vaxtilə Qərbi Azərbaycandakı tarixi torpaqlarımızdan ermənilər tərəfindən didərgin salınmış soydaşlarımızın öz yurdlarına qayıdışı bütün beynəlxalq konvensiyalarda təsbit edilmiş hüquqdur. "Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalmış toplumdur. Onların hüquqları bərpa edilməlidir və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar", - dedi Azərbaycan Prezidenti, - "Mən bunu deyəndə təxmin edirəm, yenə də Ermənistanda növbəti dəfə isterika başlayacaq ki, Azərbaycan gəldi bizi işğal etdi və sair. Yox. Biz bunu sülh yolu ilə etmək istəyirik. Biz hüquqlarımızı sülh yolu ilə təmin etmək istəyirik və yenə də deyirəm, bütün konvensiyalar bu hüququ tanıyır".

### Tariximizin ağrılı səhifələri

Soydaşlarımızın ermənilər və onların havadarları tərəfindən Qərbi Azərbaycandakı əzəli-əbədi yurdlarımızdan didərgin salınması, min bir məşəqqətə məruz qalması tariximizin ən ağrılı səhifələrindəndir. Azərbaycan xalqına qarşı bu tarixi cinayətin əsasları hələ 1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri ilə formalaşdırılmışdır. Həmin müqavilələr Azərbaycan xalqını ikiyə parçaladı, bizi Güney Azərbaycanındakı soydaşlarımızdan ayrı saldığı kimi, tarixi torpaqlarımızın da bölünməsinə zəmin yaratdı. Yadellilər bu müqavilələrin verdiyi imkanları fürsət bilərək ərazilərimizi zəbt etməyə başladılar. Bu torpaqlara kütləvi şəkildə ermənilər köçürüldü, onlar əsasən qədim mədəniyyət mərkəzlərimizdən olan İrəvan, Naxçıvan, Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırıldılar. Azərbaycan torpaqlarına yeni köçürülən ermənilər bu torpaqların əbədi sakinləri - azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə rəğmən havadarlarının dəstəyi ilə "erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Beləliklə, bu süni ərazi bölgüsünün müəyyən edilməsi ilə azərbaycanlıların öz torpaqlarından qovulması və məhvi siyasətinin bünövrəsi qoyuldu. Azğın ermənilər əldə etdikləri ilk nəticələrdən qol-qanad açaraq "Dənizdən-dənizə böyük Ermənistan" ideyalarını daha fəal şəkildə gündəmə gətirməyə başladılar. Xəstə beyinlərinə yeritdikləri bu uydurma dövləti Azərbaycan torpaqlarında yaratmağın niyyətinə düşdülər və bir tərəfdən saxta tarix miflərini, başqa tərəfdən də azərbaycanlılara qarşı soyqırımı siyasətini işə saldılar.

1905-1906-cı illərdə erməni cəlladları tərəfindən azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qətliamlar həyata keçirildi. Onların Bakıda başladıqları soyqırımı prosesi tezliklə bütün Azərbaycanı bürüdü. Şəhərlərimizdə, kəndlərimizdə minlərlə dinc azərbaycanlı öldürüldü. Yaşayış məntəqələrimiz yerləyeksan edildi. Ermənilər azərbaycanlılara qarşı ağlasığmaz vəhşiliklər törətdilər. Qərbi Azərbaycandakı tarixi torpaqlarımızdan azərbaycanlıların məhz milli mənsubiyyətlərinə görə kütləvi şəkildə deportasiyasının ilk mərhələsi də məhz 1905-1906-cı illərdə başlandı və sonrakı dövrdə də mərhələlərlə davam etdi.

### Üçmərhələli deportasiya

Ümumilikdə tarixə nəzər salsaq, Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın deportasiya prosesinin üç böyük mərhələni əhatə etdiyini və hər mərhələnin də on minlərlə insanın həyatında, taleyində, ümumilikdə xalqımızın milli yaddaşında sağalmaz yaralar açdığını görərik. Bu mərhələlərdən birincisi 1905-ci ildə ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri qətliamların ilk günlərindən başlayaraq 1920-ci ilə qədər davam etməsi oldu.

Əsrlər boyu bütün dünyada sərgərdan dolaşaraq öz monoetnik dövlətlərini yaratmağa çalışan və Qafqazda buna fürsət görən ermənilər Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə faydalandılar. Bu dəfə öz mənfur əməllərini bolşevik bayrağı altında, özləri kimi daha bir cinayətkar zümrə ilə birləşərək davam etdirdilər.

1918-ci ilin martından etibarən guya əks-inqilabçılarla mübarizə şüarı altında Bakı Kommunasının təşkilatçılığı, erməni daşnaklarının icraçılığı ilə Bakıda, Şamaxıda, Qubada, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda azərbaycanlılara qarşı dəhşətli qətliamlar törədildi. On minlərlə azərbaycanlı milli mənsubiyyətinə görə insanlığa sığışmayan işgəncələrlə öldürüldü, evləri yandırıldı, var-dövlətləri talan edildi. Ermənilər azərbaycanlıların izini tarixin yaddaşından da silmək üçün milli memarlıq incilərimizi, o vaxt yeni-yeni yaradılan və xalq arasında təhsil nurunu yayan məktəblərimizi, insanlara səhiyyə xidmətlərini əlçatan edən xəstəxanalarımızı, məscidlərimizi, dini ziyarətgahlarımızı, tarixi abidələrimizi tar-mar etdilər. Bütöv kəndlər yandırılaraq xarabazara çevrildi, azərbaycanlılar əsrlərlə yaşadıqları doğma məskənlərindən qovularaq çıxarıldılar.




### Tarixi yanlışlıq

Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasından sonra Qafqazda xalqlar arasında sülhə nail olmaqdan, birgə inkişaf mühitini təmin etməkdən ötrü ermənilərə müəyyən güzəştlər edilsə də, bu addımlar öz məqsədinə çatmadı. Əksinə, bütün bunlar ermənilərə xalqımıza qarşı iyrənc, mənfur hərəkətlərini daha geniş planda davam etdirməkdən ötrü yeni fürsətlər verdi. Tarix sübut etdi ki, Azərbaycan Xalq Cümhuriyyəti qurucularının o dövrdə qədim şəhərimiz olan İrəvanı ermənilərə güzəştə getmələri yanlış addım imiş. Qərbi Azərbaycan İcmasının təmsilçiləri ilə görüşü zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin qərarla bağlı da fikirlərini bölüşdü: "O vaxt bu qərarı müxtəlif səbəblərlə izah etməyə çalışanlar da olub, bu gün də var. Ancaq hesab edirəm ki, heç bir izahat qəbul edilən deyil, çünki ermənilər bu addımla kifayətlənməmişlər", - deyən Azərbaycan Prezidenti qeyd etdi: "Əgər kimsə hesab edirdi ki, İrəvanı orada yaşayan insanlardan xəbərsiz öz doğma diyarından məhrum etməklə Ermənistan və ermənilər kifayətlənəcək, böyük səhv edirdi və sonrakı tarix bunu bir daha göstərdi".

Azərbaycan Milli Şurasının İrəvan şəhərinin paytaxt kimi Ermənistana güzəşt edilməsi barədə 29 may 1918-ci il tarixli qərarı həmin dövrdə bu qədim şəhərimizdə yaşayan 13 minə yaxın azərbaycanlının həyatına yeni faciələr gətirdi. Şahid xatirələrinə əsasən, həmin dövrdə İrəvanın azərbaycanlı sakinləri o qədər müdafiəsiz vəziyyətdə qalmışdılar ki, günün günorta vaxtı ermənilər küçədəcə onların pullarını, qiymətli əşyalarını, hətta əyinlərinin paltarını belə qarət edirdilər. Azərbaycanlıların evləri talan olunurdu. Erməni daşnaklarının Azərbaycan kəndlərinə hücumları da ara vermirdi. Mənbələrə görə, təkcə 17-31 avqust 1919-cu il tarixlərdə Qərbi Azərbaycandakı Eçmiədzin, Sürməli, İrəvan və Novo-Bəyazid qəzalarında 50-yə qədər Azərbaycan kəndi dağıdılmışdı. 1919-cu ilin son iki ayında isə Eçmiədzin qəzasının 62 kəndi, Sürməli qəzasının 34 kəndi və Zəngibasar istisna olmaqla, İrəvan qəzasının azərbaycanlı kəndlərinin hamısı erməni silahlı dəstələri tərəfindən bir daha dağıdılmışdı (Nazim Mustafa "1918-1920-ci illərdə İrəvan quberniyasında azərbaycanlıların soyqırımı" məqaləsi). Nəticədə 1919-cu ilin sonuna qədər Novo-Bəyazid, İrəvan və Eçmiədzin qəzalarının dağıdılmış kəndlərindən 200 mindən çox azərbaycanlı didərgin düşmüşdü. Onlar əsasən Naxçıvan, Şərur, Qazax, Gəncə və Şamaxıda məskunlaşmışdılar. İrəvan quberniyasının azərbaycanlı əhalisinə qarşı kütləvi zorakılıq faktları hətta erməni tarixçilərinin əsərlərində də öz əksini tapmışdır. Erməni tarixçisi A.Lalayan etiraf edirdi ki, "Daşnaksütyun" partiyasının hakimiyyətdə olduğu 30 aylıq dövrdə Ermənistanın azərbaycanlı əhalisinin sayı xeyli azalmışdı.

### Azərbaycanlılara qarşı ədalətsiz qərar

Zaqafqaziyanın sovetləşməsi azğın qonşularımıza öz çirkin məqsədlərinə çatmaq üçün daha bir fürsət verdi. Bundan istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Beləliklə, erməni millətçilərinin təkidi və sovet hökumətinin qərarı ilə Zəngəzur da Azərbaycandan qoparılıb Ermənistana birləşdirildi. Xalqımıza qarşı növbəti cinayət işləndi. Bu, Azərbaycanı Naxçıvandan və Türkiyədən coğrafi nöqteyi-nəzərdən ayırmaq üçün atılmış addım idi.

Müəyyən dövrdən sonra isə Ermənistandakı azərbaycanlıların deportasiyasının növbəti mərhələsi başlandı. Bu prosesə azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi barədə SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il tarixli qərarı ilə start verildi. Stalinin imzaladığı bu sənədlə 1948-1953-cü illərdə Ermənistandan 100 min nəfərlik azərbaycanlı əhalinin köçürülməsi nəzərdə tutulmuşdur. Statistik məlumatlara görə, 1948-ci ildə Ermənistanda 25 min azərbaycanlı ailəsi, yaxud 140 mindən artıq azərbaycanlı yaşayırdı. Doğma torpaqlarından didərgin salınan azərbaycanlıların evləri xarici ölkələrdən gəlmiş ermənilərə verildi. Azərbaycanın aran rayonlarına köçürülmüş soydaşlarımız isə isti iqlimi onlar üçün o qədər də uyğun gəlməyən, hər hansı infrastruktur təminatının mövcud olmadığı bölgələrdə min bir əziyyət çəkir, üstəlik min illik tariximizdən, mədəni irsimizdən, ata və babalardan miras qalmış ev-ocaqdan məhrum edilməyin əzabını yaşayırdılar.

Bu azmış kimi, 1950-ci il sentyabrın 6-da SSRİ Nazirlər Soveti "1951-1955-ci illərdə Azərbaycan SSR-in Kür-Araz ovalığının kolxozlarına köçürülmə haqqında" yeni qərar qəbul etdi. Həmin qərara əsasən, müəyyən edilmiş müddət ərzində Ermənistan SSR-dən 15 min kolxozçu və digər azərbaycanlı əhalinin köçürülməsi nəzərdə tutulurdu.

Dövr elə bir dövr idi ki, faşizmə qarşı müharibə yenicə başa çatmışdı. Azərbaycan xalqı bu müharibədə yüz minlərlə qurbanlar vermişdi. Faşizm üzərində qələbə üçün soydaşlarımız arxa cəbhələrdə də böyük fədakarlığa qatlaşmış, o cümlədən Bakı nefti faşizm üzərində qələbənin əldə olunmasında həlledici rol oynamışdı. Azərbaycan Prezidenti ötən əsrin 40-cı illərinin sonlarından həyata keçirilən deportasiya prosesini sovet hökumətinin qərbi azərbaycanlılara və bütövlükdə Azərbaycan xalqına qarşı törədilmiş növbəti cinayəti, eyni zamanda böyük ədalətsizlik və vicdansızlıq kimi qiymətləndirirdi: "Çünki İkinci Dünya müharibəsi cəmi 3 il idi ki, başa çatmışdır. Azərbaycan xalqı böyük fədakarlıq göstərmişdir. Təkcə sovet Azərbaycanından olan insanların 300 mini həlak olmuşdur. O vaxt sovet Ermənistanında yaşamış on minlərlə azərbaycanlı da həlak olmuşdur. Azərbaycan İkinci Dünya müharibəsində faşizm üzərində əldə edilmiş qələbədə müstəsna rol oynamışdır. Azərbaycan nefti olmasaydı, sovet dövləti heç vaxt qələbə qazana bilməzdi. Bunu hər kəs bilir. Bu rəqəmlər dəfələrlə səsləndirilib. Benzinin, sürtkü yağlarının və neftin təqribən 70, 80, 90 faizi Azərbaycandan təchiz edilirdi. Bütün bunlara baxmayaraq, xalqımıza qarşı növbəti cinayətin törədilməsi, yenə də deyirəm, böyük vicdansızlıqdır və saxta bəhanə adı altında xalqımız növbəti deportasiyaya məruz qalmışdır".

Bu ədalətsiz və vicdansız addımlar on minlərlə soydaşımızın həyat tərzini pozdu, onları yeni şəraitə, məşğuliyyətlərə uyğunlaşmaq məcburiyyətində qoydu və minlərlə insan belə yaşayışa uyğunlaşa bilməyərək tələf oldu.

### Güclü lider amili

Ulu Öndər Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə azərbaycanlılara qarşı yeni deportasiya tədbirlərinə nail ola bilməyən, bununla bağlı hər mənfur addımları əngəllənən ermənilərin məqsədlərinə çata bilməməsi göstərdi ki, əslində, bu məsələlərdə güclü lider amili çox mühüm şərtdi. Tam əminliklə deyə bilərik ki, əgər əvvəlki onilliklərdə də Azərbaycana Heydər Əliyev kimi güclü şəxsiyyət rəhbərlik etsəydi, qərbi azərbaycanlıların deportasiyasına heç bir halda imkan verməyəcək, mərkəzi ermənilərin cidd-cəhdlərinin əsassızlığına inandırmağı bacaracaq, onların əsl niyyətinin etnik təmizləmə olduğunu göstərəcəkdi.

Təsadüfi deyil ki, qərbi azərbaycanlıların deportasiyasının üçüncü, sonuncu mərhələsi də məhz Heydər Əliyevin SSRİ rəhbərliyindəki yüksək vəzifələrindən istefaya məcbur edilməsindən sonra başlandı. Bunu məqam bilən ermənilər Heydər Əliyevin istefasından cəmi bir neçə gün sonra Azərbaycana qarşı ərazi iddiaları ilə hərəkətə keçdilər. 1988-1992-ci illərdə 220 mindən çox azərbaycanlı Qərbi Azərbaycandakı doğma yurdlarımızdan qovuldu. Ermənilər bu dəfə də tarixi-mədəni abidələrimizi, dini ziyarətgahlarımızı dağıdıb yandırdılar. Azərbaycanlılara qarşı soyqırımı, deportasiya siyasəti hətta yer-yurd adlarımızdan da yan keçmədi. Qərbi Azərbaycandakı minlərlə Azərbaycan toponimi dəyişdirilərək erməniləşdirildi.

"Haqq nazilər, üzülməz" demiş ulularımız. İndi Qərbi Azərbaycan torpaqlarında da ermənilərin əlimizdən aldığı milli haqlarımızı geri almaq, tarixən bizim olanları geri qaytarmaq vaxtıdır. Bu haqq savaşında da zəfər bizimlə olacaq.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

## Son 100 ildə Ermənistandan 2,5 milyon azərbaycanlı qovulub

*"Ermənilərin Göyçəyə ilk gəlişi 1831-ci ildən başlayıb. Onlar əvvəlcə Kəvərdə, Basarkeçərdə və Hərədüzdə məşkunlaşaraq pinəçi, dülgər, bənna, dərzi kimi fəaliyyətə başlayıblar. Sonra getdikcə ətraflarını möhkəmləndiriblər. 1918-ci ilin mayında daşnaklar hakimiyyətə gələn zaman Ermənistan (İrəvan quberniyası) 15-dən çox böyük mahaldan ibarət olub. Onlar Ermənistan dövləti yaratmaq üçün dəridən-qabıqdan çıxırdılar. Türkmənçay müqaviləsindən sonra ermənilər böyük dövlətlərə arxalanaraq Göyçəyə 17-18 dəfə hücum edib dinc əhalini kütləvi surətdə, vəhşicəsinə qətlə yetirmişdilər. Bu qırğınlardan biri də 1918-1919-cu illər fəlakətidir. O zaman Gərnibasar, Dərəçiçək, Pəmbək, Dağ Borçalı, Ağbaba ətrafında qanlı döyüşlər gedib və günahsız azərbaycanlılar öldürülüb. 1918-1919-cu illərdə Gümrü ətrafında 10 min azərbaycanlı qətlə yetirilib. Andranik Uzunyanın, Dronun, Njdenin qanlı fəaliyyəti bütün mahalları da əhatə edib".*

*Bu sözləri AZƏRTAC-a açıqlamasında Qərbi Azərbaycanın Göyçə mahalından olan Əmiraslan Cəfərov deyib.*

Əmiraslan Cəfərov qeyd edib ki, o vaxtlar Göyçədə bir erməni generalı - Selikov (Sulikov) peyda olub. Selikov 1905-ci il erməni-müsəlman davasında Azərbaycanın Şəki qəzasının Qayabaşı kəndindən Gəncəyə, sonra da Göyçənin Qaranlıq (indiki Martuni) rayonuna - Basarkeçərə yaxın yerə gəlib çıxıb. Selikov Nikolayın sağ əli olub. O, Göyçə mahalındakı bütün erməni qoşunlarına sərkərdəlik edib, oradakı müsəlmanlara qan uddurub. Ermənilər ingilislərdən toplar alıb gətirib və Nikolayın fitvası, Selikovun göstərişi ilə müsəlman kəndlərini talayıb, evləri dağıdıb, mal-qaranı, ərzağı qoşunun atları üçün aparıblar. Daşnak sərkərdə Selikovun qoşunu Göyçənin böyük kəndlərindən olan Şişqayanı alova qərq etmişdi. O vaxt iclas keçirmək adı altında kənd əhalisi bir neçə böyük evə doldurularaq onlara od vurulmuş, nəticədə 700-ə yaxın sakin yanıb kül olmuşdu.

Aşıq Nəcəf iki oğlu ilə birgə 1918-1919-cu illərdə daşnaklara qarşı vuruşub. O, həmçinin telli sazı ilə haqqı xalqına çatdırıb. Aşıq Nəcəfin Şəmistan və Şəmiddindən başqa, Mikayıl, Astan və İsmayıl adlarında oğulları da olub. 1919-cu ildə ermənilərin Göyçə mahalına silahlı hücumu zamanı Nəcəf əsir düşüb, Basarkeçərdə, "Küllü təpə" deyilən ərazidə belinə odlu samovar bağlanaraq beş oğlu ilə birlikdə vəhşicəsinə öldürülüb.

Hacı Rəhim ermənilərə, həmçinin Sulikova qan uddurub. Sulikov və Andranik Hacı Rəhimdən çox qorxublar. Göyçədə Zodlu Səməd ağanın gördüyü tədbirlər nəticəsində Göyçə mahalı üzrə sərkərdə, Şişqayalı Kor Tanrıverdi, dövlət nümayəndəsi Qaraimanlı Məşədi İsa, Daşkənddə Qocaman oğlu Mədət, Göyçənin igid, qəhrəman oğlu, koroğlusu Hacı Rəhim, Aşıq Nəcəf, Zodlu Məcid və Göyçənin ağsaqqalları Sulikovun Zodda öldürülməsi planını hazırlamışdılar.

Əmiraslan Cəfərov bildirib ki, Səməd ağanın və Məşədi İsanın başçılığı ilə Sulikov Zodda öldürülüb. Ondan sonra Kor Tanrıverdi və Səməd ağa Basarkeçər qalasında həbsə salınıb. Səməd ağanın hirsindən ürəyi partlayıb, Kor Tanrıverdi isə öldürülüb. Kor Tanrıverdinin həyat yoldaşı Kəsəmənli Məleykə xanım çox cəsur, igid bir qadın olub. O, ermənilərlə vuruşub. O dövrdə onun silahı təndirin üstündəki xəçirgət (dəmir əşya) olub. O, qılınc kimi iti xəçirgətlə 17 ermənini qanına qəltan edib, özü də qəhrəmancasına həlak olub. Lakin ermənilər onun iki əkiz oğlunu vəhşicəsinə öldürüblər.

Sulikovun ölümündən sonra ermənilər yasa batıblar, hətta sülh barışığı elan etmək istəyiblər. Lakin Andranikin fitvası Sulikovun ölümündən sonra ermənilər "Nikolay" hökumətinin köməyi ilə hər tərəfdən Göyçəyə qoşun yeridib, ingilislərdən gətirdikləri topları işə salıblar.

O vaxt hadisə iştirakçılarından olan Bahram yazır: "Mən Basarkeçərin tatar əhalisini heç nəyə məhəl qoymadan məhv etdim. Döyüşdən sonra yaralananların hamısını bir quyuya doldurub başlarına ağır daşlar tökdüm ki, onlar bir də yer üzündə görünməsinlər. Bütün qadınları, kişiləri, uşaqları bu üsulla öldürürdüm". (Revolyusyonnıy, Vostok № 2-3, 1936).

Daşnaklar hakimiyyətdə olduqları müddətdə (1918-ci ilin mayından 1920-ci ilin noyabrına qədər) 440-dan çox azərbaycanlı kəndini yandırıb məhv edib, 100 minlərlə azərbaycanlının qaçqına çevrilməsinə səbəb olublar. Z.Qorqodyan "Son 100 ildə" adlı əsərində yazıb: "Daşnakların təmizləmə siyasəti nəticəsində 1919-cu ildə hesabatdan uzaqlaşdırılmış (qovulmuş) türklər 20.000 nəfər, 1920-ci ildə isə 60.000 nəfər təşkil edir".

1905-1919-cu illər arasında baş verən erməni-azərbaycanlı müharibələri dövründə düşmənə qarşı döyüşən dəstələr böyük qəhrəmanlıqlar göstərib. Həmin dəstələrə başçılıq edən cəsur xalq oğullarının şücaəti və adı həmişəlik xalqımızın mübarizə tarixinə yazılıb. Onlardan Məşədi İsa, Qayabaşılı İsgəndər (Ac Aslan), Ələsgəroğlu Bəşir, Məşədi Qəmbər, Qaçaq Rəhim, Kor Hümbət, Kor Tanrıverdi, Məşədi Qasım, Qlava Balı, Məşədi Mehdi, Cığal Həsən, Topal Oruc, Məşədi Hümbət, Kalvayı Abbasəli, Dəli İsmayıl, Şeşə Ələkbər, Yekə İbrahim, Qaçaq Pirverdi və Kəsəmənli Qaçaq Kərəm, İsrafil ağa, Dərəçiçəkli Qaçaq Rüstəm və başqaları Göyçə dağlarında at oynadıb, igidlik göstəriblər.

"Ən dəhşətli repressiyalardan biri 1948-1952-ci illərdə həyata keçirilən mənfur "Köçürülmə" siyasəti idi. İ.V.Stalini ələ alan A.Mikoyan, eləcə də erməni diasporu azərbaycanlıları Ermənistandan sürgün etmək kimi mənfur bir əməliyyatı həyata keçirməyə müvəffəq oldular. 150 mindən çox adam öz dədə-baba yurdundan məcburi surətdə çıxarılaraq vaqonlara dolduruldu və naməlum istiqamətlərə göndərildi. Onlar Azərbaycanın Kür-Araz ovlağında yerləşdirildilər. O dövrdə Göyçə mahalının Kərkibaş kəndindən bizim Hacı Hasan tayfamız Ucarın Qazyan kəndinə köçürüldü. Atam Zeynalabdin Qazyan kəndinin 2 saylı orta məktəbində direktor işləyirdi. Atamın Cabbar əmisi və bir çox digər şəxslər istiyə dözməyərək həlak oldular.

1980-ci illərdə, xüsusilə M.Qorbaçovun rəhbərliyi dövründə ermənilər "Türksüz Ermənistan" ideyasını həyata keçiriblər. 1988-ci ildə 211 min azərbaycanlı Ermənistandan çıxarıldı. Onlardan 40 mindən çoxu Basarkeçər rayonunun sakini idi. Beləliklə, son 100 ildə Ermənistan ərazisindən 2,5 milyon azərbaycanlı qəddarlıqla qovulub çıxarılıb", - deyə Ə.Cəfərov vurğulayıb.

# Bìr yumruq, bìr ürək, bìr can



# Dünya daha da güclənmiş Türkiyə görəcək

**Əsrin fəlakəti... Bu iki kəlmənin özündə ağır mənəvi yük, bitib-tükənməz ağrılar, sonsuz həyəcan var. Ona görə ki, tarix heç bir əsrdə düz, hamar, rahat yolla keçib getməyib. Təbii fəlakətlər də, münaqişələr də, müharibələr də çox olub. Yüz il boyunca çox faciəli hadisələrə şahidlik edir zaman.**





Əsrin fəlakəti deyəndə isə faciənin böyüklüyünü dərk etmək mümkündür. Ancaq söz nə qədər güclü, qüdrətli olsa da, bəzən olanları ifadə etməkdə aciz qalır, gücsüz görünür. Fevralın 6-da qardaş ölkə Türkiyədə zəlzələlərin gətirdiyi faciələri də olduğu kimi təsvir etməkdə sözlər, kəlmələr acizdir...

Fevralın 6-da Türkiyənin Hatay, Qaziantep, Kilis, Osmaniye, Malatya, Adıyaman, Şanlıurfa, Diyarbəkir, Adana və Kahramanmaraş əyalətlərində yaşayanlar da sabaha ümidli idilər. Çoxları doğma evində, isti ocağında ailə üzvləri, yaxın qohumları, ya da otaq yoldaşları ilə başlarına gələcək fəlakətlərdən xəbərsiz qarşılamışdılar həmin gecəni... Bəlkə də bir-birilərinə gələcəklə bağlı arzularından, planlarından danışmışdılar. Ya da gələcək deyib heç çox da uzağa getməmişdilər. Elə gəlmiş o gecənin açılacaq sabahında görməli olduqları işlərini söyləmişdilər bir-birilərinə. O vilayətlərdə - şəhərlərdə, rayonlarda neçə-neçə ata-ana körpəsini şirin dillə dindirib gülmüşdü, neçə-neçə məktəbli müəllimlərinin verdikləri ev tapşırıqlarını yerinə yetirib kitab-dəftərlərini çantalarına yığıb sabah çiyinlərinə aşırıb məktəbə getmək fikri ilə yataqlarına girmişdi. Hələ toylarının səsləri qulaqlardan getməmiş gənc ailələr, qocalıqlarını doğmalarının əhatəsində rahat keçirmək, övladlarına baxıb fərəhlənmək, nəvələri ilə oynamaq istəyən ahıllar vardı. Amma sən saydığını say... Səhərəyaxın yer yerindən oynadı, baş verən təbii fəlakət onların hamısının həyatını alt-üst etdi.

Fevralın 6-da yerli vaxtla saat 04:17-də Türkiyənin cənub-şərqində 7.7 bal gücündə zəlzələ baş verdi. Zəlzələnin ocağı Kahramanmaraş şəhərinin Pazarcık rayonu ərazisində 7 km dərinlikdə idi. Daha sonra saat 13:24-də Elbistan rayonunda 7,6 bal gücündə iki zəlzələ, fevralın 7-də Adıyaman şəhərinin Gölbaşı rayonunda 5,3 bal gücündə daha bir zəlzələ oldu. Episentri Kahramanmaraş şəhərində yerləşən zəlzələ isə 7.4 bal gücündə idi. Türkiyənin on vilayətində dağıntılar yaradan təbii fəlakət nəticəsində 35 mindən çox insan həlak oldu, minlərlə adam xəsarət aldı.

Zəlzələ nəticəsində Hatay, Qaziantep, Kilis, Osmaniye, Malatya, Adıyaman, Şanlıurfa, Diyarbəkir, Adana və Kahramanmaraş əyalətlərində dəhşətli dağıntılar baş verdi, binalar yerləyeksan oldu. Evlər dağıldı, ocaqlar söndü. Elə ailələr oldu ki, bir üzvü də həyatda qalmadı. Özü sağ çıxanlar oldu ki, doğması dağıntılar altında gözlərinin qabağında can verdi. Hələ də uçqunlar arasında əzizlərini haraylayanlar var. Yalnız insanlar qalmadı o uçan evlərin altında, həm də neçə-neçə arzular, xəyallar, xatirələr qaldı... Unudulmayacaq ağrılardır, yaddan çıxmayacaq dərdlərdir...

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Əsrin fəlakəti" adlandırılan zəlzələlərin gündəliyi ilə bağlı keçirilən Nazirlər Kabinetinin iclasından sonra verdiyi açıqlamalarda diqqətə çatdırdı: "Dünyadakı bütün mütəxəssislərin yekdil rəyi ilə zəlzələlərin böyüklüyü və dağıdıcılığı müstəsna təbii hadisə kimi qəbul edilir".

"Əsrin fəlakəti" olaraq xarakterizə edilən zəlzələlərin Kahramanmaraşda son əsrdə baş verən ən dəhşətli hadisə olduğunu Birləşmiş Millətlər Təşkilatı (BMT) Baş katibinin humanitar məsələlər və fövqəladə yardım üzrə koordinatoru Martin Qriffits də vurğuladı.

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu və Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla birlikdə Kahramanmaraşda keçirilən Fəlakət Koordinasiya Toplantısından sonra açıqlama verən M.Qriffits bildirdi: "Zəlzələnin episentri olan bu yerdə baş verən ardıcıl zəlzələlər son əsrdə regionda baş verən ən dəhşətli hadisədir".

Həm Türkiyənin, həm də zəlzələdən zərərçəkmiş bölgələrdə kömək üçün bölgəyə gələn beynəlxalq axtarış-xilasetmə qruplarının işlərinə diqqət çəkən BMT Baş katibinin humanitar məsələlər və fövqəladə yardım üzrə koordinatoru bildirdi: "Bu ağır günlərdə burada gördüyünüz axtarış və xilasetmə işləri, yardım fəaliyyətləri - bu fəlakətə Türkiyə və beynəlxalq arenadan gələn yardım reaksiyası bənzərsizdir. Dünyanın 100-dən çox ölkəsi zəlzələ səbəbilə Türkiyəyə yardım göndərdi, dağıntılar altında qalanları xilas etmək üçün bir çox ölkə axtarış-xilasetmə işlərinə qatıldı. Təbii ki, bundan daha çoxuna ehtiyac var. Fəlakət bölgələrinə daha çox beynəlxalq yardımın çatdırılması üçün lazımi səyləri davam etdiririk".

Qeyd edək ki, böyük fəlakətlər dövlətlər üçün həm də böyük sınaqdır, imtahandır. Həm də yalnız həmin fəlakətlərin, faciələrin baş verdiyi ölkə üçün yox, dünyanın, insanlığın imtahanıdır. Fevralın 6-sı günü Türkiyəni sarsıdan zəlzələlərdən sonra bir sıra ölkələr yalnız başsağlığı vermədilər, eyni zamanda öz yardımlarını təklif etdilər. Qardaş ölkəyə ilk uzanan əl isə, təbii ki, Azərbaycanın oldu. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, fevralın 6-da baş verən təbii fəlakətin nəticələrinin aradan qaldırılması məqsədilə qardaş Türkiyənin zəlzələ bölgəsinə dərhal yardım göstərilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər həyata keçirildi. Humanitar yardım dolu təyyarələr, yük avtomobilləri qardaş ölkəyə yola salındı. Fövqəladə Hallar Nazirliyinin xüsusi riskli xilasetmə qrupu ilk günlərdən zəlzələ nəticəsində dağıntılar altında qalmış insanların haraylarına yetmək üçün getdi.

Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq, Bakı və digər şəhərlərdə, eləcə də Naxçıvan Muxtar Respublikasında yerləşən tibb müəssisələri Türkiyədə baş vermiş zəlzələdə zərərçəkmiş şəxslərin müalicəsi üçün hazır vəziyyətə gətirildi.

Azərbaycandan Türkiyəyə humanitar yardım təyyarəsi fevralın 20-dək hər gün göndərilməkdə davam edəcək.

Məsafələr uzaq olsa da, hər bir azərbaycanlı türkiyəli bacı-qardaşlarının yaşadıqları fəlakətin, üzləşdikləri faciələrin ağrılarını, problemlərini yaxından hiss edirlər. Hər kəs əlindən gəldiyi, imkanı yetdiyi qədər yardım edir.

Fəlakət böyük olanda yalnız gətirdiyi bəlalar böyük olmur. Elə sınaqları da böyük olur. Bu gün qardaş ölkə Türkiyə də əsrin fəlakətinə sinə gərir. Bir gözündə qüssə, kədər, gözyaşları, birində isə qətiyyət, inam, ümid var. Çünki böyük dövlətin hər zaman, lap elə ən ağır dəqiqələrində də əzmi, qətiyyəti, inamı və ümidi olmalıdır. Olmasaydı, bu qədər böyük, güclü olmazdı Türkiyə. Türkiyə, şübhəsiz ki, bu fəlakətdən də çıxacaq. Dünya daha da güclənmiş Türkiyə görəcək.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

# "Türkiyənin dərdi dərdimizdir"

Xalqımızın adətidir, heç vaxt dərdi olandan "gəlim kömək edim" soruşmaz, gömək etməyə tələsər. Qardaş Türkiyədə zəlzələ xəbərini alan kimi dərhal Azərbaycan Respublikasının Prezidenti can qardaşlarımıza yardıma getmək barədə göstəriş verdi. Vaxt itirmədən Fövqəladə Hallar Nazirliyinin xüsusi xilasetmə qrupunun əməkdaşları qardaş ölkəyə yola düşdülər.

Fəlakət zonasına ilk olaraq azərbaycanlı xilaskarlar yetişdi. Dövlətimizin başçısı zəlzələ bölgəsində çalışan texnikanın enerji təminatı xərclərini Azərbaycanın ödəyəcəyini bildirdi. Fəlakət bölgəsində ehtiyac duyulan ən zəruri mallardan ibarət yardımı da ilk olaraq Azərbaycan etdi. Səyyar səhra xəstəxanaları, hərbi və mülki həkimlər, könüllü xilasedici gənclər qardaş ölkəyə tələsdilər. Bir sözlə, xalq bir yumruq, bir can olaraq "Türkiyəm, dərdin dərdimdir", - dedi.

Dərdə təslim olanda dərd insanı yenər. İnsanlarımız dərdin üstə yeridilər. "Birliyimizlə bu bəlanı da aşacağıq", - dedilər. Nənələr "yükdən" yorğan-döşəklərini, analar qızlarına aldıqları cehizliklərini, atalar evdə "dar günü üçün" saxladıqları son manatlarını götürüb yardım məntəqələrinə tələsdilər. Körpələrimiz oyuncaqlarını türk qardaşlarından əsirgəmədilər, gənclərimiz aldıqları təzə paltarlarını fəlakətdən zərərçəkənlərə göndərdilər. Məscidlərdə ehsanlar verilib, dualar oxundu. Kilsələrdə, sinaqoqlarda "zənglər" çalındı. Toy, nişan edəcək gənclərimiz xeyir işlərini təxirə saldılar. "Qardaşımın evində yas var ikən toy edə bilmərəm", - dedi gənclərimiz. Xalqımız "el bir, dil bir" oldu. Azərbaycanın bütün rayonlarında xalq heç kimsədən tapşırıq almadan, təşəbbüs gözləmədən hərəkətə keçdi. Yardım kampaniyasına qoşulanların içərisində 87 yaşlı qoca da var idi, 5 yaşlı körpə də. Hər yanda yardım məntəqəsi yaradılmışdı. Dövlətimiz edilən



yardımın daha tez yetişməsi üçün hava nəqliyyatından istifadə etdi. İnsanlar öz sevgilərini göndərirdilər. Görk üçün, göstərmək üçün etmirdilər, mənəvi rahatlıq üçün edirdilər.

Ötən əsrin əvvəllərində də belə olmuşdur. Azərbaycanlı igidlər Çanaqqala savaşı zamanı heç bir təklif gözləmədən döyüşə qatılıb Türkiyənin bütövlüyü, şərəfi uğrunda canlarını fəda edərək qəhrəmanlıq tariximizə öz adlarını qanları ilə yazmışdılar. 1918-ci ildə ermənilər Bakıda, Qubada, Şamaxıda, Zəngəzurda azərbaycanlılara qarşı soyqırımı törədəndə Nuru Paşanın komandanlığı altında "Qafqaz İslam Ordusu" Bakını düşməndən azad etmişdir. 1920-ci illərdə Mustafa Kamal Paşanın "borc istəməsinə rəğmən Nəriman Nərimanov "Paşam, bizdə qardaşa borc vermirlər, qardaşın əlindən tuturlar" cavabını verərək qardaş ölkəyə yardım əlini uzatmışdır. Erməni-daşnak, rus-bolşevik ordusu ilə savaşda yüzlərlə türk əsgər və zabiti canını döyüşlərdə fəda etmişdir. Biz gözümüzü açandan böyüklərimizdən "Türklər gəlməsəydi, ermənilər bizi qıracaqdı", "Türklər gəldi bizi xilas etdi" dərslərini eşitmişik. Nənələrimiz, analarımız laylaları ilə bu qardaşlığı ruhumuza, canımıza yeridib. Bu qardaşlıq, bu birlik ata öyüdü, ana südü ilə qanımıza yazılıb. Bu gün etdiklərimiz yalnız vəfa borcu deyil, haqq işidir. Allah buyruğudur.

Yardım gətirənlərin sırasında bir əli qabarlı fəhlə qardaşımız da var idi. Gücü iki çörəyə, bir qədər ərzağa çatmışdı. O, əli qabarlı qardaşımız boğazından kəssə də, yardımı etdiyi o gün vicdanı rahatlanmışdır. Gecə evində "sakit ol ürəyim, mən də nə isə etdim", - deyib rahat yata bilmişdir. Nə qədər ki zəlzələdən zərərçəkənlərə rahatlıq yoxdur, nə qədər ki əzizlərini itirmiş türk bacı-qardaşlarımız gözyaşı tökəcək, bir o qədər də bizim ürəyimiz qan ağlayacaq.

Günlərdir Türkiyədə zəlzələdən zərərçəkənlərə xalq yardımı davam edir. Etdiyimiz yardımlarla dərdi unutdura, sinəmizdəki yaranı sağalda bilməsək də, "Türkiyəm, dərdin dərdimdir, sevincin sevincimizdir", - deyirik. Təkcə sözlə demirik. Əməlimizlə, ürək yanğısı ilə bu dərdi birlikdə çəkirik.

***Elşən QƏNİYEV, "Azərbaycan"***

# Azərbaycandan Türkiyəyə uzanan könül körpüsü

Türkiyədə çoxsaylı insan tələfatına səbəb olmuş zəlzələ qurbanlarına dəstək məqsədilə Azərbaycan dövlətinin və xalqının həyata keçirdiyi genişmiqyaslı yardım kampaniyasının bir hissəsi kimi qardaş ölkəyə gedən Azərbaycan könüllüləri fəaliyyətlərinin növbəti günündə də yerli əhaliyə müxtəlif xidmətlər göstəriblər.







Könüllülər ənənəvi olaraq dörd fərqli məntəqədə qida, yardım və dərmanların paylanılması işini təşkil edib, ərazinin tullantılardan təmizlənməsini və digər fəaliyyətləri həyata keçiriblər.

Azərbaycan Gənclər Fondundan AZƏRTAC-a bildirilib ki, könüllülərin fəaliyyət göstərdiyi ərazidə müxtəlif təyinatlı dörd yeni çadır quraşdırılaraq istifadəyə verilib. Eyni zamanda könüllülərin fəaliyyət ərazisində paylama məntəqəsi quraşdırılıb və ilkin olaraq yerli əhaliyə su və çay, axşama yaxın isə Azərbaycandan gətirilən qida və odun sobaları paylanılıb.

Həmçinin könüllülərimiz Türkiyə Respublikası Fövqəladə Halların İdarə Olunması Agentliyinin (AFAD) şəhərin müxtəlif ərazilərində çadırlarının qurulmasında da iştirak ediblər. Gün ərzində Azərbaycanın Fövqəladə Hallar Nazirliyinin (FHN) nümayəndələri könüllülərimizin düşərgəsini ziyarət edib, yaşayış və xidmət sahələri, eləcə də könüllülərin qida rasionu və dərman ehtiyatları ilə yerindəcə tanış olub. Əlavə olaraq, şəhərdə yerləşdirilmiş hərbi kontingentin nümayəndələri və eləcə də Türkiyədə QHT-lərlə işə məsul olan aidiyyəti qurumun rəhbərliyi də könüllülərimizin fəaliyyət göstərdiyi əraziyə baş çəkib.

Ötən gün ərzində könüllü gənclərimiz səyyar xidmət üzrə yardımların paylama qruplarının tərkibində iştirak edərək, zəlzələdən zərərçəkmiş dörd kəndə xidmət edib. Eləcə də tibb təhsilli könüllülərimiz tərəfindən 10-dan çox yerli sakinə tibbi xidmət göstərilib.

# Qardaş Türkiyəyə yardım tədbirləri davam edir



Azərbaycan Ordusunun hərbi qulluqçuları və onların ailə üzvləri Türkiyədə baş vermiş zəlzələdən zərərçəkənlərə dəstək məqsədilə Müdafiə Nazirliyinin müvafiq hərbi hissələrində yaradılmış toplama məntəqələrinə yardım gətirməyə davam edirlər.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, könüllü şəkildə gətirilən növbəti geyim, ərzaq məhsulları və digər zəruri əşyalar təyin olunmuş məntəqələrdə toplanıb, çeşidlənərək bağlamalara yığıldıqdan sonra yük avtomobili vasitəsilə Türkiyəyə yola salınıb.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən qardaş ölkəyə yardım tədbirləri davam edir.

# Türkiyədə zəlzələ nəticəsində həlak olmuş Azərbaycan vətəndaşlarının sayı 10-a çatıb

Türkiyədə aparılan axtarış-xilasetmə tədbirləri çərçivəsində indiyə qədər zəlzələ nəticəsində həlak olmuş Azərbaycan Respublikası vətəndaşlarının sayı 10 nəfərə çatıb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlki günlərdə şəxsiyyətləri müəyyən edilmiş 6 nəfər vətəndaşımızdan əlavə, 2002-ci il təvəllüdlü İsmayıllı Hümam Fəxri oğlunun, 2000-ci il təvəllüdlü Nəzərzadə Gündüz Mübariz oğlunun, 2000-ci il təvəllüdlü Quliyev Samir Həsən oğlunun, 1950-ci il təvəllüdlü Qocayeva Lida Süleyman qızının vəfat etdikləri müəyyənləşib.

Həlak olmuş vətəndaşların cənazələrinin fevralın 16-da Azərbaycana gətirilməsi nəzərdə tutulur.

XİN bu dəhşətli zəlzələ nəticəsində həlak olan həmvətənlərimizin ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

# Bütün bölgələrimiz qardaş ölkə üçün səfərbərdir






## Quba

Quba sakinləri də türk qardaşlarımıza yardım kampaniyasında fəallıq göstərirlər. Hətta ucqar dağ kəndlərindən axın-axın insan yardım etmək üçün ayrılmış məntəqəyə gəlir, türk bacı-qardaşlarımızın dərdlərinə şərik olduqlarını bildirirlər. Akif Bəşirov gətirdiyi yardımı təhvil verdikdən sonra ürəkyanğısı ilə dedi ki, biz qardaşıq: "Qardaş köməyini qardaşından əsirgəməməlidir. Əminəm ki, Türkiyə bu çətin sınaqdan da üzüağ çıxacaq".

Quba şəhərindəki Azərbaycan-Türkiyə Qardaşlıq Parkına gələn insanların da ardı-arası kəsilmir. Burada yardım məntəqəsi açılıb. Zərərçəkmiş şəxslərin ehtiyaclarının qarşılanması məqsədilə qubalıların gətirdikləri generatorlar, çadır, yataq ləvazimatları, zəruri gigiyenik vasitələr, elektrik qızdırıcıları və başqa avadanlıqlar bu məntəqədə toplanır. Sonra isə toplanan yardımlar Türkiyəyə yola salınmaq üçün xüsusi ayrılmış nəqliyyat vasitələrinə yüklənir.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***




## Mingəçevir

Türkiyədə baş vermiş zəlzələdən zərərçəkənlərə dəstək məqsədilə ölkəmizdə həyata keçirilən humanitar yardım kampaniyası davam edir. Mingəçevir şəhəri də bu kampaniyaya can-başla qoşulub. Şəhərin müxtəlif ərazilərində yardımların toplanması üçün xüsusi məntəqələr yaradılıb. Hadisə baş verən ilk gündən mingəçevirlilər bu məntəqələrə axın edirlər. Onların gətirdikləri müxtəlif növ zəruri yardımlar çeşidləndikdən sonra qablaşdırılaraq təyin olunmuş ünvanlara göndərilir.

Bundan əlavə, Mingəçevir Şəhər İcra Hakimiyyəti tərəfindən 5 konteyner ev sifariş olunaraq hazırlanmışdır. İki gün öncə konteynerlər zəlzələdən zərərçəkmiş bölgələrə yola salınmışdır.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## Tərtər

Türkiyədə baş vermiş zəlzələ bütün Azərbaycan xalqı kimi, tərtərliləri də ürəkdən sarsıtmışdır. Hər birimiz bu ağrı-acını ürəyimizdən keçirməklə yanaşı, həm də özümüzü toplayaraq qardaş xalqa əlimizdən gələn köməyi göstərməyə çalışırıq.

Şəhərin Ədalət Paşayev küçəsində yaradılmış yardımtoplama məntəqəsinə hər gün yüzlərlə rayon sakini gəlir. Onlar zəlzələ bölgəsinə lazım olan əşyaları, ərzaq məhsullarını qardaş ölkəyə göndərmək üçün məntəqəyə təhvil verirlər.

Məktəbimizin müəllim və şagird kollektivi də bu işdə yaxından iştirak edirlər. Bu günlər tərtərlilərin topladığı yardım Gəncə şəhərinə yola salındı. Bu yardımla bərabər, biz qardaş ölkənin vətəndaşlarına öz sevgimizi, dualarımızı göndərir, onlara səbir və dözüm arzulayırıq.

Yardım kampaniyası davam edir.

***Ziyafət RÜSTƏMOVA,***
***Tərtər şəhər 1 saylı tam***
***orta məktəbin direktor müavini***

## Ağcabədi

Biz insanlığa tapınan, rəhmli, dostcanlı xalqıq. Tariximizi vərəqlədikcə görürük ki, həmişə ədalətin, insana hörmət və qayğıkeşliyin tərəfdarı olmuşuq.

Türkiyədə baş verən zəlzələ dünyamızın bütün tərəqqipərvər insanlarına təsir etdi. Azərbaycan xalqı da qardaş ölkədəki bu hadisəni böyük ürəkağrısı, can yanğısı ilə qarşıladı. Zəlzələnin nəticələri nə qədər sarsıdıcı, nə qədər dəhşətli olsa da, insanlığın ölmədiyini, uşaqdan-böyüyə hamının təlaş içində yardım kampaniyasına qoşulduğunu görüncə isə dəhşətli kədərin içərisində yaralara su səpilir.

Ağcabədililər də bu dar gündə köməyə çatmağa çalışdılar. Qısa vaxtda xeyli sayda elektrik qızdırıcıları, generatorlar, qatlanan çarpayılar, isti geyimlər toplandı. Gənclər üçün Təhsil Mərkəzinin Qarabağ Regional Ofisi və YAP Ağcabədi Rayon Təşkilatının birgə təşkilatçılığı ilə keçirilən yardım kampaniyasına qoşulanların sayı-hesabı olmadı. Onların arasında şəhid ailələri, qazilər, imkansız ailələrin nümayəndələri də var idi. Bəzən yardım gətirənlər arasında tanıdığımız elə adamlar olurdu ki, onların özlərinin yardıma ehtiyacı var idi. Amma onlar da kampaniyaya qoşulur, gətirdiklərinin qəbul olunmasını və qardaş ölkəyə çatdırılmasını təkidlə xahiş edirdilər. Bunu izlədikcə öz-özümə deyirəm ki, yaradan mərhəmət hissini sizlərdən almasın. Gələcək nəsillər sizlərdən nümunə götürsünlər.

Dünyanın harasında yaşamasından, milliyyətindən, irqindən, dinindən asılı olmayaraq, bu böyük faciəyə laqeyd qalmayan, anaların fəryadına səs verməyi bacaranlar, həqiqətən, dəyərli insanlardır. Belə insanlarla bütün dünyamızı dəyişmək olar. Dünyanın heç yeri təbii fəlakətdən sığortalanmayıb. Belə vaxtda çətinliyə düşənlərə kömək etmək hamının borcudur. İnanırıq ki, bu yardımsevərlik, başqalarının acısını özününkü bilmək, bu ağrıları onlarla bərabər yaşamaq insanları daha sıx birləşdirəcək və yenilməz edəcəkdir. İnsanlar bir-birinin əlindən tutmağı bacarmasa, dünyamız çökə bilər.

Qardaş ölkədə təhsil alan tələbələr içərisində orta məktəbdə dərs dediyim şagirdlərim də var. Zəlzələ xəbərini alınca onlar üçün çox həyəcan keçirdim. Şükür ki, sağ-salamatdırlar. Təəssüf ki, Azərbaycandan olan digər 4 tələbəmizin həlak olması xəbərini aldıq. Günlərdir onlar haqqında xoş xəbər eşidəcəyimizə ümidli idik. Zəlzələdə həyatını itirən bacı - qardaşlarımızın hər birinə Allahdan rəhmət, onların yaxınlarına, doğmalarına səbir diləyirik.

***Zəhra İBRAHİMOVA,***
***Ağcabədi rayon sakini, Əməkdar müəllim***

# Bu gün Azərbaycandan modul tipli daha 20 ev Türkiyəyə yola salınıb

Türkiyə Respublikasında baş vermiş və çoxsaylı insan tələfatına səbəb olmuş zəlzələ qurbanlarına dəstək məqsədilə Azərbaycan Respublikasının şəhər, rayon icra hakimiyyətləri tərəfindən hər gün qardaş ölkəyə humanitar yardımlar göndərilir. Hazırda fəlakət zonasında evsiz-eşiksiz qalmış insanların isti sığınacaqlarla təmin edilməsi ən vacib məsələlərdən biridir.



AZƏRTAC xəbər verir ki, bu məqsədlə Mingəçevir, Kürdəmir, Goranboy, Şirvan, Cəlilabad və Tərtər icra hakimiyyətlərinin sifarişi ilə hazırlanmış daha 20 ədəd ev qardaş ölkəyə yola salınıb. Həftənin sonunadək Azərbaycanın şəhər və rayon icra hakimiyyətləri tərəfindən 90 ədəd müasir modul tipli evin hazırlanaraq mərhələli şəkildə Türkiyəyə göndərilməsi nəzərdə tutulub.

Qısa müddətdə və yüksək keyfiyyətlə hazırlanmış 1 və 2 otaqlı belə evlərdə 10-12 nəfərin yaşaması üçün lazımi şərait yaradılıb.

Goranboy Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Şamxal Həsənov jurnalistlərə açıqlamasında söyləyib: "Qardaş ölkədə yaşanan hadisələr bizi dərindən sarsıtdı. Zəlzələdən xəsarət alan vətəndaşların və on minlərlə şəxsin ölümü bizi kədərləndirdi. Azərbaycan tərəfindən Türkiyəyə edilən yardımlara dəstək olaraq Goranboy Rayon İcra Hakimiyyəti də öz borcunu yerinə yetirərək modul tipli beş ev sifariş edib. Bu yardımlar davamlı olacaq. Türkiyənin yanında olmaq millət olaraq bizim vəzifəmizdir".

Kürdəmir Rayon İcra Hakimiyyəti başçısının müavini Ağali Kərimli Türkiyədə baş verən zəlzələ nəticəsində həlak olanlara Allahdan rəhmət, yaralılara tezliklə şəfa diləyib. "Bizə məlumat verildi ki, zəlzələ bölgəsində ən çox ehtiyac çadırlaradır. Bununla əlaqədar olaraq modul tipli dörd ev hazırladıq. Hər birində 14 nəfər olmaqla 60-a yaxın insan müvəqqəti olaraq bu evlərdə rahat şəkildə yaşaya biləcək", - deyən Ağali Kərimli əlavə edib ki, Kürdəmir Rayon İcra Hakimiyyəti tərəfindən bu yardımlar göndərildikdən sonra rayon ictimaiyyəti tərəfindən də yardımlar davam etdiriləcək. "Rayonun şəhid ailələri və qaziləri də yardımlarda iştirak edirlər. Onlar zəlzələdən zərərçəkmiş bacı-qardaşlarımıza könüllü olaraq öz yardımlarını əsirgəmirlər. Biz Türkiyənin yanındayıq və yardımlarımız da davamlı olacaq", - deyə o qeyd edib.

Tərtər Rayon İcra Hakimiyyətinin birinci müavini Elvin Umudov bildirib ki, qardaş Türkiyədə baş verən zəlzələ bütün Azərbaycanı, o cümlədən Tərtər sakinlərini dərindən sarsıdıb. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Türkiyəyə başlayan humanitar yardımlara bütün dövlət orqanları qoşulub. Tərtər rayon sakinləri də birlik nümayiş etdirərək isti geyimlər, yataq dəstləri və ərzaq toplayaraq 20 ton məhsulu bir neçə gün əvvəl Türkiyənin Gəncə şəhərində yerləşən konsulluğuna təhvil veriblər. Yardımlar Türkiyənin zəlzələdən ən çox zərərçəkmiş bölgəsi olan Kahramanmaraşa göndərilərək ehtiyacı olanlara paylanılıb.

"Bu gün isə Tərtər Rayon İcra Hakimiyyəti tərəfindən modul tipli dörd ev qardaş ölkə Türkiyəyə göndərilib. Bizim Türkiyəyə yardımlarımız davam edəcək", - deyə Elvin Umudov vurğulayıb.

Şirvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Məharət Mustafayev deyib: "Türkiyədə baş verən zəlzələ nəticəsində zərərçəkmiş vətəndaşlara yardım məqsədilə isti geyimlər, elektrik avadanlıqları və digər lazımi əşyalar göndərmişik. Türkiyəyə yardımlarımız davam edəcək. Şirvan Şəhər İcra Hakimiyyəti olaraq bugünkü yardımlardan sonra modul tipli daha dörd ev Türkiyədə zərərçəkmiş bölgələrə göndəriləcək".

Qeyd edək ki, fevralın 13-də modul tipli evlərdən 4-ü Sumqayıt Şəhər İcra Hakimiyyəti tərəfindən yola salınıb.

Həmçinin İH-lər tərəfindən fəlakətin ilk günlərindən ziyan çəkmiş əhaliyə lazım olan isti paltar, yataq dəstləri, müxtəlif ərzaq və sənaye məhsulları, dərman preparatları, qızdırıcılar, generatorlar, çadırlar alınaraq qardaş ölkəyə göndərilir. İndiyədək 57 şəhər və rayon icra hakimiyyəti tərəfindən təşkil olunan humanitar yardım Türkiyə Respublikasının Kahramanmaraş, Malatya, Adıyaman və digər bölgələrinə yola salınıb.

Şəhər və rayon icra hakimiyyətləri tərəfindən təbii fəlakət bölgəsinə humanitar yardımların göndərilməsi bundan sonra da davam etdiriləcək.

# Mağazalarda polietilen torbalar artıq ödənişlə veriləcək

**Ölkəmizdə ekologiyanın qorunması əsas prioritetlərdən biridir. Bir çox amillər ətraf mühitin çirklənməsinə səbəb olur ki, bunlardan biri də polietilen torbalardır. Təbiətdə yüz illər ərzində parçalanmayan sellofanlardan istifadə isə ilbəil artır.**






Elmi araşdırmalar göstərir ki, plastik tullantılar düzgün idarə olunmadığından ətraf mühiti çirkləndirir, dəniz və okeanlarda iri plastik tullantısı adaları yaradır ki, bu da dəniz canlılarının, o cümlədən balıq populyasiyalarının zəhərlənməsinə və tələfinə səbəb olur. Digər tərəfdən, torpağın dərin qatlarına keçərək bitkilərin normal inkişafını ləngidir və məhsuldarlığın aşağı düşməsinə səbəb olur. Yandırıldığı halda isə atmosferə yayılan zəhərli qaz tullantılarının həcmini artıraraq təbiətdə bərpası mümkün olmayan fəsadlar yaradır.

Statistikaya əsasən, dünyada hər il təxminən 4 trilyon polietilen torba istifadə olunur, hər bir dəqiqədə 1 milyon sellofan tullantı qutusuna atılır. Marketlərin böyüklüyündən asılı olaraq gün ərzində 15-40 kq plastik torba alıcılar tərəfindən istehlak edilir.

Ekoloji problemlərin həllinə yönəldilmiş tədbirlərin səmərəliliyini artırmaq məqsədilə Azərbaycanda bu il fevralın 15-dən etibarən, qalınlığı 15-20 mikron olan yüngülçəkili polietilen torbalar müştərilərə ödənişli qaydada və nəzarət-kassa aparatlarında ayrıca məhsul növü kimi təqdim edilir.

### Qiymət bazar prinsipləri əsasında formalaşacaq

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətindən qəzetimizə verilən məlumata görə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 2 fevral tarixli 28 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları"na əsasən, ticarət, ictimai iaşə, məişət və digər növ xidmətlərin göstərilməsi (işlərin görülməsi) zamanı istehlakçılar (alıcılar) tərəfindən malların və məhsulların daşınması üçün nəzərdə tutulan qalınlığı 15-50 mikron olan, qulplu və qulpsuz, yüngülçəkili polietilen torbalar istehlakçılara (alıcılara) ayrıca məhsul növü kimi təqdim edilməlidir. Bu növ məhsulların ayrıca təqdim edildiyi və satış qiyməti barədə istehlakçıya (alıcıya) əvvəlcədən məlumat verilməlidir.

"Sahibkarlıq fəaliyyəti haqqında" qanunun 6-cı maddəsinə əsasən, sahibkarlar Azərbaycan Respublikasının qanunvericiliyinə əməl etməklə öz malları (məhsulları, işləri, xidmətləri) üçün qiymətləri (tarifləri) sərbəst müəyyənləşdirmək hüququna malikdirlər.

Nazirlər Kabinetinin 28.09.2005-ci il tarixli 178 saylı qərarı ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı" təsdiq edilib. Polietilen torbaların qiymətləri həmin siyahıya daxil edilmədiyi üçün onun qiyməti bazar prinsiplərinə uyğun olaraq tələb və təklif əsasında formalaşır.

İstehlak bazarında sahibkarlar tərəfindən istehlakçılara müxtəlif qiymət və şərtlərlə mal və xidmətlər təklif olunur. Mövcud qanunvericiliyə əsasən, istehlakçı onların arasından qiyməti və istehlak xassələri daha uyğun olan malı və ya xidməti öz ehtiyacına və zövqünə görə sərbəst seçərək ala bilər.

### Plastik vasitələrin dövriyyəsini azaltmaq üçün uğurlu addım

Ekologiya və təbii sərvətlər nazirinin müşaviri Rasim Səttarzadə deyir ki, bu tədbirlərin görülməsi polietilen torbalardan istifadəni azaldacaq: "Digər ölkələrin, habelə qardaş Türkiyənin təcrübələrindən bunu aydın görə bilərik. Bu ölkələrdə polietilen torbalardan istifadə ilk yarımildə 40-70 faiz azalmışdır".

R.Səttarzadə bildirir ki, Nazirlər Kabinetinin müvafiq qərarı ilə 15-50 mikron qalınlığında yüngülçəkili polietilən torbaların istehlakçılara ayrıca məhsul kimi ödənişli təqdim edilməsi plastik tullantıların ətraf mühitə mənfi təsirini azaltmaq məqsədi daşıyır: "Eyni zamanda alternativ məhsullardan istifadəyə də təşviq edir. Bu, plastik vasitələrin dövriyyəsini mərhələlərlə azaltmaq üçün uğurlu addımdır".

"Bu sahədə müsbət təcrübələrimiz var. Bir neçə il öncə qalınlığı 15 mikrona qədər olan polietilen torbaların istifadəsi ilə bağlı mahdudlaşdırma mərhələlərlə həyata keçirildi. Artıq biz deyə bilərik ki, bu ən yüngül və təkrar emala yararsız olan sellofanlardan istifadə təxminən sıfra enib. Bu da ətraf mühitə müsbət təsir ilə nəticələnib. İndi də əsas məqsəd ətraf mühitə mənfi təsirin azaldılmasıdır. Həm də bu layihə alış-veriş mədəniyyətini formalaşdıracaq, biznes qurumlarının da məsuliyyətini artıracaq. Birgə səylərlə ətraf mühitə mənfi təsirlər azalacaq", - deyə müşavir bildirib.

### Yeni qayda qalınlığından asılı olmayaraq bütün torbalara şamil olunmalıdır

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyir ki, polietilen torbaların ödənişli olması birliyin hələ 10 il öncə qaldırdığı məsələdir: "Bu, dünya təcrübəsidir. Onlardan istifadəni azaltmağa təşviqetmə yollarından biridir. Ekologiyaya ziyan vuran polietilen torbalarla hər hansı formada mübarizə aparmaq lazımdır".

Bu addımın yalnız qalınlığı 15-50 mikron olan torbalara şamil edilməsini düzgün hesab etməyən E.Hüseynov vurğulayıb ki, əslində, bu, ölçüsündən və qalınlığından asılı olmadan bütün torbaları əhatə etməlidir: "Belə ki, qalın və üstüyazılı polietilen torbalar ekologiya üçün daha təhlükəlidir. Onların yazılarında belə ağır metallardan, rənglərdən istifadə olunur ki, bu da xüsusilə uşaqların tədricən zəhərlənməsinə səbəb olur".

Polietilən torbaların ödənişli olmasının müsbət hal olduğunu vurğulayan ekspert deyir ki, AİB alternativ variantlar təklif edir: "Biz layihəyə dəstək olaraq 500 ekoçanta hazırlayaraq vətəndaşlara ödənişsiz payladıq. İnsanlar bunu məmnuniyyətlə qarşıladılar. Çantalara alternativ olaraq ekoloji təmiz həsir zənbillərdən də istifadə etmək olar. Əhalinin çoxistifadəli torbalara keçməsi vacibdir".

"Dövlətimiz tərəfindən vətəndaşlar üçün bir sıra faydalı layihə həyata keçirilir. Lakin bir çox hallarda insanlar buna laqeyd yanaşır, dəstəklənmir", - deyə o bildirib.

### Alıcıların fikirləri fərqlidir

Məsələ ilə bağlı alıcıların fikirlərini öyrənmək üçün bir neçə mağazaya üz tutduq. Paytaxt sakini Nərgiz Soltanova deyir ki, marketlərdə sellofan torbaların pullu olması ekoloji baxımdan vacibdir: "Ekologiyanın qayğısına qalmaq hər birimizin borcudur. Hamımız bu planetdə yaşayırıq. Ödənişli olmağının müsbət tərəfi odur ki, dəfələrlə ekoçantalardan istifadə etmək istəsəm də, hər dəfə ya unutmuşam, ya da təxirə salmışam. Bu qərar isə bizi buna bir növ məcbur edir. İlk baxışdan polietilen çantaların qiyməti çox münasib görünsə də, gündə bir neçə dəfə ödəniş etsək, ay ərzində xeyli vəsait xərclədiyimizi görəcəyik".

Bu layihənin tətbiqi ilə razılaşmayanlar da az deyil. Esmira Məmmədova deyir ki, qayda əksər insanlar üçün əlverişli deyil: "Kimyəvi məhsullarla qida məhsullarını, yaxud ət məhsulları ilə un məmulatlarını eyni ekoçantaya qoymaq alınmayacaq. O zaman belə çıxır ki, biz yanımızda bir neçə kağız, parça torba gəzdirməliyik. Həftəlik, aylıq bazarlıq zamanı isə tamamilə əlverişsizdir".

Mağazada alış-veriş edən Kəmalə Əhmədova deyir ki, yeni qaydanın tətbiqindən sevinsə də, bu onun həyatında heç bir dəyişiklik etməyəcək, çünki o, həmişə həsir zənbildən istifadə edib: "Əvvəllər ya kağız torbalardan, ya da zənbillərdən istifadə edirdik. Mən də elə o vaxtdan bazarlığa zənbillə gedirəm. Amma qəribə odur ki, sellofanlara stabil qiymət qoyulmayıb. Eyni sellofan hər marketdə bir qiymətədir. Hətta bəzi marketlər onları bir neçə günlük endirimlə 1 qəpiyə satır".

Gənclərin də bu layihəyə fikri müsbətdir. Həmsöhbət olduğumuz İlahə İsmayılova deyir ki, ekologiyanın qorunması üçün xüsusən Avropa ölkələrində atılan addımlara həmişə qibtə ilə baxıb: "Uzun zamandır istəyirdim ki, ölkəmizdə də bu qayda tətbiq edilsin. Müasir, estetik ekoçantalardan istifadə edərək həm planetimizi qoruyaq, həm də dəbli görünək. Ümid edirəm ki, dizaynerlər hər yaşa və zövqə uyğun çantalar hazırlayacaqlar".

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Karen DONFRİD:
## "Azərbaycan Avropanın enerji təchizatında çox mühüm rol oynayır"

Azərbaycan Avropaya enerji resurslarının tədarükündə çox mühüm rol oynayır. Bu barədə ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfrid "Trend"ə müsahibəsində deyib.



"Azərbaycan istər birbaşa Ukraynanın, istərsə də daha geniş anlamda Avropanın enerji təchizatında mühüm rol oynayır. Xatırlayıram ki, ötən ilin yayında avropalı müttəfiqlərimiz və tərəfdaşlarımızla, həmçinin digər ölkələrlə birlikdə Avropanın bu qışdan necə çıxa biləcəyi haqqında düşünürdük. Nəzərə alaq ki, Avropanın bir sıra iri ölkəsi Rusiya neftindən və qazından mühüm dərəcədə asılı idi", - o deyib.

Donfrid istər mühüm rol oynayan Azərbaycanın, istərsə də maye təbii qaz tədarük edən ABŞ-nin və ya Norveçin Avropanın bu qışa davam gətirəcəyinə zəmanət vermək məqsədilə bazara enerji tədarükünün artırılması imkanlarını müzakirə etmək üçün bir araya gəldiklərini qeyd edib.

"Bilirəm ki, bu, asan deyildi, enerji qiymətləri çox yüksək idi, lakin, zənnimcə, həqiqətən kritik zamanda ehtiyacların qarşılanması üçün güclərin birləşdirilməsi böyük əhəmiyyət kəsb edirdi", - dövlət katibinin köməkçisi deyib.

Qeyd edək ki, 2022-ci ildə Azərbaycan Avropaya 11,4 milyard kubmetr qaz nəql edib ki, bu da 2021-ci illə müqayisədə 12,3 faiz yüksəkdir. 2022-ci ildə Azərbaycanın qaz ixracının ümumi həcmi 22,3 milyard təşkil edib ki, bu da 2021-ci illə müqayisədə 18 faiz yüksəkdir. Azərbaycan qazının "Cənub qaz dəhlizi" vasitəsilə Avropaya nəqli 31 dekabr 2020-ci ildə başladılıb. Dəhlizin Avropa hissəsini təşkil edən Trans-Adriatik Boru Kəmərinin (TAP) ilkin ötürmə gücü 10 milyard kubmetr təşkil edir. 2022-ci ilin iyul ayında Azərbaycan və Avropa Komissiyası Avropaya qaz tədarükünün 2027-ci ilədək 10 milyard kubmetrdən 20 milyard kubmetrədək artırılmasını nəzərdə tutan memorandum imzalayıb.

TAP-ın genişləndirilməsi üzrə imkanlar mütəmadi bazar testləri vasitəsilə təklif edilir. Boru kəmərinin ötürücülük qabiliyyətinin artırılması üzrə bazar testinin yekunlarına əsasən, 2026-cı ilin dekabrından 2028-ci ilin dekabrına qədər ildə əlavə olaraq 1,2 milyard kubmetr nəql olunması, ikinci partiyanın isə 2026-cı ilin oktyabrından 2033-cü ilin sentyabrına qədər tədarükü istənilib. 2025-ci ilin sonlarında əlçatan olacaq bu yeni uzunmüddətli ötürücülük imkanları üzrə hazırda sazişlər imzalamaqdayıq. Bu həcmin 1 milyardı İtaliyanın payına düşür, 200 milyon kubmetr isə Albaniyaya tədarük olunacaq.

Qeyd etmək lazımdır ki, 2023-cü il yanvar ayı ərzində Azərbaycandan Avropaya qaz ixracı bir milyard kubmetr təşkil edib. Hesabat ayında qaz ixracının ümumi həcmi isə illik hesablamada 12 faiz artaraq 2,2 milyard kubmetr təşkil edib.



## Həssas təbəqəyə həssas münasibət
### Azərbaycanda sosial siyasətin əsas hədəfidir

*Əvvəli 1-ci səh.*

Məlum olduğu kimi, ötən il pensiyaçılara ödənilən maddi yardımlar cari ilin əvvəlindən onların pensiyalarının tərkibinə daxil edilmişdir. Bu faktı ona görə xatırladırıq ki, maddi yardım daxil edilərək artırıldıqdan sonra yaranan pensiya məbləği 14,7 faiz indeksləşdirilmişdir. Yeni artımdan sonra pensiyaların orta aylıq məbləği 423, o cümlədən yaşa görə pensiyaların orta aylıq məbləği 456 manata çatmışdır.

Dövlət başçısının yeni sərəncamı ilə pensiyalar indeksləşdirilərək artırıldığı kimi, sığortaolunanların fərdi hesablarındakı pensiya kapitalları da istehlak qiymətləri indeksinin keçən il üzrə illik səviyyəsinə uyğun, yəni 13,9 faiz artırılmışdır. Hər iki istiqamətdə artımlar, yəni həm pensiyaların, həm də fərdi hesablardakı pensiya kapitallarının artırılması elektron sistem üzərindən avtomatik şəraitdə həyata keçirilmişdir.

44 günlük Vətən müharibəsində qazandığımız parlaq qələbə tariximizdə şərəfli gün kimi qalacaq. Amma nə edəsən ki, qələbə itkisiz olmur. Odur ki, dövlətin əsas görəvi həmin itkinin ağrı-acısını azaltmaq üçün tədbirlər görməkdir. Prezident İlham Əliyev: "Keçən il bu istiqamətdə də önəmli addımlar atılıb, bu kateqoriyadan olan 1500 ailəyə dövlət tərəfindən mənzillər verildi. 2021-ci ildə isə 3 min mənzil verildi. Bu il də ən azı 1500 mənzil veriləcək. Beləliklə, hələ növbədə duran bu kateqoriyadan olan insanların hamısına dövlət tərəfindən mənzillər veriləcək. Bu günə qədər 13 min ailə mənzillə təmin olunub".

Bunlardan əlavə, ötən dövr ərzində müharibə ilə bağlı əlilliyi olan 7500-dən çox şəxsə minik avtomobili verilib. Ümumiyyətlə, postmüharibə dövründə həssas kateqoriyadan olan 122 min şəxsi əhatə edən 264 min dəstəkyönümlü xidmət göstərilib. Eləcə də həmin dövrdə 102 min şəxsə 114 min aylıq sosial ödəniş, 16,8 min şəxsə birdəfəlik ödəmə, 3,1 min şəxsə sığorta ödənişi təyin olunub. Eyni zamanda müharibə əlilliyi olan şəxslər 30,7 min reabilitasiya vasitəsi, o cümlədən 394 yüksək texnologiyalı müasir protezlə təmin edilib.

Ölkəmizin işğaldan azad edilmiş ərazilərində aparılan böyük quruculuq işləri, Beynəlxalq Əmək Təşkilatı ilə genişlənən əməkdaşlıq gündəliyi, Azərbaycanın DOST Konsepiyası və onun uğurları, dövlət sosial xidmətlərinin elektronlaşdırılması proqramının nailiyyətləri, ölkəmizdə gənclərin, qadınların məşğulluq imkanlarının artırılması, peşə hazırlığı sisteminin təkmilləşdirilməsi və şəbəkəsinin genişləndirilməsi, beynəlxalq əmək standartlarının tətbiqi və s. istiqamətlərdə aparılan işlər beynəlxalq qurumlar tərəfindən də yüksək qiymətləndirilir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Azərbaycan və İtaliyanın biznes dairələri arasında əməkdaşlıq müzakirə edilib

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov İtaliyanın Sahibkarlıq və "Made in İtaly" Nazirliyinin Xarici investisiyaların cəlb edilməsi bölməsinin rəhbəri Amedeo Teti ilə görüşüb.

KOBİA məlumat yayıb ki, görüşdə Azərbaycan və İtaliya KOB-ları arasında əlaqələrin genişləndirilməsi üçün potensial qeyd edilib, bizneslər arasında əməkdaşlığın inkişaf imkanlarına dair müzakirələr aparılıb.

## AİŞ İsrailin startap layihəsinə bir milyon dollar investisiya yatırıb

İsrailin "OurCrowd" şirkəti ilə əməkdaşlıq çərçivəsində "Azərbaycan İnvestisiya Şirkəti" ASC fəaliyyəti dövründə ilk dəfə texnoloji startap layihəsinə bir milyon dollar investisiya yatırıb.

AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov məlumat verib. Nazir bildirib ki, investisiya yatırılmış İsrailin LARGIX startapı sənaye məhsullarının hazırlanması üzrə ixtisaslaşır.

## SOCAR İsveçrədə yaşıl hidrogen satışına hazırlaşır

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) İsveçrənin Bern şəhəri yaxınlığındakı Grauholz-Züd yanacaqdoldurma məntəqəsində bu ilin may ayından etibarən yaşıl hidrogenin satışı həyata keçiriləcək.




"Trend"in məlumatına görə, bu barədə Azərbaycanın İsveçrədəki səfiri Fuad İsgəndərov öz tviter səhifəsində deyib. Səfir bunun hidrogenin diffuziyası üzrə İsveçrənin Federal Energetika İdarəsinin "Qızıl Vatt- Watt d'Or" mükafatına layiq görülmüş "SOCAR Energy" innovasiya layihəsinin reallaşdırılması sayəsində mümkün olacağını qeyd edib.

Qeyd edək ki, SOCAR qonşu ölkələrdə və Avropada özünün qaz doldurma stansiyaları şəbəkəsini genişləndirməklə məşğuldur.

## ƏƏSMN sistemində daha 371 tələbənin istehsalat təcrübəsinə başlanır

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) ilə ali təhsil müəssisələri arasındakı əməkdaşlığa əsasən, 2022-2023-cü tədris ili üzrə təqdim edilmiş siyahılar əsasında 19 ali təhsil müəssisəsindən daha 371 tələbənin fevralın 16-dan nazirlik sistemində istehsalat təcrübəsi keçməsinə başlanacaq.



Bu barədə nazirlikdə ali təhsil müəssisələrinin istehsalat təcrübəsi üzrə məsul əməkdaşları ilə keçirilən görüşdə bildirilib. Qeyd olunub ki, 2022-2023-cü tədris ili üzrə də istehsalat təcrübəsinin mərkəzləşdirilmiş qaydada və səmərəli təşkil olunması üçün nazirliyin Aparatında, strukturuna daxil olan qurumlarda və strukturuna daxil olmayan tabeliyindəki qurumlarda struktur vahidləri üzrə təcrübəçilərin say həddi, üstünlük verilən ixtisas istiqamətləri müəyyənləşdirilib. Həmin tələbələrin nazirlik sistemində istehsalat təcrübəsi keçməsi üçün hazırlıq işləri artıq başa çatdırılıb.

Görüşdə nazirliyin Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin əməkdaşları nazirlikdə təcrübə prosesinin təşkili, təcrübə qaydaları və qiymətləndirmə ilə bağlı təqdimatla çıxış edib.

Təcrübənin təşkili, təcrübə qaydaları, həmçinin qarşılıqlı əməkdaşlıq istiqamətlərinə dair fikir mübadiləsi aparılıb.

Məlumat üçün bildirək ki, ötən il 10 ali təhsil müəssisəsindən 291 tələbənin nazirlik sistemində istehsalat təcrübəsi keçmələri təmin olunub.

## "Azərsu" üç şəhərdə icra olunan layihələrlə bağlı təqdimatlar keçirib



"Azərsu" ASC regionların sosial-iqtisadi inkişafı dövlət proqramı çərçivəsində Şəki, Şirvan və Salyan şəhərlərində içməli su təchizatı və tullantı su layihələrinin icrasını davam etdirir.

Layihələr çərçivəsində görülmüş işlər və perspektiv vəzifələr Şəki, Şirvan və Salyan şəhərlərində keçirilən təqdimatlar zamanı ətraflı müzakirə olunub. Təqdimatlarda qeyd olunub ki, istehlakçıların keyfiyyətli içməli su ilə təmin edilməsi və onlara göstərilən tullantı sularının axıdılması xidmətlərinin yaxşılaşdırılması xüsusi əhəmiyyət daşıyır. Hazırda hər üç şəhərdə içməli və tullantı su şəbəkələrinin tikintisi işləri həyata keçirilir. Ötən müddətdə yeni şəbəkələrin yaradıldığı ərazilərdə əhalinin içməli su təchizatı əhəmiyyətli dərəcədə yaxşılaşıb. İçməli və tullantı su şəbəkələrinin tamamilə yenidən qurulması şəhərlərin sosial-iqtisadi inkişafına, əhalinin məişət şəraitinin yaxşılaşdırılmasına töhfələr verəcək.

◆ **Tərəfdaşlarımız**

## Azərbaycanla "Masdar"ın əməkdaşlığı yollarında "yaşıl işıq" yanır




**Dünyanın Azərbaycanla tərəfdaşlıq edən tanınmış enerji şirkətləri sırasına "Masdar"ın daxil olduğu gündən o qədər də çox vaxt keçməyib.**

2021-ci il aprelin 6-da Energetika Nazirliyi və "Azərenerji" ASC ilə bu şirkət arasında 230 MVt gücündə günəş-elektrik stansiyası layihəsi üzrə müvafiq müqavilələr imzalanıb. Danışıqlar, müzakirələr uğurla nəticələnib. Heç bir il də keçmədən, 2022-ci il martın 15-də ölkəmizdə "Masdar" tərəfindən inşa ediləcək "Qaradağ" Günəş-Elektrik Stansiyasının təməli qoyulub.

"Masdar" şirkəti Azərbaycanla dost olan ölkəni - Birləşmiş Ərəb Əmirliklərini (BƏƏ) təmsil edir. Bəllidir ki, ölkələrimiz arasında ikitərəfli münasibətlər yüksək səviyyədədir. Siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlıq uğurla davam edir. Ticarət əlaqələri genişlənir, turizm sahəsində əməkdaşlıq üçün böyük imkanlar mövcuddur. Artıq bərpaolunan enerji istehsalı sahəsində də səmərəli əməkdaşlıq və tərəfdaşlığa başlanıb. BƏƏ-nin ən böyük bərpaolunan enerji şirkəti - "Masdar" hazırda Azərbaycanda 230 MVt gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyası layihəsini icra edir. Stansiyanın hər il yarım milyard kilovat-saat elektrik enerjisi istehsal etməyə və atmosferə atılan tullantıların 200 min tondan çox azaldılmasına imkan yaradacağı nəzərdə tutulur. Belə bir proqnozun gerçəkləşəcəyi təqdirdə ildə 110 milyon kubmetr təbii qaza qənaət ediləcək və 110 min ev elektrik enerjisi ilə təmin olunacaq. Bu stansiya həm ölkəmizin enerjiyə artan tələbatının ödənilməsinə dəstək verəcək, həm də ixrac imkanlarını genişləndirəcək.

Məlum olduğu kimi, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də ölkəmizdə "yaşıl enerji" istehsalının genişləndirilməsi məsələsi də əhəmiyyətli yer alıb. Hədəf ümumi enerji istehsalı gücündə bərpaolunan enerjinin payını indiki 17,3 faizdən 2025-ci ildə 24, 2030-cu ildə isə 30 faizə çatdırmaqdır.

Həmin istiqamətdə inamlı addımlar atılır ki, "Qaradağ" stansiyasının inşası da bunun əyani nümunəsidir. İnvestisiya dəyəri 225 milyon dollardan çox olan bu layihədə bizimlə tərəfdaşlıq edən "Masdar" şirkətini BƏƏ hökuməti 2006-cı ildə yaradıb. O vaxtdan bəri şirkət zəngin təcrübə toplayıb, günəş və külək enerjisinin inkişafına 30 milyard dollardan çox sərmayə yönəldərək onlarla layihənin iştirakçısı olub. "Masdar" daim təmiz texnologiya innovasiyalarını artırmağa, Yaxın Şərqdə, eləcə də dünyada bərpaolunan enerji sektorunun inkişafina mühüm töhfələr verməyə səy göstərir. Azərbaycan bu şirkətin çalışdığı 40-dan çox ölkədən biridir. Onun fəaliyyət göstərdiyi ölkələr sırasında BƏƏ ilə yanaşı, Səudiyyə Ərəbistanı, İordaniya, Misir, Mərakeş, Böyük Britaniya, ABŞ, Avstraliya, Serbiya, Hindistan, İndoneziya, Özbəkistan və bir çox başqaları var.

"Masdar" qlobal yaşıl hidrogen təşəbbüslərinə qoşularaq bp, "Siemens Enerqy", "TotalEnergies", "Marubeni Corporation", Əbu-Dabi Enerji Departamenti və dünyada tanınmış bir sıra digər şirkətlərlə əməkdaşlıq edir. Şirkətin ölkəmizlə əməkdaşlığının da perspektivləri böyükdür. Bu il yanvarın 15-də Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri çərçivəsində Əbu-Dabi şəhərində SOCAR-la (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) "Masdar" arasında ölkəmizdə 2 QVt gücündə Dənizdə Külək və Hidrogen Layihələrinin işlənməsinə dair Birgə İşlənmə Sazişi, həmçinin 1 QVt gücündə Günəş Fotovoltaik və 1 QVt gücündə Quruda Külək Layihələrinin işlənməsinə dair Birgə İşlənmə Sazişi imzalanıb.

Dövlətimizin başçısı Əbu-Dabi Dayanıqlılıq Həftəsinin açılış mərasimindəki çıxışında bu hadisənin önəmini vurğulayıb. Prezident, əsasən, enerji məsələlərindən bəhs edib və bildirib ki, biz bərpaolunan enerji mənbələrini öz enerji təhlükəsizliyimizin təmin olunması üçün inkişaf etdirmirik. Enerji təhlükəsizliyimizi hələ bir neçə il əvvəl təmin etmişik: "Bu gün Azərbaycan nəinki öz enerji tələbatlarını təmin edir, o cümlədən xam nefti, neft məhsullarını, təbii qazı, neft-kimya məhsullarını və elektrik enerjisini ixrac edir. Bərpaolunan enerji ilə bağlı proqramımız tamamilə fərqli gündəliyə malikdir. Birincisi, bu onunla bağlıdır ki, nəhəng potensial var. İkincisi, biz onun sayəsində ixracımızı şaxələndirəcəyik. Əlbəttə ki, nəticədə iqtisadiyyatımızın yeni ekoloji təmiz sektoru yaranacaq".

Beləliklə, Əbu-Dabidə "Masdar" şirkəti ilə imzalanan sənədlər də Azərbaycanın "yaşıl enerji"nin mühüm ixrac mənbələrindən birinə çevriləcəyi inamını möhkəmləndirir. Sözsüz ki, bərpaolunan enerji layihələri həmçinin Azərbaycanın etibarlı tərəfdaş kimi nüfuzunu daha da artıracaq və ölkə iqtisadiyyatının daha da inkişafına xidmət edəcək. O cümlədən "Masdar"la əməkdaşlıq ölkəmizlə Birləşmiş Ərəb Əmirlikləri arasında iqtisadi əlaqələrin daha da gücləndirilməsinə, habelə Azərbaycanda istixana qazı emissiyalarının azaldılmasına, bərpaolunan enerji mənbələrinin inkişafına töhfə verəcək.

"Qaradağ" stansiyasının təməlqoyma mərasimində Birləşmiş Ərəb Əmirliklərinin energetika və infrastruktur naziri Suhail Al Mazroueinin dedikləri öz təsdiqini tapır. Nazir Azərbaycanda bərpaolunan enerji planlarının enerji siyasətinin mühüm hissəsinə çevrilməsini dəstəklədiklərini bildirmiş və demişdi: "Birləşmiş Ərəb Əmirlikləri və "Masdar" şirkəti təmiz enerjiyə aid geniş gündəliyin icrasında Azərbaycana birbaşa xarici sərmayələrini və dəstəyini davam etdirməyi səmimiyyətlə arzulayırlar və biz tərəfdaşlığımızı daha da gücləndirmək üçün daha böyük imkanları araşdıracağıq".

"Masdar"ın cari ayın əvvəlində Bakıda keçirilən "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının 9-cu və "Yaşıl Enerji" Məşvərət Şurasının birinci toplantılarında iştirakı tərəfdaşlığımızın uğurla davam etdiyinin daha bir təsdiqidir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 24 noyabr (Bazar günü) tarixli 48-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Yekşənbə, 18 səfərülmüzəffər sənə 1337.
24 təşrini-sani sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rubladir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rubladir.

Elan fiatı: sətri 2 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Mir Əbutalib Hacı Seyidrza oğlu Dadaşov kamali-hüzn [və] təhəssürlə [böyük bir hüzn və həsrətlə] sevgili qardaşı **Seyidəli Dadaşovun** vaxtsız vəfat etdiyini qövm-əqrəba və dostaşnalarına xəbər verir. Təşyiyi-cənazə [cənazənin yola salınması] bu gün təşrini-saninin [noyabrın] 24-ündə Malı Krepostnovı caddədə 114 nömrəli kəndi evindən gətirilib Şah məscidinə aparılacaqdır.

### QİSMİ-RƏSMİ
### [RƏSMİ HİSSƏ]

**Azərbaycan Maarif Nəzarətindən**

Məsumə xanım Məhəmmədbəyova Bakı Mariinski ünas [qızlar] gimnaziyasında türk lisanı tədrisinə buraxılır.

Bakı İkinci realnı məktəbinin ibtidai sinif müəllimi Aleksandr Nikolayeviç Popov həmin məktəbin üç əvvəlinci siniflərində rus lisanı, tarix və coğrafiya tədrisinə buraxılır.

Moskva Hüquq fakültəsini bitirmiş Mixail Fyodoroviç Perederey təşrini-sani ibtidasından [əvvəlindən] Bakı Müqəddəs Nina məktəbində latın lisanı və Bakı Mariinski ünas gimnaziyası ilə İkinci ünas gimnaziyasında latın lisanı ilə qanun dərsləri və Üçüncü ünas gimnaziyasında qanun dərsləri tədrisinə buraxılır.

*Maarif naziri Yusifbəyov*

### BAKI ŞƏHƏRİ ÜÇÜN
### İCBARİ QƏRARDAD

Bakı şəhərində idareyi-örfiyyə [fövqəladə vəziyyət] elanının qərara alındığı haqqında 17 təşrini-sani [noyabr] 1918 sənəsində olan icbari qərardada əlavə olaraq aşağıdakı qərardadları elan edirəm:

**Silah**

1) Müttəfiq ordusu mənsubinindən [mənsublarından] və "Rusiya Hökuməti" xidmətində bulunan mürəxxəslərdən [nümayəndələrdən] başqa kimsəyə mənim tərəfimdən təyin olunmuş məmurun imza və möhürünü havi [daşıyan] mühərrər [yazılı] bir vəsiqəsi olmadan yuxarıda göstərilən məntəqələrdə istər atəş edici, istər kəsici silah daşımağa müsaidə edilməyir. Bu qisim təhriri [yazılı] vəsiqələr bu xüsus üçün tərəfimdən təhrirən [yazılı surətdə] təyin olunmuş rus və yaxud Müttəfiq ordusu zabitanından [zabitlərindən] hər hansı birisinin tələbi üzərinə iraə [təqdim] edilməlidir. Vəsiqəsiz daşınmaqda olan silah həcz [müsadirə] ediləcək, yaxud da əhvala münasib olaraq rəftar ediləcəkdir.

2) Yuxarıda göstərilən şəxslərdən başqa kimsəyə kəndi malikiyyətində, yaxud da mühafizəsində qeyd olunmamış carihə [kəsici], yaxud atəş edici silahlar, yaxud da fişəng tutmağa müsiadə edilməyir. Qeyd əməliyyəsi [əməliyyatı], icab edəcək [lazımi] vəsaiqi [vəsiqələri] verməyə səlahiyyəti olan Müttəfiq dövlətlərinin polis komissarı dəftərxanasında icra ediləcəkdir (sabiq qradonaçalstvo dəftərxanası). Silah daşımaq üçün vəsiqə yalnız pək müstəsna hallarda veriləcəyi də müstəğniyi-bəyandır [söyləməyə ehtiyac yoxdur].

Hər bir şəxs silahını kəndisinin yaşamaqda olduğu polis dairələrinə (uçastoklarına) verməlidir. Məhəlli [yerli] polis dairəsi tərəfindən bu surətlə verilmiş bütün silah müqabilində məzbətə [protokol] veriləcəkdir. Əhali təşrini-saninin 22-si axşam saat 6-ya qədər işbu qərara əməl etməyə məcburdur. İşbu silahlar Düvəli-müttəfiqənin [Müttəfiq dövlətlərin] təyin edəcəkləri müddətin nəhayətində məzbətələrin iraəsi [təqdimi] ilə iadə ediləcəkdir [qaytarılacaqdır]. İşbu qərara təbəiyyət etməyənlər [tabe olmayanlar] atidəki [aşağıdakı] cəzalara düçar olacaqlardır:

a) Mücazati-bədəniyyə [fiziki cəzalar];

b) Tövqif [həbs] cəzasına;

c) Cəraimi-nəqdiyyəyə [nəğd cərimələrə] yaxud yuxarıda göstərilən mücazatın [cəzaların] bir yerdə surəti-icrasına (kombinasiyasına).

3) Bir binanın, vaporun, qayığın və yaxud da bir qiteyi-ərazinin [torpaq hissəsinin] müstəciri [icarəyə götürəni], sahibi yaxud da içərisində yaşamaqda olan hər bir şəxs 1918 sənəsi təşrini-sani ayının 22-si axşam saat 6-dan sonra məzkur [adı çəkilən] məhəllərdə [yerlərdə] qeyd olunmamış carihə, yaxud atəş edən silah, yaxud fişəng bulunduğu təqdirdə bu silahların sahibi yaxud da mühafizi [onları saxlayan] ədd ediləcəkdir [sayılacaqdır].

4) Gəmi kapitanları "Prezident Kruqer" vaporunda bulunmaqda olan Baş flot [donanma] zabitinin əvamirinə [əmrlərinə] təbəiyyət [tabeçilik] etməlidirlər.

**İctimalar [yığıncaqlar]**

5) Hər bir məqsəd üçün olursa-olsun (qanuni və ibadət məhəllərində [məkanlarında] olan dini ictimalardan başqa) ondan fəzlə [artıq] əşxasın iştirak etdikləri ictimalar mənim tərəfimdən verilən təhriri vəsiqə olmadan mən [qadağan] edilir. İşbu əmr soqaqlarda yapılacaq ictimalara da aiddir ki, qətiyyən məmnudur (qadağandır).

**Şiddətli və bilatəxir [geciktirmədən] mücazata [cəzaya] düçar olacaqlar**

6) Yuxarıda göstərilən nizamnaməyə əlavə olaraq onu ixlal etmiş [pozmuş] olduqları ədd [hesab] olunan atidəki əşxas [aşağıdakı şəxslər] şiddətlə cəzalanacaqlardır:

**Təbəiyyət etməmək**

a) Mənim ərkani-hərbim [qərargah zabitlərim] miyanına [arasına] daxil olan hər hangi bir ingilis hərbi məmurunun yaxud da mənim namımdan hərəkət etməsinə mənim mühərrər [yazılı] icazəm olan və üzərinə tərəttüb edən [düşən] vəzaifini [vəzifələrini] hini-icrada bulunan [icra etməkdə olan] əşxasın qanuni əmrinə bilatəxir [dərhal] təbəiyyət etməyən əşxas.

**Yalandan olaraq hərəkət (həqiqətə məqrun [uyğun, yaxın] olmayan surətdə hərəkət)**

b) Hərəkati-hərbiyyə, yaxud siyasət haqqında mütəhəyyic [həyəcanlı], yaxud qəsdən yapılmış yalan xassəni haiz [yalan sözləri ehtiva edən] məlumat nəşr edən [yayan] şəxs.

**Sərxoşluq (piyanlıq)**

c) Sərxoş bir halda olduğu təbəyyün edən [ortaya çıxan] hər bir şəxs.

Bakı məntəqəsi daxilində Müttəfiq dövlətləri, yaxud rus əsakirinin [əsgərlərinin] sərxoş olaraq dolaşdıqlarında, onlar bilavasitə təhti-əvamirində [əmrləri altında] bulunduqları ingilis və yaxud rus dəvairi [patrulları] tərəfindən tövqif [həbs] ediləcəklər və buna nəzərən də cəzalanacaqlardır.

**Məşrubati-küuliyyə [spirtli içkilər] satılmasının məmnu [qadağan] olduğu saatlar**

ç) Məşrubati-küuliyyə satmaqda olan hər bir şəxsin sabahleyin saat 9-dan əvvəl və gecə saat 11-dən sonra bu məvaddı [maddələri] satması.

**Ehtikar [möhtəkirlik]**

d) Əmtəə yaxud bəzzaz mallarını [arşın malını] satmaqdan imtina edən, işğal edilməmiş [tutulmamış] evləri, binaları kirayə verməkdən imtina edən, əşxas yaxud da cəmiyyətlərə aid vəsaiti-nəqliyyədən [nəqliyyat vasitələrindən] mötədil və qanuni bir ücrət müqabilində imtina edənlər.

**Saxlama (kətm)**

e) Sərf və istemalına [istifadəsinə] meydan verməmək məqsədi ilə hər bir əmtəəni və bəzzaziyyə malını kətm edən [gizlədib saxlayan] əşxas.

**Asayişi-ümumiyyənin mühafizəsi yolunda olacaq müavinət [kömək]**

ə) İcabı təqdirində ingilis, yaxud rus hərbi polisinə, yaxud da asayişi-ümumiyyənin mühafizəsi yolunda yanğınları söndürmək üçün, yaxud da mənafeyi-ümumiyyə uğrunda əhali tərəfindən icrası lazım gələn hər hangi bir işi icraya Düvəli-müttəfiqə [Müttəfiq dövlətlər] tərəfindən daha sonra təyin ediləcək polis dairəsinə müavinət üçün polis xidmətinə dəvətə icabət etməyən [dəvət edildiyi halda gəlməyən] hər bir şəxs.

**İctimalar [nümayişlər] və üsyanlar**

f) Üsyançı və ya ictima yapan və yainki ictima və şurişə [iğtişaşa] təhrik edən şəxs.

**Ümumi**

g) Mənim hesabıma görə camaatın asayiş və rahatlığını pozan və habelə nizamın əleyhində iş görən hər bir şəxs.

**Ağır cinayət**

7) Olduqca ciddi cinayətlər mənim tərəfimdən şiddətli cəzaların bilatəxir icrasına [dərhal icra edilməsinə] məmur edilən bir şəxs, yaxud edam cəzası verməyə səlahiyyəti olan xüsusi bir məhkəmə tərəfindən tədqiq və təhqiq ediləcəkdir.

**Dil**

8) Bütün küçələrin və ümumi məhəllərin [ictimai yerlərin] adları, camaata olan xitabnamə və elanlar rus dilində və lazım gələrsə qeyri dillərdə elan ediləcəkdir.

**Düşmən dövlətlərin təbəələri**

9) 1918-ci ilin noyabr ayının 19-uncu günü axşam saat 6-dan (altıdan) sonra Bakıda yaxud ətrafında təzahür edən [görülən] bütün Türkiyə, Almaniya və Bolqariya təbəələri dərhal tutulub həbs olunacaqdır. Bu dövlətlərin təbəələrini tutub Müttəfiq hökumətlər məmurlarına verənlərə və ya onların yerlərini göstərənlərə və onların tutulmasına kömək edən şəxslərə bu təriqlə [bu qaydada] ənam veriləcəkdir:

1 - Hər bir əsgəri xidmətdə olub rütbə cəhətincə zabitdən aşağı olan üçün yüz (100) manat;

2 - Kapitan rütbəsindən aşağı olan hər bir zabit üçün iki yüz əlli (250) manat;

3 - Hər kapitan rütbəsindən atıq olan zabit üçün beş yüz (500) manat;

4 - Xüsusi şəxslər üçün münasib görüldüyünə nəzərən.

**Hökumət məmurları təyini**

10) Fövqəlzikr [yuxarıda göstərilmiş] icbari qərardadın mövqeyi-icraya qoyulmasına nəzarət etməyə mən polkovnik F. P. Kokerelli Bakıda Müttəfiq dövlətlərin polis komissarı təyin edirəm. Mumaileyh [adı çəkilən şəxs] mənim namımdan iş görəcəkdir.

11) Bu icbari qərardad müvəqqətən, mərkəzi – Bakı şəhərinin hökumət postaxanası [poçtu] ədd olunaraq [sayılaraq] səkkiz verst radiusun əhatə etdiyi bir dairəyə aiddir. İşbu qərardadi-icbari 1918 sənəsi təşrini-sani ayının 19-u gündüz saat 12-dən etibarən qanun hökmünə girməkdədir.

*Bakıda*
*Müttəfiq qoşunları komandanı general-mayor*
*V. M. Tomson.*
*Sənə 1918-də*
*təşrini-sani 19-unda verilmişdir.*

### İCBARİ QƏRARDAD

İşbu qərardad 1918 sənəsinin təşrini-sanisinin 22-si, gündüz saat 12-dən etibarən qüvvəni haiz olur [qüvvəyə minir].

1) İngilis hərbi polisindən başqa heç bir hərbi məmur Bakı dairəsində silah daşıya bilməz. Fəqət 10 nəfərdən az olmamaq şərti ilə hərbi məmur dəstəsi, zabit təhti-idarəsində [nəzarətində] olaraq müsəlləh [silahlı] gəzə biləcəkdir. İşbu əmrə tabe olmaq istəməyən bəhriyyun [matros] və saldat ölüm cəzasına məhkum ediləcək, muxtar olan hərbi məhkəməyə veriləcəkdir.

2) Şəhərdə güllə atacaq hər kəs olursa olsun, hərbi məhkəməyə veriləcəkdir.

3) Yuxarıda göstərilən müqəssirlərin ölüm cəzası tənbehi aşkara surətdə feilən icraya qoyulacaqdır.

4) Aşağıda mündəric [adı göstərilən] dairələrdə hərbi məmurların dolaşması qadağan edilir:

1-İçərişəhər (qalanın içərisi)

2-Şəhərin işbu küçələrdən keçəcək xətdən qərb cəhətinə:

a) Aşağı Çəmbərəkənd küçəsi

b) Böyük Çəmbərənd küçəsi

c) Vrangelskaya

ç) Bazar küçəsi

d) Şaxskaya

e) Birinci Qanlıtəpə

ə) Qoqol küçəsi

f) Yuxarı Bulvar küçəsi

*Bakı şəhərinin hərbi qubernatoru*
*general-mayor V. M. Tomson*

### BAKI, 24 TƏŞRİNİ-SANİ
### Bolşevizm təhlükəsi

Məlum olduğu üzrə, Etilaf dövlətləri Cahan müharibəsini müvəffəqiyyətlə bitirdiktən sonra, Rusiya dövlətini bolşevizm bəlasından xilas edib də, onu yenidən düzəltmək fikrindədirlər.

Bu məqsədlə Türkiyə ilə əqd etdikləri [bağladıqları] mütarikə [atəşkəs] məvaddının [maddələrinin] mövcibincə [əsasında], Çanaqqala ilə Boğaziçindən vaporlarla Qara dənizə qüvvə gətirə bilərlər və hətta Batumu da işğal edə bilərlər. Eşitdiyimizə görə, Müttəfiqlər Batuma qoşun çıxarmışlar ki, onlar qismən Novorossiysk təriqi [yolu] ilə, qismən də Məvərayi-Qafqaz [Zaqafqaziya] dəmiryolu ilə Don tərəfə nəql olacaqlar ki, oradan da rus könüllü qoşunları ilə bahəm içəri Rusiyaya girəcəklərdir. Təbii ki, Müttəfiqlərin böylə təşəbbüsatı bolşevik məhafili [dairələri] üçün məxfi qalmamışdır. Onlar qarşılarına gələn bu təhlükəni çoxdan bəridir ki, duymuşlar və bunun dəfi üçün də lazımi tədabir və binagüzarlıqlar görməkdədirlər [tədbirlər görməkdə və sərəncamlar qəbul etməkdədirlər]. Qəzetələrin xəbər verdiyinə binaən, Hərbiyyə naziri Trotski cənub cəbhəsini bu günlərdə dolaşmaqdadır və istilacu [işğalçı] dövlətlərin təcavüzünə qarşı proletariatı təşviq və təhrikdə bulunub, Qırmızı qoşun içində islahat yapmaqdadır. Müsyö Trotskilər imperialist dövlətlərin hücumunu dəf etmək üçün yalnız bir "qorunmaq"la iktifa [kifayət] etməyib "ən müvəffəqiyyətlə müdafiə təcavüzdədir [hücumdadır]" zərbiməsəli ilə kəndiləri hücum və təcavüz niyyətindədirlər. Bunu Hacı-Tərxandan gələnlər dəxi isbat edirlər. Ehtimal ki, bolşevik ordusu cənuba tərəf yeriş etməkdədir. Digər tərəfdən də Şimali Qafqazda bolşevizm özünə məhsullu bir zəmin tapmış, Vladiqafqaz ilə Armavir və Mədən Suları cəhəti onların əlindədir.

Bu gün bolşevik qoşununun ümdə hissəsini yerli əhali təşkil edir. Vladiqafqazı kazaklardan zatən inquşların müavinəti [yardımı] ilə zəbt etdilər. İndi isə aralarında inquşlardan başqa çeçenlə osetin alayları dəxi mövcuddur. Görülür ki, bolşevik sərkərdələri yerlilərin hüsnrəğbətini qazanmaq üçün lazımi yollar tapmışlar. Onların birisi də ərazinin sosializatsiyasıdır. Yəni torpağını əhali arasında mütəsavi [eyni boyda] bir ölçü ilə bölüşdürmək məsələsidir. Məlum olduğu üzrə, sabiq Rusiya çarlığı Qafqazı zəbt edər-etməz yerli əhalinin ən məhsuldar torpağını qəsb edib öz "sadiq təbəəsi" olan kazaklara verdi. Buna görə də yerli müsəlmanlar dağlara və başqa məhsulsuz məkanlara köçməyə məcbur oldular. Bunun nəticəsi olaraq məişət üçün əlində heç bir vasitə qalmayan dağlı "abrek"liyə meyl edirdi və bundan dolayı biçarə dinc əhali min cürə bəlalara düçar olurdu. İndi isə bolşeviklər gəlib deyirlər ki, torpaq kazaklar və yerli əhalilər arasında mütəsavi ədədcə, adilanə təqsim olunsun [bölünsün]. Buna kazaklar razı olmadıqda, onları yerlilərin müavinəti ilə münhəzim [məğlub] edib, Terek və Sunja nəhirlərinin o biri kənarına qovdular və yerli əhali də öz köhnə yerlərinə malik oldular.

Yer və torpaq məsələsindən masiva [başqa] bolşeviklər yerli əhalinin rəğbətini başqa siyasi vədələrlə öylə qazanırlar ki, onların rüknü [əsası, özülü] "Hürriyyət, müsavat [bərabərlik] və üxüvvət [qardaşlıq]" şüarıdır. Böylə əsaslarla bolşeviklər öz məsləklərini yürüdüb qüvvət qazanırlar.

Burasını bolşevik aləminə müharibə elan edən qüvvə dürüst düşünməlidir və buna görə də ciddi tədabirdə bulunmalıdır [tədirlər görməlidir]. Bizcə həmin tədabir yalnız bir hərb alatı [vasitələri] ilə başa gəlməz. Çünki, bolşeviklər yalnız bir zor [zorakılıq] ilə iş görməyirlər. Onlar propaqanda və lazımi yerdə güzəşt edib, füqərayi-kasibəni [proletariatı] öz tərəflərinə cəlb edirlər.

Böylə vəziyyətin təbii ki, nətayici [nəticələri] bolşevizmlə müvəffəqiyyətli surətdə müharibə yapmaq nöqteyi-nəzərindən fəna olar. Çünki böylə bir kütlənin müqabilinə kafi dərəcədə qüvvə cəlb olunması icab edir.

Bolşevizm təhlükəsindən ehtiraz edən [çəkinən, qorxan] əhali və Rusiyanı bolşevizmdən xilas etmək niyyətində olan Müttəfiqlər bu təhlükənin önünü tezliklə almasalar, nəhayəti fəna olacağı şübhəsizdir. "Bolşeviklərin qoşunlarında qayda və nizam yoxdur; hərcmərc var və ilxaxir" xəbərləri bugün təsdiq olunmayır. Bitərəf mətbuat və Rusiyadan gələn əşxas etiraf edirlər ki, bolşevik qoşunlarında dəmir kimi intizam vardır və özlərinin də əllərində cürbəcür texnik ləvazimatı vardır. Deməli, bolşevik üstünə gedən qüvvə özünü nizamsız, başıpozuq üstünə gedən hiss etməməlidir. Buna görə də bolşevik Rusiyasına səfərə gedən qüvvə vəziyyəti hərtərəfli düşünməlidir. Şimali Qafqazdan aldığımız teleqrafdan anlaşıldığına görə, Dağıstan bolşevik təhlükəsi qarşısında yaşamaqdadır.

İştə, həmin təhlükəni rəf etmək [aradan qaldırmaq] üçün vəzifəylə şəhərimizə varid olan [gələn] Müttəfiqlər və onlarla bahəm bütün rus millətinin ziyalıları lazımi təşəbbüsdə bulunmalıdırlar. Bolşevizmdən nə vasitəylə özümüzü qoruyub da, sonra onu Rusiyadan çıxartmaq mümkün olacaq?

Burası böyük və əhəmm [ən əhəmiyyətli] bir məsələdir.

Gələn nömrəmizdə hamımız üçün mühüm olan bu suala cavab verməyə çalışacağız.

*C. D.*

### TELEQRAF XƏBƏRLƏRİ
### (Xüsusi müxbirimizdən)

**Dərbənd - 21 təşrini-sani [noyabr].**

- Petrovsk şəhəri Dağıstan Hökuməti əlindədir. Bu şəhərin bolşeviklər tərəfindən alındığı xüsusunda intişar tapan [yayılan] şayiələr əsassızdır.

- Dağıstan Hökuməti bu günlərdə Milli Nümayəndələr Şurası, yəni Şimali Dağıstan Cümhuriyyəti Parlamanı dəvət edəcəkdir.

- Qroznı şəhəri yaxınlığında bolşeviklərlə kazaklar miyanında [arasında] qanlı müsadimələr [toqquşmalar] vaqe olubdur. Qalibiyyət bolşeviklərin tərəfində olmuşdur. Ola bilsin ki, bolşevik qüvvələri Qroznı ilə Kizlyar cəhətlərindən get-gedə kazaklarla Dağıstan Hökuməti üzərinə yürüsünlər.

- Xasavyurt-Qudermes dəmiryolu Dağıstan Hökuməti təhti-idarəsinə [nəzarətinə] keçib, təmir edilməkdədir.

**(Bağdaddan və Ənzəlidən Bakıda "Prezident Kruqer" vaporunda alınmışdır)**

24 nömrəli "Royter" acentəliyi məlumatı.

20 təşrini-sani.

- Şimali Şlezviqin müqəddəratını həll etmək üçün alman dövləti əhalinin kəndi xahişini və arzusunu əmələ gətirməyə razı olmuşdur.

- Lüksemburq Palatası çıxartdığı qərardadında məmləkətin atidəki [gələcəkdəki] idarəsi haqqında şimdidən əfkari-amməni [ictimai rəyi] toplamağı tələb edir. Sosialist və hürrəfkarlar [liberallar] cərəyanının cümhuriyyət tələbi qəbula keçmişdir.

17 təşrini-sani.

- Ruslarla ingilislərin Bakı şəhərini işğal etdiyini Hərbiyyə Nəzarəti xəbər verir.

15 təşrini-sani.

- Vilhelmshafendə (Vilhelms limanı) sualtı qayıqlarının əmələləri [heyəti] mitinqdə vətən uğrunda ağır və son vəzifə ifası üçün qayıqların həpsini mütarikə şəraiti [atəşkəs şərtləri] ilə təyin edilmiş məkanlara aparmağı təhti-qərara almışlardır.

- Alman Hökuməti Amerika ilə Müttəfiq dövlətlərə verdiyi radioteleqrafda mütarikə şəraitinə qarşı protesto edir. Bu mütarikə ilə Reyn nəhrinin sol tərəfində Almaniyanın iqtisadi vəziyyətini və sağ sahilində alman ərazisini təhdid altına alır. Bu şərait bir az təxfif edilməzsə [yüngülləşdirilməsə], məişət müşkülatı ilə bolşevizm mühəqqəq [qaçılmaz] olacağını bəyan edir.

- Sosialist Libknext alman qoşunları tərəfindən sükunət etdiyi [yaşadığı] Berlin sarayından çıxarılmışdır. Roza Lüksemburq qüvveyi-əsgəriyyə [hərbi qüvvə] ilə "Lokalanzeç" dəftərxanasından çıxarılmışdır.

- Böylə bir çox digər xəbərlər vardır ki, Berlində gündən-günə bolşevizm əleyhinə gedən cərəyanlar artmaqdadır.

- Kansler Ebert bəyan etmişdir ki, ən yaxın bir zamanda Məclisi-Müəssisan dəvət etmək istəyir.

- Amerikadan vəd edilmiş ərzağı çıxarmaq üçün gəmilər acil bir surətdə hazırlanırlar.

Ənzəli, 21 təşrini-sani.

- Sülh müahidənaməsinin [sazişinin] əhəmm [önəmli] maddələri həll edildiyi zaman, Vilson konfransda şəxsən iştirak edəcəkdir.

- 21 təşrini-sanidə alman gəmiləri ingilis sularında təslim olmaqdadır.

- Peştədən "Venqriya" Cümhuriyyəti elan edildiyini xəbər verirlər.

- Hərbiyyə Nəzarəti xəbər verir ki, siyasi vəziyyət nöqteyi-nəzərindən sənaət işlərinin yeni təmiri üçün lazım olan bir az qüvvədən savayı silah altında olanları tərxis etmək imkan xaricindədir.

- Hollandiyada tam bir sakitlik hökmfərmadır [hökm sürməkdədir]. Trulstranın arzuları vücuda gəlmədi.

- Brüksel ilə Antverpen şəhərləri istilası xitampəzir oldu. General Peten Onuncu fransız ordusu ilə böyük bir təmtəraq içində Metz şəhərinə daxil oldu. General Peten müşir [marşal] rütbəsinə tərfi edilmişdir.

- Dəryabəyliyi (Bəhriyyə ərkanı [Donanma qərargahı]) xəbər verir ki, təşrini-əvvəl ayında malları ilə bərabər xəsarət görmüş gəmilərin ümumisi 84 min ton olmuşdur. Halbuki bu zamanda Müttəfiq və bitərəf ticarət gəmilərinin xəsarəti 93 min ton olmuşdur.

- Alman sualtı qayıqlarının 1-inci dəstəsi Kil limanından İngiltərəyə üzüb getmişdir.

- Alman dəryabəyliyi gündə iyirmisi olmaq şərti ilə 94 təhtəlbəhr [sualtı] təslimə hazır olduğunu xəbər verir.

**Bolşeviklərlə müharibə**

"Royter" acentəliyindən. 22 təşrini-sani.

- Şimali Rusiyadan ingilislər xəbər verir ki, 11 təşrini-sanidə Şimali Dvina nəhri üzərində bolşeviklər nəhir vaporları vasitəsilə ingilisləri cinahdan və cəbhədən bombardman etmişlər. Kanada topları müavinəti [yardımı] ilə ingilis və amerikan piyadəsi böyük tələfatla onları geriyə atmış imiş. Sabahı günü bolşeviklər təərrüzü [hücumu] yeniləşdirmişlər.

**Nansidən Metzə**

- 1914 sənəsi ağustos ayının 1-inci günündən bu vaxtadək Nansidən Metz şəhərinə birinci sərnişin qatarı getmişdir.

- Müttəfiqlərin Almaniya şəhərlərindən, Belçikadan və Elzasdan buraxılmış əsirləri hər gün minlərlə Parisə gəlməkdədirlər. Onların hamısı xəstə, ac və üryandırlar.

**İngiltərənin etirazı**

- Bonar Lou Avamlar Kamerasında bəyan etmişdir ki, ingilis əsirlərinin tez bir zamanda evlərinə buraxılması üçün Almaniyada bir təşkilat düzəlmədiyindən dolayı, əsirlər Almaniyada qalıb, aralarında növbənöv müsri [yoluxucu] xəstəliklər intişar tapmışlar [yayılmışdır]. Xəstələrdən çox hissəsi tələf olmaqdadır. Buna qarşı İngiltərə protesto yapmalıdır. Hərgah, Almaniya tez bir zamanda bu məsələni həll etməzsə, alman xalqının ehiyacını ödəmək və onların ərzaq məsələlərində bu əhval inikas [əks] edəcəkdir.

- Avamlar Kamerasında Keyv bəyan etmişdir ki, hamı almanlar Almaniyaya göndəriləcəklərdir. Hökumət öylə bir qanun verəcəkdir ki, bunun mövcibincə [əsasında] hərb zamanında olduğu kimi, sülh zamanında da xarici təbəələrin İngiltərəyə düxulu [girişi] yasaq elan ediləcəkdir. Ondan maəda [başqa], dövlətlər təbəələrində təfavüt [fərq] olacaqdır.

### AVSTRİYA-MACARISTAN İLƏ MÜTARİKƏ ŞƏRAİTİ
### [ATƏŞKƏS ŞƏRTLƏRİ]

"Press-büro" Avstriya mütarikəsinin şəraitini dərc edir:

**Birinci hissə: Əsgəri şərait [hərbi şərtlər]**

1. Dayanmaqsızın yerdə, səmada, bəhrdə [dənizdə] dava hərəkətləri dayandırılsın!

2. Bütün Avstriya-Macarıstan ordusunun tərxisi. Alman dəryasından İsveçrə hüdudunadək əməliyyat yapmaqda olan Avstriya-Macarıstan ordusunun dayanmaqsızın geri çağırılması.

3. Avstriya-Macarıstana məmləkət içərisində ən çoxu 20 firqədən [diviziyadan] ibarət qoşun saxlamağa icazə verilir. Top və digər ləvazimatı-əsgəriyyəni [hərbi ləvazimatı] Amerika və Müttəfiqlər səlah bildiyi [münasib gördüyü] bir məkana təslim etmək üçün toplamalı. Birinci növbədə müharibə zamanı Avstriya tərəfindən istila edilmiş yerlərdəki mühümmati-əsgəriyyə təslim edilməlidir. Avstriya-Macarıstan ordusunun işğal etdiyi yerlərin hər iki cəbhədə təxliyəsi Müttəfiq ordusu komandanı göstərdiyi zaman olmalıdır və qoşunların Sen-Steluidən Pizombrioyadək xəttin arxasına çəkilmələri də şərtdir. Bu xətt Retiy Alp[ları] dağ silsiləsi ilə gedib Adıqo və Eysak çeşmələrinə, Reşen və Brenner dağları ilə Yeteç və Çiller yüksəklərinədək uzanacaqdır. Buradan xətti-hüdud [sərhəd xətti] cənuba, Toblax dağından və hazırki Karnik alpları, Mon-Tarvis, Tevis, Mon-Manqart, Triqornı, Kolde-Brodberq, Paolo Qiskom və İderio hüdudundan keçəcəkdir. Sava nəhri hövzəsi müstəsna olaraq, bu xətt cənub-şərqə Şteynberq tərəfə dönür. Şteynberq hüdudundan bu xətt Cənubi dərya [Adriatik dənizi] sahilinə yaxınlaşıb, Kastav, Matulyi ilə Viskovonu əhatə edib və hazırda şimalda Arikarida ilə Trivansa, cənubda Kap-Blanka sahilindən cənub-şərqdəki yüksəkliyədək təxliyə edilən ərazi də buraya daxil olaraq, bu xətt Rolmat nahiyəsinin dövləti xəttiylə keçir. Böylə ki, düşmən Çikola, Krka, Bunsiyanik nəhirləri hövzələri kimi ovaları və Sebenikə tərəf axan qollar hövzəsini boşaldacaqdır. Buraya Dalmatiyadan Premuda və digərlərinədək şimalda və qərbdə olan bütün adalar daxildir. Bütün buraxılmış yerləri Müttəfiq dövlətlərlə Şimali Amerika qoşunları işğal edəcəkdir. Hamı əsgəri ləvazimat və habelə dəmiryolları, kömür zəxirəsi [ehtiyatları] bu yerlərdən çıxarılmamalı, yaxud donanma komandanlığı rizaməndliyi ilə bunlar Müttəfiqlərə verilməlidir. Bundan böylə yağma və qarət, həcz [qəsb] və müsadirə işğal edilmiş yerlərdə dayandırılmalıdır.

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 24 noyabr (Bazar günü) tarixli 48-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

4. Müttəfiqlərə su, dəmir və şosse yolları ilə maneəsiz hərəkət etməyə imtiyaz verilir və Avstriya ilə Venqriyanın hamı vəsaiti-nəqliyyəsindən [nəqliyyat vasitələrindən] bilamümaniət [maneəsiz] istifadə edəcəklər. Sövqül-ceyş nöqteyi-nəzərindən [strateji baxımdan] Müttəfiq ordusu lazım bildiyi və mühümədd [hesab] etdiyi hər yeri hərbiyyə və intizam işləri üçün işğal etməyə muxtardır [ixtiyar sahibidir]. Müttəfiq qoşunları nərədə oldu həcz [müsadirə] etməyə sahibi-ixtiyardır. Lakin, həcz ediləcək şeylər parasız olmayacaqdır.

5. 15 gün ərzində alman və habelə Avstriya və Venqriya qoşunları Baltik dəryası sahillərindən və italyan torpağından getməlidir. Bu müəyyən vaxtda Avstriya torpağından getməmiş almanlar əsir ediləcəkdir.

6. Təxliyə edilmiş yerlərin idarəsi məhəlli [yerli] inzibat [asayiş] və hökumət idarələrinə tövdi edilməklə [tapşırılmaqla], Müttəfiqlərin məzkur [adı keçən] idarələrdə kontrolu olacaqdır.

7. Müttəfiqlərin Avstriyaya düşmüş əsgəri, əsirlər ilə tövqif [həbs] edilmiş xüsusi əşxas dayanmaqsızın Müttəfiqlərə iadə edilməlidir [qaytarılmalıdır]. Təxliyə zamanı dinc əhalidən tutulanlar bütün cəbhələri idarə edən Baş Komandanlıq əmri ilə vətənlərinə göndəriləcəkdir.

8. Olduğu yerlərindən hərəkətə qadir olmayan, ağır surətdə yaralı, xəstə olanlar Avstriyanın heyəti-tibbiyyəsi [tibbi heyəti] tərəfindən tədavi [müalicə] edilir. Həman yerlərində buraxılmış təbiblərə ləvazimati-tibbiyyə [tibbi avadanlıq] gətiriləcəkdir.

**Dəniz şəraiti**

1. Bilatəvəqqüf [dərhal] suda dava hərəkətləri dayandırılır. Avstriya gəmilərinin duracaq yerləri və gediş-gəlişləri haqqında ən səhih xəbər verilməlidir. Bitərəf dövlətlərin sularında Müttəfiq gəmilərinə üzməyə imtiyaz verilməsi xüsusunda xəbər verilməlidir. Bitərəflik qanunları bununla pozulmuş olur.

2. 1910 ilə 1918 səneyi-miladidə təmir edilmiş 16 sualtı qayıqlarını və habelə hazırda Avstriya sularında duran, yaxud sonradan gəlib ora girə biləcək alman təhtəlbəhrlərinin [sualtılarının] hamısını Müttəfiqlərə və Şimali Amerikaya təslim etməklə, qalan qayıqların cümləsini tərksilah və mütəğəyyiri-hal [dekonstruksiya] etdikdən [sonra] Müttəfiq və Amerika dövlətləri təhti-nəzarətinə buraxılacaqdır.

3. Müttəfiqlər ilə Amerika tərəfindən göstərilən 3 zirehli, 3 kiçik kruvazer [kreyser], 9 məhvedici [qırıcı] kruvazerlər, 12 torpedo qayıqları, 1 minanos [torpedo gəmisi] və altı Tuna nəhri monitorları tam müsəlləh [silahlanmış] olaraq Müttəfiq və Amerika dövlətlərinə təslim edilməlidir.

4. Avstriya-Macarıstan məmləkəti içərisindəki sularda, Tuna nəhrinin özü və qollarında, Adriatik dənizində, Müttəfiqlərin və Amerikanın gərək hərbi, gərək ticarət gəmilərinə seyri-səfain [hərəkət] üçün imtiyaz verilir. Avstriyanın sularında mövcud torpedolar (mina) göstəriləcək, Müttəfiqlərə və Amerikaya, Tuna nəhrində onları tutmağa imtiyaz veriləcəkdir. Bu növlə Müttəfiq və Amerika üçün seyri-səfain [gəmilərin hərəkəti] asan olacağına yol veriləcəkdir. Müttəfiqlərin və Amerikanın Avstriya-Macarıstanda hazırlanan istehkamatdan [istehkamlardan] hər birisini işğal etmək və onların planlarını götürməyə haqları vardır.

5. Hazırkı abluka şəraiti [mühasirə şərtləri] təbəddülata [dəyişikliyə] uğramayır. Müttəfiqlər komissionundan vəsiqə almış gəmilərdən başqa, dənizdə görülmüş Avstriya-Macarıstan gəmiləri tutulacaqdır.

6. Avstriya-Macarıstan hava gəmiləri Müttəfiq və Amerika dövlətləri göstərdiyi Avstriya üssülhərəkələrində [bazalarında] toplanıb tərksilah edilməlidir.

7. Avstriya-Macarıstan tərəfindən işğal edilmiş həp italyan torpağı və limanları təxliyə edilməli. Bircə milli torpaqlar müstəsna olacaqdır. Habelə Avstriya-Macarıstanın bütün nəhir filosu [çay donanması] daxili nəqliyyat vəsailindən [vasitələrindən] istifadə üçün dənizdə lazım olan təchizat ilə məvadd [materiallar] tamamən Müttəfiqlərə və Amerikaya buraxılır.

8. Puladakı cəbbəxana, tərsanələr, müdafiə üzrə olan adalar, bərri [quru] və bəhri [dəniz] istehkam məntəqələri Müttəfiqlər tərəfindən işğal edilir.

9. Avstriya-Macarıstana mütəalliq [aid] bütün ticarət gəmiləri Müttəfiqlərə verilməlidir.

10. Təslim, təbdili-məkan [yerdəyişmə], təğyiratdan [restavrasiyadan] irəli gəmilərin və məvaddın [materialların] ifnası [məhv edilməsi] yasaqdır.

11. Müttəfiq dövlətlərə mənsub bütün ticari və əsgəri əsirlər vətənlərinə buraxılmalıdır.

## BAKIDAKI İNGİLİSLƏRİN İSLAM ORDUSU İLƏ MÜXABİRƏSİ

21 təşrini-sanidə [noyabrda] İslam Ordusu komandanı fəriq Nuri paşa həzrətlərinə, Bakıda Müttəfiq qoşunları komandanı Tomson tərəfindən göndərilmiş məktubun məzmunudur:

*“Bakıya varid olduğumdan [gəldikdən] sonra Osmanlı əsgərləri tərəfindən bir taqım əşya və əmvalın [malların] yağma və qarət edildiyinə qarşı şikayətlər alındı. İngilis, fransız və Amerika dövlətləri nümayəndələrindən mütəşəkkil bir komission dəvət edilmişdir ki, isbat edilmiş xəsarətlərin qədərini, bahasını təyin etsin. Sizə bunu yazmaqdan məqsədim, bu məbləğin Türkiyə dövləti hesabına yazılacağını məlum etməklə, bu əmvalın iadəsi [qaytarılması] üçün sizə imkan verməkdir. Lazım gələrsə, məsələlər nəşati [meydana çıxması] ilə şikayətlərə baxmaq üçün yenə də komissiyalar təşkil ediləcəkdir. Bu xüsusda sizə və sizin məmurlara ixbar etməyi [məlumat verməyi] münasib gördüm.”*

## QƏZETƏLƏRDƏN

**Cənub ordusunun hücumu**

Cənub ordusunun hücumundan naşi [ötrü], Voronej quberniyasi Trotski tərəfindən idareyi-örfiyyeyi-əsgəriyyə [hərbi fövqəladə vəziyyət] altında elan edilmişdir. Trotski özü Voronej şəhərində şəhərin müdafiəsi üçün tədarükatdadır. Trotski bütün fəhlələri səfərbərliyə almaqla bərabər, Moskvaya müavinət [yardım] üçün teleqram göndərmişdir.

**Kamenevin müraciətnaməsi**

Cənubdakı qorxulu əhvaldan [vəziyyətdən] naşi [ötrü] Kamenev, Moskva fəhlələrinə bir müraciətnamə nəşr etmişdir. Biz ingilis imperializmi gəlmədən irəli Krasnov-Alekseyev quldur dəstələrini dağıtmalıyız. Şimdi ən calibi-nəzər [diqqət çəkən] cəbhəmiz cənub cəbhəsidir. İşbu cəbhə Moskvaya ən yavuq cəbhədir. Binaileyh [ona görə], Moskva fəhlələri bura müdafelərini [müdafiəçilərini] ümidləndirib, təqviyə etməlidirlər [gücləndirməlidirlər]. Moskvalılar Qara dəniz kənarına çıxıb, bizi ingilis imperializmindən mühafizə etmək üçün möhkəmləşməmizə müavinətdə bulunmalıdırlar [kömək göstərməlidirlər].

## FƏNA HƏRƏKƏTLƏRİN FƏNA NƏTİCƏLƏRİ

Son iki-üç gün zərfində Bakıda bir çox şey, xüsusən çörək iki qat və daha artıq bahalanıb, gündən-günə də qiymətlərin tərəqqi etməsi [artması] təhdidi var.

Neçə müddətdən bəri görmədiyimiz növbə sıraları yenə başlanmışdır.

Dün və srağagün çox adam bütün şəhəri gəzib evinə əli boş qayıtmış, çörəksiz qalmışdır. Deyirlər ki, hətta srağagün “Aleksandro-Nevski ryad” deyilən bazarda bir şəxs çörəyi 10 manata belə satmaq istəməyərək, 18 manat deyirmiş. Doğrudur, bu “tacirin” bir kefli rus olduğu da rəvayət olunur. Fəqət, iş böylə gedərsə, bütün alış-verişçilərin, bilxassə çörək satanların həpsinin “keflənməsi”, yəni malı qeyri-qabili-təsəvvür [təsəvvür olunmaz] bir qiymətə deyəcəkləri qorxusu var.

Bunun səbəbi nədir əcəba?

Nə oldu ki, srağagün iki manat yarıma satılan çörək bu gün beş-altı manata satılır? Həm də çox adam çörək əvəzinə “yoxdur” cavabını alır.

Bəziləri alış-verişçilərdən şikayət edirlər ki, guya malı gizlətmişlərdir. Lakin, bu şikayət məncə haqsızdır. Nə oldu ki, srağagün var-yoxunu bazara çıxaran alış-verişçi bu gün malını gizlətdi?

Bazarda malın, xüsusən ərzağın bahalılığı səbəbi əşya, məkulat [ərzaq məhsulları] gətirilməməsidir.

Şübhəsiz ki, buna “nə üçün?” deyə bir sual verilə bilər.

İştə, şərin həpsi buradadır. Bütün təqsir, müqəssirləri burada aramalıdır.

Nə üçün üç gün əvvələdək hamı hər şeyi gətirirdi, bazarda hər şey bol idi, hər şey gündən günə ucuzlanırdı, şimdi birdən-birə əməliyyat da kəsilir, mal da azalır və bahalanır?

Məlum ki, bahalığın səbəbi malın azlığıdır. Malın isə azalmasının səbəbi budur ki, hamıya məlum olduğu üzrə, Bakı şəhəri və ətrafı həmişə kənardan gətirilən məkulatla dolanır. Bolluq illərdə yenə Bələdiyyə İdarəsi az-çox müddətə şəhəri hər təsadüfə qarşı təmin etmək qəsdi ilə müəyyən miqdarda məkulat alaraq “zapas” [ehtiyat] adı ilə saxlayırdı. Fəqət, son zamanlar şəhərdə heç vaxt öylə taxıl mövcudu olmamışdır ki, az bir müddət də olsa kənardan məkulat gətirilmədiyi təqdirdə əhalini təmin etsin. Bir ildən bəridir ki, Bakı və ətrafı hər gün kənardan gələn məkulatla dolanır. Hangi gün ərzaq gəlmədi, o gün əhali sıxıntı çəkir.

Deməli, ərzaq şeylərinin qiyməti miqdarına, miqdarı isə həmliyyat [yükdaşıma] ilə ən sıxı rabitədədir. Buna görədir ki, həmişə şəhərdə öylə şərait hasil etməlidir ki, kənardan mal gətirən çox olsun.

Bu isə iki şeylə olar:

1- Sərbəst ticarət, 2- Şəhərdə asayiş hökmfərmalığı [hökm sürməsi] ilə.

Birinci şərt xüsusunda bir söz deyiləmməz. Zira, Azərbaycan Hökuməti ilk əmrləri sırasında bu xüsusa da əhəmiyyət verərək “sərbəst ticarət” elan etmişdir. Bu surətlə, birinci şərt mövcuddur. Fəqət, həyatibəşərdə, ümumiyyətlə, şəraiti-məhəlliyə altında [yerli şəraitdə], xüsusən ikinci şərt o qədər mühüm və birincisi ilə o qədər mərbutdur [bağlıdır] ki, ikinci şərt mövcud olmadıqca, yəni əmin-amanlıq, asayiş olmadıqca, heç bir sərbəstlik dərdə çarə qılmaz.

Alış-verişçini mal gətirməyə rəğbətləndirmək üçün yalnız sərbəst ticarət elanı kifayət etməz. Onun malı və canı dəxi əmniyyətdə olmalıdır.

Vicdan və əqli-səlim [sağlam məntiq] sahibi olan hər şəxs təsdiq edər ki, Azərbaycan Hökuməti iş başına keçər-keçməz bu xüsusa böyük əhəmiyyət verərək, məzkur [deyilən] iki şərtin ikisinin də hüsuluna [meydana gəlməsinə] var qüvvəsiylə çalışmış və öylə gözəl nəticələr əldə etmiş ki, bütün Azərbaycan, xüsusən Bakı şəhəri neçə əsrlərdən bəri görmədiyi asayiş və rahata nail olmuşdur. Hətta Nikolay hökumətinin jandarmaları vücudu ilə belə peşəsindən əl çəkməmiş olan oğrular, yol kəsənlər bu neçə aydan bəri yox olub, hamı sakit və rahat yaşamağa başlamışdır. İki aydan bəri Bakıda və neçə aydır sair yerlərdə bir güllə səsi eşidilməmiş, bir şəxs digərinə təcavüz etməmişdir. Ona görədir ki, hamının əli-qolu açılaraq özünü əmin-amanlıqda hiss edən əhali, öz kəsbi [işi] ilə məşğul olurdu.

Şimdi, axır günlər Müttəfiqlər tərəfindən general-mayor Tomson əsgəri qüvvə ilə Bakıya gələrək rahat və asayişi təmin üçün gəldiklərini bəyan etmişlərdir. Burası daha artıq ümid verir ki, Müttəfiqlərin köməyi və hökuməti-məhəlliyyənin [yerli hökumətin] səy və hümməti ilə işlər yaxşı gedəcək və asayiş möhkəmləşəcəkdir. Fəqət, etiraf etməlidir ki, camaatın əhvali-ruhiyyəsinə hər bir cüzi şey çox tez təsir edir. Məsələn, aylardan bəri bir güllə səsi eşitməmiş, bir adama zülm edildiyini görməmiş camaat birdən-birə hər gün küçələrdə güllə atıldığını, neçə-neçə adama havayı güllə dəydiyini, birisinin şüşəsi sındırılıb, digərinə min dürlü ağır söz deyildiyini eşitdikdə, küçədə adam döyüldüyünü gördükdə, yəqin min fikrə düşür. Bilxassə [xüsusilə] ki, yeddi aylıq cəhənnəm həyatının təsiri hələ getməmişdir. Doğrudur, bu fəna hərəkətlərə ancaq keflilər mürtəkib olurlar [qol qoyurlar]. Doğrudur, əqli-səlim sahibi olan hər kəs böylələrini təkdir [məzəmmət] edir. Lakin, xalq əhval-ruhiyyəsinə böylə əmrlər [işlər] pək böyük təsirlər bağışlayırlar. Bilxassə ki, böylə hərəkətlər fitnə və fəsad tərəfdarlarını, qara fikir və əski ümidlə yaşayan xuliqanları ruhlandırır, onlara meydan açır. Bu vəchlə bir neçə sərxoşun hərəkətiylə şəhərdə asayiş pozulmuş olur və bunun məntiqi nəticəsi olaraq xalq arasında əsəbiyyət, təşviş doğurur. Heç kəs asayiş və əmin-amanlıq deyilən sözlərə inanmır. Asayiş yox ikən əmin-amanlıq nə ilə olar, deyə əli soyuyur. Buna görədir ki, son günlər şəhərə mal az gətirilir. Ola bilər ki, rus məsəlincə, milçəkdən fil doğuranların yapdıqları şayiə sayəsində bilmərrə şəhərə mal gətirilməz də, kim bilir, Bakının son günləri haqqında ətrafa nə kimi şayiələr yayılmışdır? Əlbəttə, böylə olan surətdə məkulat gündən-günə azalar və bahalanar.

Bundan dolayıdır ki, general-qubernator və Hökumət bu xüsusa ən ciddi surətdə diqqət verərək, şəhərdə asayiş bərpası və əmin-amanlıq hüsulu içün tədbirlər görməldirlər. Vəilla [yoxsa], əhali aclıq bəlasına məruz qalar.

*Xəlil İbrahim*

## BAKI XƏBƏRLƏRİ

- Hal-hazırda müsəlmanlarla ermənilər arasını sazlaşdırmaq barəsində müzakirat [danışıqlar] getməkdədir. İşbu iqdamata [təşəbbüsə] rus ənasiri [ünsürləri] girişmişdir. Bundan naşi [ötrü] bir neçə müşavirələr olmuşdur. Nəticəsi ən yaxın zamanda məlum olacaqdır. Müttəfiq milli hökumət təşkil ediləcəkdir.

- Muğan xristianlarının nümayəndələri Bakıya varid olmuşdur [gəlmişdir]. İşbu xristianlar vaxtilə oradakı anarşidən fərar etmişdilər. Nümayəndələr xristianların yenidən Muğana köçmək məsələsini məlum etmək istəyirlər.

- Sənaət və Ticarət Nəzarəti [Sənaye və Ticarət Nazirliyi] vaxtilə nefti Gürcüstanla buğda vaxtında mübadilə etmək barəsində xüsusi əmr sadir etmişdi [vermişdi]. Şimdi neftdən əlavə benzini də buğda vaxtında mübadilə etmək barəsində əmr vermişdir.

- Bakı realnı məktəbində tədrisat başlanmışdır. Dərslər səhər saat 9-da başlanır.

- Ərzaq şöbəsi Ziraət Nəzarətinə müraciətən Türüq və Məabir Nəzarəti [Nəqliyyat və Rabitə Nazirliyi] ilə etilafa [razılığa] gələrək hər gün Yalama mövqifinə [stansiyasına] şəhər üçün odun gətirmək üçün 30 vaqon verilməsini rica etmişdir. İşbu vaqonlar marşrut təriqi [yolu] ilə ucuz qiymətə gətiriləcəkdir. Əlavə bu barədə Yalama mövqif müdirlərinə də məlumat verilməlidir.

- Bakı Bələdiyyə İdarəsi cənbindəki ərzaq şöbəsi müttəfiq ordu ərkani-hərbinə müraciət edərək 15 min put borc düyü istəmişdir. Bir də rica etmişdir ki, Lənkəran qəzasından hər gün 12 min put əkmək və ələfiyyat [yem] gətirmək üçün vəsaiti-nəqliyyə [nəqliyyat vəsaiti] verilsin.

- Bakıdakı Bəhriyyə [dənizçilik] məktəbinin müəllimləri şurası qət etmişdir ki, məktəbin fəxri müdirliyinə Hacı Zeynalabdin Tağıyev cənablarını intixab etsin [seçsin]. Müəllimlər şurası Türüq və Məabir Nəzarəti indində [nəzdində] muşarileyhin [adı keçən şəxsin] təsdiq edilməsi barəsində iqdamatda bulunacaqdır.

- Azərbaycan Dəmiryolları İdarəsi bütün mövqif [stansiya] müdirlərinə birər əmr göndərərək, Bakıya gətiriləcək ərzaq və mühümmatı [ləvazimatı] göndərmək barəsində lazımi binagüzarlıqda bulunmalarını [sərəncamları verməlerini] tövsiyə etmişdir. Azərbaycan Dəmiryolları müdüri bütün mövqif müdirlərinə əmr göndərərək Bakıya gətiriləcək ərzaq üçün qapalı vaqonlar verilməsini tövsiyə etmişdir.

**Atışma**

Təşrini-saninin [noyabrın] 21-ində, saat 11 radələrində dəmiryolu mövqifi [stansiyası] tərəfində atışma olmuşdur. Atışma, kazaklar tərəfindən, dəmiryollar mühafizəsi müdiri üç nəfər sərxoş kazakı tövqif etdikdən naşi [həbs etdiyinə görə] başlanmışdır. Mövqifdən kazaklar 8-inci dairə polis idarəsinə gəlib pristavın (müfəttiş) kabinəsini dağıtmışlar. Atışmada iştirak edən milisiya nəfəratı [nəfərləri] oradan çəkilmək məcburiyyətində qalmışlar. Mövqif dairəsindəki bütün dükanlar bağlandığından naşi, əhali miyanında [arasında] növbənöv şayiat [şayiələr] dəvəran etməyə [gəzməyə] başlamışdır. İki dənə ingilis zirehli avtomobili məhəlli-hadisəyə [hadisə yerinə] gələrək, yarım saatdan sonra atışmayı saxlamağa müvəffəq olmuşdur. Saat 12-də bütün mağazalar yenidən açılmışdır. Atışma nəticəsi olaraq Mixaylovski xəstəxanaya 14 nəfər məcruh [yaralı] gətirilmişdir. Bunlardan 4 nəfərinə müavinət [yardım] göstərildikdən sonra evlərinə getmiş, 10 nəfəri isə xəstəxanada qalmışlar. Xəstəxanada qalanlardan 8 kişi, 2 nəfər qadındır.

## DEMOKRAT FİRQƏLƏRİNİN ŞURASI

Caharşənbə [çərşənbə] günü, təşrini-saninin [noyabrın] 20-sində axşam saat 5-də Bakıda olan menşevik, sosial-revolussioner, demokrat, həmkarlar ittifaq[lar]ı və Mərkəzi Ev Komitəsi nümayəndələrinin iştirakı ilə “Metropol” mehmanxanasında bir şura vaqe olmuşdur. Şuraya 80 nəfərə qədər adam gəlmişdir. Yevanqulov şuraya sədr seçilmişdir. “Ufa Hökuməti və Bakı” məsələsi müzakirəyə qoyulmuşdur. Bu şuranın vaqe olmasna Ufa Hökuməti nümayəndəsi professor Qolovinin Bakıya gəlməsi bais olmuşdur. Yevanqulov iclası açdıqdan sonra, Ufa Hökumətinin əmrini oxuyub, Bakı qəzetələrində Ufa Hökuməti haqqında yazılan məlumatları xəbər vermişdir.

Sonra, Kaspi Hökumətinin nümayəndəsi Merxelev müfəssəl [ətraflı] məruzədə bulunmuşdur. Merxelev Petrovskda xüsusi rus hökumətinin təşkilindən bəhs edib demişdir ki, əvvəla, Petrovskda Biçeraxov başda olmaq üzrə, rus müsəlləh [silahlı] qüvvəsi var idi. Saniyən [ikincisi] Dağıstan və Çeçen hökumətləri və Rusiyadan büsbütün ayrılmış Türküstan, Petrovsk[a] yapışmaq istəyirdilər. Qafqaz-Kaspi Hökuməti təşrini-əvvəldə [oktyabrda] Petrovskda vaqe olan xüsusi ictimada [yığıncaqda] sosial-revo-lussionerlər ilə bitərəflərdən təşkil edilmişdi. Menşeviklər də hökumət heyətinə daxil olmadılar, ancaq Sadovski Hökumət kontrolu vəzifəsini ifa etməyə razı oldu. Sonra, Merxelev Petrovsk şəhərinin, hücum etməkdə olan türklərdən müdafiəsi haqqında danışıb, demişdir ki, otuz minə yaxın ordu gözəl sürətdə mübarizə edib, Dərbənddən geri çəkildiyi zaman 25 faizi itmişdir.

İngiltərə və Fransa heyəti Petrovska varid olub, Türkiyə ilə mütarikə [atəşkəs] əqd edildiyini [imzalandığını] xəbər verdikdən sonra, hücum etməkdə olan Türkiyə Ordusuna hərəkati-düşmənanənin [düşməncə hərəkətlərin] dayandırılmasını təklif etmişdir. Lakin, türklər bundan imtina etmişlərdir. İngiltərə və Fransa heyəti, xüsusi vəkalətə malik olmadığından, Türkiyə Komandanlığı ilə müzakirəyə girməyib, artıq qan tökülməsin deyə, Petrovsku təslim etməyi məsləhət görmüşlərdir. Hökumət də buna əməl etmişdir. Petrovsk təxliyəsi rahatlıqla başa gətirilmiş və Türkiyə əsgərləri də buna mümaniət [maneçilik] göstərməmişlərdir. Bütün əşya, Bakı qaçqınları və 700 nəfərə qədər Petrovsk sakinləri gəmilərə yüklənmişlərdir. Rus əsgəri dəstələri, şəhərin bir hissəsi türklər əlinə keçdikdən sonra gəmilərdə yerləşmişlər. Bu hində [əsnada] atəş olmamışdır. Merxelev zənn edir ki, qətl-qarət dəxi olmamışdır. Sonra, Hökumət bütün donanması ilə Lənkərana varid olub, İngiltərə komandanlığı ilə münasibat başlamaqla Bakıya gəlmişdir.

Şurada verilən suallara Merxelev cavab vermişdir ki, Kaspi Hökuməti ancaq Ufa Hökumətini təsdiqlə ona tabe olacaqdır. Kaspi Hökuməti Ufa Hökuməti tərəfindən etiraf edilmədiyi [tanınmadığı] zaman dərhal öz vəkalətini üzərindən atacaqdır. Hökumət Dövlət Bankını açıb maliyyə işlərinə mübəşşir olacaqdır [başlayacaqdır]. Kadet nümayəndələri nə qədər pul gətirilməsini sual etdikdə, Merxelev bir neçə milyon pul gətirilməsini söyləmişdir.

Sonra, professor Qolovinin şuraya dəvət edilməsi söhbəti olmuşdur. Sadovski demişdir ki, professor Qolovini “Yupiter” şxunasında [yelkənli gəmisində] Quryevdən gətirmişdir. Professor Qolovin Ufa Hökuməti tərəfindən sifarişlə Kuban Hökuməti nəzdinə gedirmiş. Lakin, Kubana gedib çıxa bilmədiyindən, onun doğrudan da Ufa Hökuməti tərəfindən rəsmi nümayəndə ədd [hesab] edilməsi şübhəlidir.

Bir azdan sonra Qolovin Şuraya gəlib, artıq yorğun və naxoş olduğuna görə müfəssəl məruzə verə bilməyəcəyini bəyanla, bir özgə vaxta təyin edilməsini xahiş etmişdir. Ufa Hökumətinin əmri professora göstərildikdə demişdir ki, bu, əmr olmayıb, ancaq bəyannamədən ibarətdir. Sonra Qolovin demişdir ki, Rusiyada vücuda gəlmiş cürbəcür hökumətlərlə münasibata başlayıb, bu hökumətlərin fəaliyyətini Ufa Hökumətinə xəbər vermək və sonra Ümumrusiya Məclisi-Müəssisanı [Təsisçilər Məclisi] çağırılması işlərinə müavinət [kömək] etməkdən ötrü Ufa Hökuməti xüsusi vəkillərdən ibarət bir komissiya təşkil etmişdir. Bu vəkillərdən biri də Qolovin özüdür.

Qolovinin bu bəyanatından sonra müzakirat başlanmışdır. Şurada olanların bir hissəsi təkid etmişlərdir ki, professor Qolovindən Ufa Hökumətinin vəkalətnaməsi tələb edilsin. Professor öz vəkalətnaməsini təqdim etməyənə qədər, Ufa Hökumətinin rəsmi nümayəndəsi hesab olunmasın. Şurada olanların çox hissəsi professor Qolovinlə dübarədən [yenidən] əsaslı bir surətdə müsahibədə bulunulmasını və bu müsahibə nəticəsinin gələcək iclasda elan edilməsini qərara almışdır.

Professor Qolovinlə müsahibədə bulunub və gələcək iclası dəvət etmək üçün Zinovyev, Zelenkeviç, Roqov və qeyriləri intixab edilmişlərdir [seçilmişdir].

### ELAN

Srağagün təşrini-saninin [noyabrın] 21-ində, səhər saat 10-da, vağzal yanında vaqe olmuş atışma əsnasında, 1484 nömrəli bir araba qalmışdır. Arabada 6 yük ağ zəy, 2 yük qara xaşxaş və bir ədəd böyük tərəzi dəxi vardır. Arabadan və mallardan xəbəri olub da dərya kənarında “Çuxur” karvansarada İbrahim Güllərova telefon 18-83 və yaxud 7, 8 və 3-üncü polis idarəsində “İbrahimovdan ötrü” ittila [xəbər] verənlərə mükafat veriləcəkdir.

### ELAN

Srağagün təşrini-saninin [noyabrın] 21-ində vağzal yanında vaqe olmuş atışma əsnasında, vağzal həyətində “Romanov” fabrikası nişanlı 35 nömrəli təzə fayton, iki rə’s [baş] atlarla bərabər qalmışdır. Atların biri sarı kəhər, o birisi boz rəngli axta. Bunlardan xəbəri olub da Şahski caddədə, 10 nömrəli evdə, telefon nömrə 39-29, Hacı Hacıağa Rəhimova ittila [xəbər] verənlərə mükafat veriləcəkdir.

### Lazımdır

Türkcə və rusca bilən hesabdar (buxqalter). Ünvan: Bazarnı caddədə Qubernskinin küncündə Heydər Möhsünovun mağazası.

### Həkim S. L. Şklovskaya

Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Marskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.

Burada leyli [gecə] yatacaqlarıyla qadın cərrahiyyə xəstaxanası mövcuddur.

209

### Berlin Darülfünununun həkimi L. Melkumyans

Əmrazi-tənasüliyyə [cinsi xəstəliklər] və dəri naxoşlarını qəbul edir. Qan damarlarına “606” və “916” dəvalarını istemal [tətbiq] edir. Hər gün saat 2-4-ə kimi.

Ünvan Birjevoy caddədə Malakan bağçası qarşısında həkim Temirxanyanın müalicəxanasında. Telefon nömrələri 29-85 və 32-77.

255

### Həkim Arşak Ayrapetoviç Akopyans

Əsəbi və daxiliyyə naxoşluğuna mübtəla olanları axşam saat 3-dən 6-ya kimi qəbul etməyə başlamışdır.

Ünvan: Balaxanski caddədə nömrə 10, İstanislavski caddənin küncündən 3-üncü ev. Telefon 55-26.

Saat 3-ə kimi 32-77 nömrəli telefon ilə danışmaq mümkündür. (16-ncı xəstəxana).

256

### O. A. Salmanın Diş kabinəsi və süni diş müalicəxanası

Dişlərə və ağza müalicə edir, ağrısız çıxarır, doldurur, qızıl və kauçuk üzərində süni dişlər qayırır və qızıldan qapaqlar qayırır.

Qəbul edir hər gün saat 9-dan 2-yə kimi, 4-dən 7-yə kimi. Naberejni caddədə Dombrovski pereulokda [döngədə] Mehdiyevin 7 nömrəli evində. Telefon nömrə 30-02.

253

### Doktor Krinski

Sifilis, əmrazi-tənasüliyyə [zöhrəvi xəstəliklər] və cild mərəzinə mübtəla olanları qəbul etməyə başlamışdır. Səhər saat 9-dan 12-yə kimi; axşam saat 4-dən 7-yə kimi. Ünvan: Tarqovı caddədə Tağıyev qardaşlarının 10 nömrəli evində. Telefon 15-59.

263

### Arvad diş həkimi Moiseyeva-Levin

Olqinski caddədə ev nömrə 5, 3-üncü mərtəbə, sağda. Telefon nömrə 06-23.

Dişlərə müalicə edir, çıxarır. Kauçuk və qızıl üzərində sabiq Berlin şəhər müalicəxanasının müdiri nəzarəti altında süni dişlər qayırılır. Qəbul edir: səhər saat 9-dan 1-ə kimi; axşam saat 5-dən 8-ə kimi.

216

### Doktor Kamilə xanım İsmayılov

Uşaq və əmrazı-daxiliyyəsi [daxili xəstəlikləri] olan naxoşları hər gün sabah saat 10-dan 2-yədək və axşam 4-7 qəbul edir.

Adres: Armyanski 16. Telefon 56-89.

235

### Doktor F. S. Şteyn

Naxoşları qəbul edir səhər saat 9-dan 12-yədək, axşam saat 5-dən 7-yədək.

Mariinski və Tarqovı caddələrin küncündə Əşrəfovun evi, “Jorj” əksxanası. Telefon nömrə 54-44.

232

### Doktor Əliheydər Allahverdiyev

Daxili naxoşları qəbul edir səhər saat 8-dən 10-a kimi, axşam saat 4-dən 6-ya kimi. İçəri şəhərdə bağın qarşısında Minaretski küçə, ev nömrə 1. Telefon nömrə 36-91. Б. Минаретская ул., д. N 1. Телеф. 36-91.

236

### Doktor Rza bəy Sultanov Paris Darülfünunundan

Qəbul edir daxiliyyə və əsəbi xəstələri hər gün saat 9-1-ədək, saat 4-7-yədək. Telefon 5-30. Adres: Parapet, Kolyubakinski küçədə nömrə 39. “Azərbaycan” qəzetə idarəsinin yanında.

237

### Mama-feldşer M. K. Markoviç

Hamilə və azad olmuş qadınları qəbul edir. Bədənə dərman vurur və masaj edir. Hər gün saat 10-dan 12-yə kimi. Nijni Kladbişinski caddədə ev nömrə 89. Telefon 34-36. Burada həkim daxiliyyə və əmrazı-tənasüliyyə [cinsi xəstəliklər], qadın və cərrahiyyə naxoşları saat 3-dən 5-ə kimi qəbul edir.

240

### Doktor Ağahüseyn Kazımov

Əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olanları qəbul edir hər gün saat 5-dən 7-yə kimi. Parapet, Şəbi İbrahimovun evində, 3-cü mərtəbə. Telefon 27-86.

244

### Diş təbibəsi Altmanın diş müalicəxanası

Naxoşları qəbul edir saat 8-dən 1-ə kimi, 4-dən 7-yə kimi, qadınları 1-dən 3-ə kimi. Dişlərə müalicə edir, doldurur, ağrısız çıxarır və qızıl və kauçuk üzərində süni dişlər qayırır. Hərbilərə, məktəblilərə və çocuqlara külli faiz edilir.

Ünvan: Şamaxinski caddədə ev nömrə 20. Aptek qarşısında. Telefon 18-73.

245

**Müdirlər:**
**Ceyhun bəy Hacıbəyli**
**Şəfi bəy Rüstəmbəyli**

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Bakı şəhəri üçün icbari qərardad***

Bu qərardadın hərflərlə göstərilən maddələri qəzetdə ərəb əlifbasına uyğun olaraq (əlif, bə, tə və s. kimi) sıralanmışdır. Bəzi maddələr səhv nömrələndirilmiş, bəzilərinin isə nömrələri göstərilməmişdir. Bütün bu qüsurlar tərəfimizdən düzəldilərkən təshihləri tək-tək göstərməyə lüzum görülmədi.

“...Düvəli-müttəfiqə tərəfindən daha sonra təyin ediləcək...”: “daha sonra” yerinə qəzetdə “sonunda” getmişdir.

“Olduqca ciddi cinayətlər mənim tərəfimdən şiddətli cəzaların bila-təxir icrasına [dərhal icra edilməsinə]...”: “bilatəxir icrasına [dərhal icra edilməsinə]” yerinə qəzetdə səhvən “təxiri-icrasına” [icrasının təxirə salınmasına] getmişdir.

***İcbari qərardad***

Bu qərardadın hərflərlə göstərilən maddələri qəzetdə ərəb əlifbasına uyğun olaraq (əlif, bə, tə və s. kimi) sıralanmışdır.

***Bakı, 24 təşrini-sani***

“Abrek”: Qafqaz xalqları arasında, qanudan və hökumətdən qaçaraq dağlara sığınan şəxs; qaçaq.

“C. D.”: Bu imza Ceyhun bəy Hacıbəyliyə məxsusdur.

***Teleqraf xəbərləri***

“Lüksemburq Palatası”: Burada söhbət Lüksemburqun birpalatalı qanunvericilik orqanı olan Deputatlar Palatasından gedir.

“Peştədən (Venqriya) cümhuriyyətin elan edildiyini xəbər verirlər.”: Burada söhbət 16 noyabr 1918-ci ildə elan edilən və 21 mart 1921-ci ilə qədər öz mövcudiyyətini davam etdirən Macarıstan Demokratik Respublikasından (Birinci Macar Respublikasından) gedir.

***İngiltərənin etirazı***

“…Avamlar Kamerasında…”: Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası nəzərdə tutulur.

***Avstriya-Macarısta ilə mütarikə şəraiti***

“Alman dəryası”: Şimal dənizi nəzərdə tutulur.

“Monitor”: əsasən sahil boylarında və çaylarda istifadə etmək üçün nəzərdə tutulan, güclü artilleriya ilə təchiz edilmiş zirehli gəmi növü.

***O. A. Salmanın…***

Bu elan qəzetdə yarımçıq çıxmışdır.

## Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

# Aksiya iştirakçıları haqlı tələblərində israrlıdırlar

### Onlar dinc erməni əhalisinə humanitar yardımlar göstərilməsinə heç bir maneə törətmirlər

Artıq üçüncü aydır ki, Azərbaycanın qeyri-hökumət təşkilatları nümayəndələrinin, ictimai fəalların, mətbuat nümayəndələrinin Qarabağda Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazidə keçirilən etiraz aksiyası davam edir.

Kiçik çillənin şaxtalı günlərində başıqarlı Kirs dağının ətəklərindən keçən Laçın-Xankəndi yolunun yaxınlığında dayanan aksiya iştirakçıları tələblərini yüksək əhvali-ruhiyyə ilə davam etdirirlər. İştirakçılar Qarabağdakı faydalı qazıntı, xüsusilə "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarının qanunsuz istismarına etirazlarını bildirirlər.

Aksiya iştirakçıları onu da bildirirlər ki, bir neçə ay bundan öncə Qarabağda peyda olmuş rusiyalı biznesmen, özünü separatçı rejimin baş naziri elan edən Ruben Vardanyan pozucu fəaliyyətlə məşğuldur. Bir müddət əvvəl gizli yollarla Moskvaya qaçan Ruben Vardanyan yenidən Xankəndidə peyda olub. Yeni "proqram"la işə başlayan Vardanyan yerli erməniləri azərbaycanlılarla dinc-yanaşı, sülh şəraitində yaşamağa istiqamətləndirmək əvəzinə, sərhəd bölgələrində günaşırı təxribatlar törədir. Dinc erməniləri müharibəyə, münaqişəyə sürükləməyə çalışır. Aksiya iştirakçıları isə buna qarşı çıxır və birmənalı olaraq erməni silahlılarının qalıqlarının Qarabağdan çıxarılmasını tələb edirlər.

Qeyri-hökumət təşkilatlarının təmsilçiləri, tanınmış ictimai fəallar və mətbuat nümayəndələri ictimaiyyətə bildirmişlər ki, aksiya iştirakçıları tərəfindən dinc erməni əhalisinə humanitar yardımlar göstərilməsinə, mülki insanların Laçın yolu ilə hərəkətinə, təcili yardım maşınında və digər xeyirxah məqsədlərlə yol gedib-gələn ermənilərə heç bir maneə yoxdur. Tələb Qarabağda qeyri-qanuni istismar edilən təbii sərvətlərimizin talan edilməsinin qarşısını almaqdır. Aksiya iştirakçılarının təhlükəsizliyini əraziyə cəlb edilmiş Azərbaycan Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının (DQ) hərbçiləri və polislər yüksək səviyyədə təmin edirlər.

Artıq bütün dünyaya məlumdur ki, Azərbaycan torpaqlarını işğal altında saxladığı 30 il ərzində Ermənistan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yeraltı-yerüstü sərvətlərini barbarcasına talayıb, xarici şirkətləri qanunsuz şəkildə bölgəyə cəlb edib. Bu şirkətlər həm Ermənistana, həm də digər xarici ölkələrə məxsusdur. Xatırladaq ki, Azərbaycan Baş Prokurorluğunun hələ 2018-ci ildə apardığı araşdırmalara görə, Ermənistanda və digər ölkələrdə hüquqi qeydiyyatdan keçən "Vallex Group", "Base Metals", ACP, Lerna Metalurgiayi İnstitute, "Teghout" və digər şirkətlər, o cümlədən Ermənistandan olan fiziki şəxslər qızıl hasilatı biznesinin təşkilində iştirak ediblər.




Erməni jurnalist Vaqram Ağacanyanın araşdırmasına görə, işğal dövründə Ermənistanın 30-dan çox şirkəti Qarabağdakı qızıl və digər qiymətli metalların istismarını həyata keçirib. Belə şirkətlərdən biri FDM-dir. 2001-ci ildə fəaliyyətə başlayan şirkət Azərbaycanın 16 tondan çox qızılını talayıb. Təkcə 2008-ci ildə talanan qızılın həcmi 4 ton olub.

Bir neçə gün öncə Azərbaycanın Rus İcmasının 30 nəfərdən çox nümayəndə heyəti azərbaycanlı ekoloqların haqlı tələblərini bütün dünyaya çatdırmaq üçün Laçın-Xankəndi yolunda olub. Kimin haqlı, kimin haqsız olduğunu öz gözləri ilə görən Azərbaycanın Rus İcmasının nümayəndəsi, 79 yaşlı Jvanenko İvan Maksimovic mətbuata açıqlamasında deyib:

- Biz Laçın-Xankəndi yolunda ekoloji terrora etiraz edirik. Qarabağ bölgəsini yaxşı tanıyıram. Burada ezamiyyətlərdə çox olmuşam. Lacın-Xankəndi yolundan da çox keçmişəm. Ermənilərin etdikləri düzgün deyil. Prezident İlham Əliyev dəfələrlə yerli ermənilərə müraciət edərək onların bu ərazilərdə Azərbaycan vətəndaşı kimi yaşaya, bütün sosial və digər təminatlardan faydalana biləcəklərini bəyan edib. Onlar bu gözəl imkandan faydalanmalıdırlar.

R.Vardanyan kimiləri təxribat yaradır, yerli ermənilərə düzgün istiqamət vermirlər. Biz televiziya və radio vasitəsilə yerli ermənilərə vəziyyəti izah edərək bir daha xatırlatmalıyıq ki, Azərbaycan vətəndaşı kimi daha rahat yaşayacaqlar".

Hər gün dünya ictimaiyyətinə çağırış edən ekofəallara bir sıra dövlət qurumlarından da dəstək gəlib.

Gürcü politoloqu Azərbaycanın probleminin Gürcüstan üçün də önəm daşıdığını deyərək, ermənilərin gülünc ərazi iddialarına təəssüflənib. "Mən Gürcüstan vətəndaşı olaraq, Azərbaycan ərazilərində olan vəziyyətdən çox narahatam. Bu gün Xankəndi-Laçın yolunda ekoloji fəalların keçirdiyi aksiya haqlıdır. Bu ərazilər Azərbaycanındır və buradakı təbii sərvətləri ermənilər və onların digər dövlətlərdə bizneslə məşğul olan şərikləri mənimsəyə bilməzlər. Nə ermənilər, nə də ki, rusiyalı oliqarxlar. Mən aksiyanı dəstəkləyirəm və tələbləri yerinə yetirilənə kimi davam etməsinin tərəfdarıyam".

İsveçrənin Davos şəhərindən də azərbaycanlı ekoloqlara dəstək nümayiş etdirilib. Küçəboyu nümayişçilər "Azərbaycanın təbii sərvətlərinin qeyri-qanuni istismarını dayandırın!", "Azərbaycan ərazilərində ekoloji terrorun törədilməsinə son qoyulsun!" kimi şüarlar səsləndiriblər.

Görünən odur ki, istər ölkəmizdə, istərsə də xarici dövlətlərdə Azərbaycan xalqının haqlı tələblərinin carçısına çevrilən aksiya iştirakçılarının mövqeyini dəstəkləyənlərin sayı gündən-günə artmaqdadır. Havaların qarlı-şaxtalı keçməsinə baxmayaraq, aksiya iştirakçılarının əhvali-ruhiyyəsi çox yüksəkdir. Onlar əllərində tutduqları "Volkov, cavab ver!", "Sülhməramlılar, ədalətli olun!", "Sərvətlərimiz bizimdir!", "Ekoloji terrora son qoyulmalıdır!" kimi şüarlarla tələbləri yerinə yetirilməyənədək bu aksiyanı davam etdirəcəklərində israrlıdırlar.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***



# Laçın-Xankəndi yolunda azərbaycanlı ekofəalların aksiyası 67 gündür davam edir

Azərbaycanlı ekofəalların Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda dinc etiraz aksiyası 67 gündür davam edir.

AZƏRTAC xəbər verir ki, havanın şaxtalı olmasına baxmayaraq, aksiya iştirakçılarının fəallığı müşahidə olunur. Ekofəallar hər gün olduğu kimi, bu səhər də Dövlət himnini səsləndiriblər.

Aksiya iştirakçıları Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılması ilə bağlı Azərbaycan, rus və ingilis dillərində mütəmadi olaraq plakatlar qaldırır, "Azərbaycan milləti qoruyacaq sərvəti!", "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Azərbaycan vahiddir, sərvətinə sahibdir!", "Ekocinayətə son!" kimi şüarlar səsləndirirlər.



Ekoaksiyanın keçirildiyi ərazi humanitar məqsədlərlə istifadə olunan avtomobillərin keçidi üçün tam açıqdır. Xatırladaq ki, ötən il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq Azərbaycanın İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb. Buna etiraz olaraq, azərbaycanlı ekofəallar Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda dekabrın 12-dən dinc aksiyaya başlayıblar.

## Azərbaycan rəsmi Tehrandan törətdiyi terrora görə cavab gözləyir

# Terrorçu rejimin isterikası

### Sırf etnik mənsubiyyətlərinə görə cənubi azərbaycanlı soydaşlarımız hədəfə çevriliblər



İranda 6 aydır ki, molla-fars rejiminə qarşı mübarizə davam edir. İslam adı altında dinsiz əməllər törədən mollalar öz tapdanan hüquq və azadlıqları uğrunda ayağa qalxan insanların gözünü terrorla, ölüm hökmü ilə qorxutmağa çalışırlar...

Bir sözlə, gözünü qan bürümüş dinsiz əmmaməlilər günahsız insanların qanını su yerinə axıdırlar.

O da diqqətçəkən faktdır ki, fars rejimi hər zaman olduğu kimi, hazırkı qarışıq vəziyyətdə də daha çox cənubi azərbaycanlı soydaşlarımızı hədəfə alıb. Hazırda İranda ən çox izlənənlər, təqiblərə məruz qalanlar, döyülənlər, güllələnənlər, edam olunanlar arasında cənubi azərbaycanlı soydaşlarımız üstünlük təşkil edir.

Dinsiz mollaların azərbaycanlı soydaşlarımıza qarşı mənfur əməllərini bu yaxınlarda İranda baş verən zəlzələnin fonunda da bir daha aydın gördük.

Qansız rejim Xoyda zəlzələ nəticəsində xəsarət alan, ev-eşiyi dağılaraq gecə-gündüz çöldə ac-susuz qalmağa məcbur qalan soydaşlarımıza heç bir kömək göstərməməklə yanaşı, Azərbaycanın yardım təkliflərini də qəbul etməyərək, mənfurluğunu bir daha nümayiş etdirdi. Rejim həmin azərbaycanlılara sırf etnik mənsubiyyətinə görə yardım etməyərək insanlıqdan uzaq davranış sərgilədi.

### Azərbaycana qarşı düşmənçilik

Saxta "islam" respublikasında soydaşlarımıza qarşı törədilən bu xəbis əməllərin arxasında isə, heç şübhəsiz fars rejiminin Azərbaycana qarşı duyduğu düşmənçilik hissi yatır. Azərbaycan Vətən müharibəsində qələbə qazandıqdan sonra, sözün əsl mənasında, riyakar İranın kürkünə birə düşüb. Çünki fars rejimi görür ki, tarixi zəfərimiz həm də Cənubi Azərbaycandakı soydaşlarımızın iki yüz ildir tapdanan hüquq və azadlıqları uğrunda mübarizəyə qalxmaları üçün bir təkan, onlarda böyük ruh yüksəkliyi yaradan qələbədir.

Onsuz da tarix boyu İran rejimi Azərbaycana qarşı kin və nifrət göstərib və məhz türkofob, islamofob siyasətinə görə erməni ilə "qardaş"laşıb. Buna görədir ki, 30 il müddətində Azərbaycanın ərazi bütövlüyünü tanıdığını deyib, digər yandan, təcavüzkar Ermənistana hər cür dəstək göstərib.



Ötən müddət ərzində İran rəhbərləri bir dəfə də olsun Xocalı soyqırımı, işğal dövründə Azərbaycan ərazilərindəki məscidlərin, dini abidələrin yerləyeksan olunması, təhqir edilməsi, minlərlə müsəlmanın qətlə yetirilməsi barədə Ermənistana bir kəlmə də deməyib.

Əksinə, terrorçu İran rejimi erməni vandallarının vəhşi əməllərinə ortaq olub. Faktlarla göstərilib ki, molla rejimi torpaqlarımız işğalda olarkən ərazilərimizin talançılığında birbaşa iştirak edib. Ermənistan Qarabağda sökdüyü evlərdən əldə olunan tikinti materiallarını İrana satıb, həmçinin oradakı meşələrimiz qırılaraq qiymətli ağaclar İrana daşınıb.

Ermənistan Azərbaycanın işğal edilmiş Qarabağ ərazilərinə İran İslam İnqilabı Keşikçiləri Korpusunun təşkilatçılığı ilə yük maşınlarında yanacaq və silah daşıyıb.

Azərbaycanın işğal altında olan əraziləri həm narkotik plantasiyalarının yaradılması, bu maddələrin istehsalı, həm də Şərqdən Qərbə doğru gedən narkotrafik marşrutu kimi istifadə olunub. Bu yaramaz işdə İran xüsusi fəallığı ilə seçilib.

### Şəhidlərimizin qanının tökülməsində terrorçu İranın əli var

Vətən müharibəsi dövründə də terrorçu İran Azərbaycana qarşı xain davranışlar sərgiləyib, əlini şəhidlərimizin qanına bulayıb. 44 günlük müharibədən sonrakı dövrdə isə açıq düşmənçiliyə keçən riyakar İran Azərbaycana qarşı təxribatçı əməllərə, terrora əl atıb.

Ötən il Ermənistan sərhədlərini özünün "qırmızı cizgi"si elan edən "müsəlman" qonşumuz Azərbaycan sərhədində hərbi təlimlər keçirdi, Qafanda konsulluğunu açdı, Ermənistana öz istehsalı olan silahlar hədiyyə etdi.

Ölkəmizə qarşı bədnam əməllərindən daha da cuşa gələn dinsiz İran yanvarın 27-də Tehrandakı səfirliyimizdə qanlı terror aktı həyata keçirməklə həddini aşdı.

Əgər həmin hücum zamanı səfirliyimizin təhlükəsizlik xidmətinin əməkdaşı Vasif Tağıyev terrorçunu zərərsizləşdirməsəydi, səfirliyin bütün əməkdaşlarının qətlə yetirilməsi planlaşdırılmışdı.

Bütün dünyanın hiddət və qınağına səbəb olan bu terror hadisəsi ilə bağlı İran tərəfi dərhal məsuliyyəti üzərindən atmaq üçün məsələnin mahiyyətini təhrif etməyə, problemi məişət hadisəsi kimi göstərməyə, bununla da İran xüsusi xidmət orqanları ilə bağlılığı olan terrorçunun hədəfdən yayındırılmasına, yerli və beynəlxalq ictimaiyyətdə yanlış rəy formalaşdırılmasına çalışdı.

Lakin bütün bu faktlar sübut edir ki, Tehranda səfirliyimizə qarşı həyata keçirilən bu qanlı hadisə siyasi terrordur və sifarişçisi də İran dövlətidir. Törədilmiş bu terror aktı indiyə qədər İranda aparılmış anti-Azərbaycan təbliğatının və fəaliyyətinin qanlı nəticəsidir.

### Soydaşlarımızın haqq və hüquqlarının tapdalanmasına göz yummayacağıq

Qanlı hadisədən dərhal sonra isə fars rejimi bu terror aktını məişət səviyyəsinə endirmək və məsuliyyətdən yayınmaq cəhdləri edib. Lakin Azərbaycan tərəfi bu terror aktını hərtərəfli araşdıracaq və günahkarların məsuliyyətə cəlb olunmasına nail olacaq.

Eyni zamanda Cənubi Azərbaycanda yaşayan soydaşlarımıza qarşı xain İranın sərgilədiyi xüsusi amansızlıqlara, qəddarlıqlara, 40 milyona yaxın soydaşımızın haqq və hüquqlarının tapdalanmasına heç vaxt göz yummayacağıq.

Tarixin tələbi, ədalətin təcəllası, zamanın diktəsi ilə dağılmaq üzrə olan ermənipərəst fars-molla rejimi bunu çox gözəl anlayır və Azərbaycana qarşı isterikası da bununla bağlıdır.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# ÇƏTİN SINAQ

## Bu gün Ağdamın "Qarabağ" klubu Belçika "Gent"ini qəbul edəcək

**Bu gün diqqətlər yenə Tofiq Bəhramov adına Respublika Stadionunda olacaq. UEFA Konfrans Liqasının pley-off mərhələsinin ilk matçında Ağdamın "Qarabağ" klubu Belçika "Gent"ini qəbul edəcək. Tribunalarda anşlaq olacaq, ekranlar qarşısında milyonların qəlbi "Qarabağ"la döyünəcək.**

**UEFA Konfrans Liqası**
**Pley-off, ilk oyun**

**21:45 "Qarabağ"- "Gent"(Belçika)**
Baş hakim: Məhəmməd Al-Hakim (İsveç)
*Bakı, Tofiq Bəhramov adına Respublika Stadionu*




Matç öncəsi "Qarabağ"ın heyətində ciddi problemlərin olduğunu deyə bilərik. Hər halda qapıçı Şahruddin Məhəmmədəliyevin zədələnərək yaşıl meydandan uzun müddətli kənarda qalması, müdafiənin dayaqlarından olan Kevin Medinanın cərimələ olması ağdamlıların oyununa təsir edə bilər. Xüsusilə kolumbiyalı müdafiəçinin topu oyuna daxil etmədəki rolunu vurğulamaq olar. Hələ üstəlik, Ağdam klubunun hücum gücündə əsas fiqur sayılan Kadi Borqesin komandadan ayrılması da Qurban Qurbanovun oyun planında ciddi boşluqlar yarada bilər.

Yeni transferlər Diakabi, Benzia və Cicadan qısa müddətdə qeyri-adi nəsə gözləməyə dəyməz. Bütün bunların fonunda əlbəttə ki, qapıçı mövqeyi sual doğurur. Qurban Qurbanovun qapıya Luka Quqeşaşvili, yoxsa gənc qapıçı Amin Ramazanovu qoyacağını təxmin etmək çətindir. Amma bundan əvvəlki daha çətin qarşılaşmalarda təcrübəli mütəxəssis gənclərə inam bəsləyib. Düşünürük ki, çərçivəni də elə gənc qapıçıya həvalə edə bilər. Ancaq bu halda rəqib futbolçuların qapıya uzaqdan zərbələr endirmələrinə mane olmaq lazımdır. Daha həyəcanlı görünən Aminə bu səddi aşmaq üçün həm azarkeş dəstəyi, həm də bir-iki epizod qurtarışlar lazımdır.

"Qarabağ" 3-cü zonada pressinq tətbiq edərək belçikalıların 1-ci və 2-ci zonalardan keçidlərini bağlamalıdır. Bu halda meydançanın rəqibə adi hissəsində itirilən topun tez bir müddətdə qazanılması komandamıza əlavə üstünlüklər yaradar.

"Gent" 3-5-2 oyun planına üstünlük verir. Müdafiənin mərkəzindən hücumlara sürətli keçidləri var. Yəni 1-ci zonadan 2-ci zonaya keçid oyununu çox yaxşı icra etməyi bacarır. Rəqibin müdafiəçisi Maykl Nqado - Nqacui bu mənada daha yaxşı təsir bağışlayır. "Gent" meydançada oyunçu paylaşımı, mövqe seçimi və sığortalamasını mükəmməl həyata keçirir.

Vurğulayaq ki, müdafiənin mərkəzində daha sayıq görünən belçikalılar cinahlarda heç də uğurlu deyil. Çünki matçın müəyyən hissələrində bəzən mərkəz müdafiəçiləri hücuma qoşularkən itirilən toplardan sonra geriyə qayıtmada ciddi problem yaşayırlar. Belə ki, hücumda çoxalarkən, müdafiə olunmaqda say baxımından geri qalan "Gent"i komandamız səbirli oyunla, həyəcana yol vermədən məğlub edə bilər.

"Qarabağ"ın üstün tərəflərindən biri odur ki, bu cür müdafiə olunan komandaların müqavimətini cinahlardan yarmağa çalışır. Cinahlarda fərdi keçidləri daha yaxşı alınan oyunçu Abdullah Zubirdir. Baş məşqçi hücumun sivri ucunda Musa Qurbanova, sol cinahda Diakabiyə, sağ cinahda isə Ramil Şeydayevə şans verə bilər.

"Gent"in hücum xəttində yer alan oyunçuları sürətli, atletik keyfiyyətlərə malikdirlər. Onlardan Huqo Kuypers əla mövsüm keçirir. O, cari mövsümdə keçirdiyi oyunlarda 18 qol vurub, 4 məhsuldar ötürmə edib. Həm sol, həm sağ ayağını yaxşı işlədə bilən 26 yaşlı forvard Belçika çempionatında qapıya ən çox zərbə endirən iki hücumçudan biridir.

Onu da qeyd edək ki, əsas qol silahı Tarik Tissudalinin olmaması "Qarabağ" üçün müsbət haldır. Uzun müddətdir, zədədən əziyyət çəkən forvard ağdamlılarla görüşləri buraxacaq.

Qısa ötürmələrə üstünlük verən "Gent" standart vəziyyətlər zamanı təhlükəlidir. Öz qapısı qarşısında isə belə məqamlarda təhlükəni sovuşdurmaq üçün çətinlik çəkmir. "Qarabağ" belçikalılara qarşı üstünlük yaratmaq üçün eyni zamanda uzaqdan endirilən zərbələrdən maksimum istifadə etməlidir. Belə ki, rəqibin qapıçısı bu cür hallarda, adətən, səhvlərə yol verir.

Qışda "Gent"i 3 əsas oyunçusu tərk edib. Onların arasında İbrahim Salah və Andreas Hançe-Olsenin gedişi xüsusi qeyd olunmalıdır. Hər iki futbolçu mövsümün ilk yarısında əsas heyət üzvü olub. Yarımmüdafiəçi Elişa Ovusu da "Gent" üçün ciddi itkidir. Bununla belə, Yens Peter-Hayqe, Honq Hyun-Sok kimi yaradıcı oyunçulara malik Belçika komandası asanlıqla rəqib qapısı qarşısında təhlükə yaratmağı bacarır.

Hər bir halda ümid edirik ki, Ağdam klubu növbəti dəfə bizi cəsarətli və məhsuldar oyunu ilə sevindirəcək.

Uğurlar, "Qarabağ"!

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***




# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*

# Azərbaycanda ilk sənaye əhəmiyyətli partlayıcı maddələr istehsal edən zavodun inşasına başlanılıb

"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) törəmə şirkəti olan "AzerBlast" Məhdud Məsuliyyətli Cəmiyyəti (MMC) tərəfindən Gəncə şəhərində ölkəmizdə ilk dəfə olaraq sənaye əhəmiyyətli partlayıcı maddələr istehsal edəcək zavodun inşasına başlanılıb.

Ümumi sahəsi 5 min 665 kvadratmetr olan istehsal müəssisəsi regionların sosial-iqtisadi inkişafına dair dövlət siyasətinə uyğun olaraq Kəpəz rayonunda, 15 hektar ərazidə inşa edilməkdədir. İllik istehsal gücü 31 000 ton həcmində qiymətləndirilən zavodun inşasının cari ilin sonunadək tamamlanaraq istifadəyə verilməsi nəzərdə tutulub. Müasir istehsalat texnologiyaları əsasında qurulacaq müəssisədə, xüsusilə dağ-mədən və inşaat sənayesində istifadə olunan partlayıcı növləri H-ANFO, ANFO-nun istehsalı həyata keçiriləcəkdir. İlkin mərhələdə ölkə üzrə cari tələbata uyğun olaraq aylıq 500 ton, illik 6 000 ton partlayıcı maddənin istehsalı planlaşdırılır. Növbəti illər üzrə tələbata uyğun istehsal həcminin də artırılması, sonrakı mərhələdə isə məhsulların xarici bazarlara çıxarılması ilə ölkəmizin qeyri-neft ixracatına töhfə verilməsi hədəf olaraq müəyyənləşdirilib.

Layihənin əsas məqsədi mədənlərdə həyata keçirilən hasilat prosesi və digər sənaye sahələrində istifadə olunan mülki partlayıcı maddələrə tələbatın ödənilməsi, dağ-mədən, həmçinin tikinti müəssisələrinin fasiləsiz tədarük zəncirinin təmin edilməsi ilə idxaldan asılılığın aradan qaldırılması, eyni zamanda regionda yeni iş yerlərinin yaradılmasıdır.

Qeyd edək ki, "AzerBlast" MMC dövlət-özəl sektor tərəfdaşlığı modeli əsasında təsis edilərək, 9 mart 2021-ci il tarixində dövlət qeydiyyatına alınıb. MMC "AzerGold" QSC-nin sənaye əhəmiyyətli partlayıcı maddələrin istehsalı üzrə ixtisaslaşmış törəmə cəmiyyətidir. Şirkətin ümumi paylarının 51 faizi "AzerGold" QSC-yə, 49 faizi "DM Servis" MMC-yə məxsusdur.

***"Azərbaycan"***

# ANAMA-nın sahə əməliyyatlarına daha 24 ədəd ambulans cəlb olunur






Beynəlxalq Minatəmizləmə Standartlarına əsasən icra edilən minatəmizləmə fəaliyyəti zamanı sahə işçilərinin təhlükəsizliyini təmin etmək, zərərçəkənə ilkin tibbi yardım göstərmək və onun hadisə yerindən dərhal təxliyəsini təşkil etmək məqsədilə zəruri avadanlıqlarla təchiz olunmuş tibbi yardım nəqliyyat vasitələri, eləcə də müvafiq bilik və təcrübəyə malik həkim heyətinin sahələrdə mövcudluğu vacib amillərdən biridir.

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyindən (ANAMA) AZƏRTAC-a bildiriblər ki, agentlik maddi-texniki bazasının genişləndirilməsi məqsədilə yeni təcili tibbi yardım nəqliyyat vasitələri əldə edib.

Təcili tibbi yardım maşınları Qarabağda icra edilən minatəmizləmə əməliyyatlarına cəlb olunan ANAMA əməkdaşlarına xidmət edəcək. Agentliyə təhvil verilən 24 ədəd ambulans işğaldan azad edilmiş ərazilərdə sahə əməliyyatlarında istifadə ediləcək.

Xüsusi təyinatlı "Qazel Biznes 221717" markalı tibbi yardım nəqliyyat vasitələri ilkin yardım üçün nəzərdə tutulmuş buz çantası, buz konteyneri, tibbi xərək, onurğa zədələri üçün xərək, oksigen balonu, defibrillyator və zədə çantası kimi tibbi avadanlıqlarla təchiz edilib. Ambulansların salonlarının təchizat səviyyəsi xəsarət alanlara bütün lazımi ilkin, təcili və təxirəsalınmaz tibbi yardımın göstərilməsinə imkan verir.

Təcili tibbi yardım nəqliyyat vasitələri (4x4) yolsuzluq şəraitində rahat və təhlükəsiz hərəkət üçün nəzərdə tutulub.

Qeyd edək ki, ANAMA əməkdaşları bədbəxt hadisələr, fərdi qəza və könüllü tibbi sığorta ilə təmin edilib.

# Bəzi rayonlarda qar yağacaq

**Azərbaycanda fevralın 16-na gözlənilən hava proqnozu açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal-qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturu gecə 1-3°, gündüz 4-6° isti olacaq. Atmosfer təzyiqi 763 millimetr civə sütunundan 770 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı proqnozlaşdırılır. Arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 4° şaxtadan 1°-dək isti, gündüz 7-11° isti, dağlarda gecə 8-13°, gündüz 0-5° şaxta olacağı bildirilir.

Gecə və səhər dağlıq rayonlarda yollar buz bağlayacaq.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarının bəzi yerlərində arabir qar yağacağı, axşama doğru tədricən kəsiləcəyi gözlənilir. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 7-12° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti olacaq. Gecə yollar buz bağlayacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarının bəzi yerlərində arabir qar yağacağı gözlənilir. Arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 5-10°, gündüz 0-5° şaxta olacağı proqnozlaşdırılır. Gecə və səhər yollar buz bağlayacaq.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarının bəzi yerlərində arabir qar yağacağı gözlənilir. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 3-8° şaxta, dağlıq ərazilərdə 13°-dək şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacağı bildirilir. Gecə və səhər yollar buz bağlayacaq.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 1-6° şaxta, gündüz 6-10° isti olacağı ehtimal edilir. Gecə və səhər yollar buz bağlayacaq.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 3-8° şaxta, gündüz 3-7° isti, dağlarda gecə 8-13°, gündüz 0-5° şaxta olacağı ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə yollar buz bağlayacaq.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə havanın arabir yağıntılı olacağı, sulu qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 4° şaxtadan 1°-dək isti, gündüz 7-11° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 3° şaxtadan 2°-dək isti, gündüz 3-6° isti, dağlarda gecə 3-6° şaxta, gündüz 0-3° şaxta olacaq. Gecə və səhər dağlıq ərazilərdə yollar buz bağlayacaq.

# ALLAH RƏHMƏT ELƏSİN!

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri

**FƏXRƏDDİN QURBANOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı

**FƏXRƏDDİN QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədr müavini Köçərli Həsənova bacısı

**TURA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədr müavini Köçərli Həsənova bacısı

**TURA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*




www.azerbaijan-news.az
contact@azerbaijan-news.az
az.reklam@mail.ru

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5067**
**Sifariş 405**

**Qiyməti 40 qəpik**